RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 68 (8947) ÇƏRŞƏNBƏ AXŞAMI, 5 aprel 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan-Rusiya münasibətləri strateji tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq ruhunda uğurla inkişaf edir



### Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç!

Əlamətdar yubiley - Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Sizi və Sizin şəxsinizdə dost Rusiya xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ötən 30 il ərzində xalqlarımız arasında çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələrinə əsaslanan Azərbaycan-Rusiya münasibətləri qarşılıqlı hörmət və etimad, bir-birinin mənafelərinin nəzərə alınması prinsipləri əsasında strateji tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq ruhunda uğurla inkişaf edib və möhkəmlənib.

Bu gün fəal siyasi dialoq, ticari-iqtisadi, nəqliyyat, energetika, humanitar və digər sahələrdə səmərəli əməkdaşlıqla səciyyəvi olan dövlətlərarası əlaqələrimiz böyük məmnunluq doğurur. Qarşılıqlı ticarətin və investisiyaların davamlı artımı, sanballı müqavilə-hüquq bazası, müxtəlif sahələrdə birgə layihələrin və təşəbbüslərin səmərəli reallaşdırılması ikitərəfli münasibətlərin dinamik inkişafına parlaq sübutdur.

Xüsusilə sevindirici haldır ki, diplomatik münasibətlərin qurulmasının budəfəki yubiley ili Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanması ilə eyni vaxta düşüb. Bu mühüm sənəddə 30 illik dövrdə dövlətlərimiz arasında münasibətlərin keyfiyyətcə yeni, ən yüksək səviyyəyə çatması təsbit olunub.

Şübhəsiz, ali və yüksək səviyyədə müntəzəm əlaqələr, qarşılıqlı səfərlər və görüşlər də Azərbaycan ilə Rusiya arasında əlaqələrin inkişaf dinamikasına və birgə fəaliyyətin dərinləşməsinə müsbət təsir göstərir.

Dərin tarixi köklərlə, mənəvi və mədəni yaxınlıqla bağlı olan xalqlarımız arasında dostluğun, mehriban qonşuluğun və qarşılıqlı anlaşmanın möhkəmlənməsində mədəni-humanitar münasibətlərin rolunu xüsusi qeyd etmək istərdim. Mədəniyyət və təhsil sahələrində əməkdaşlıq, Azərbaycanda rus dilinin və rus mədəniyyətinin dövlət səviyyəsində hərtərəfli dəstəklənməsi, Azərbaycanın məktəblərində və ali təhsil müəssisələrində rus dilində təhsil bizim tərəfdaşlığımızın humanitar gündəliyinə verdiyimiz əhəmiyyəti əyani şəkildə təsdiq edir.

Regionlararası kooperasiya da bizim dövlətlərarası münasibətlərin mühüm tərkib hissəsidir. Azərbaycan Rusiya Federasiyasının çoxsaylı subyektləri ilə fəal qarşılıqlı əlaqə saxlayır, bununla da bütün səviyyələrdə əlaqələrimizin genişlənməsinə şərait yaradır.

Əminəm ki, biz birgə səylərimizlə bundan sonra da ikitərəfli əməkdaşlığın aktual məsələlərini reallaşdıra, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlərin xalqlarımızın və ölkələrimizin mənafeyi naminə möhkəmlənməsi üçün yeni imkanlar aça biləcəyik.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Rusiya xalqına isə əmin-amanlıq və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 1 aprel 2022-ci il*

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Dövlətlərimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə səmimi təbriklərimi qəbul edin.

Dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan Rusiya-Azərbaycan əlaqələrinin inkişafı üçün ötən onilliklər ərzində bir çox işlərin reallaşmasına nail olunub. Ticari-iqtisadi, elmi-texniki, humanitar və digər sahələrdə konstruktiv siyasi dialoq, səmərəli əməkdaşlıq genişlənir. Keçən il və inişil bağlanmış üçtərəfli müqavilələrə əsasən, Cənubi Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi üzərində birlikdə işləyirik.

Bu il mühüm nailiyyətlə - Rusiya və Azərbaycan arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanması ilə əlamətdardır. Əminəm ki, ikitərəfli münasibətlərin yeni, keyfiyyətcə daha yüksək səviyyəyə çatdırılması xalqlarımızın təməl maraqlarına uyğun gəlir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, bütün həmvətənlərinizə isə əmin-amanlıq və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

# Regionun lideri



## İlham Əliyevin təşəbbüsləri Azərbaycanı Cənubi Qafqazın tranzit və logistik mərkəzinə çevirib

**Azərbaycanı regionun lider dövləti edən amillər sırasında son dövrlərdə həyata keçirilmiş nəqliyyat layihələrinin özünəməxsus yeri var.**

Şərq-Qərb, Şimal-Cənub istiqamətlərində avtomobil və dəmir yolları şəbəkələrinin yenidən qurulması, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin istifadəyə verilməsi respublikamızın tranzit imkanlarını daha da artırıb. Xüsusilə qeyd edilməlidir ki, qloballaşan dünyanın yeni geoiqtisadi çağırışları kontekstində ölkəmizin bu sahədə mövqelərinin möhkəmlənməsi strateji əhəmiyyət daşıyır.

### Torpaqlarımızın azad edilməsi qarşıya qoyulan vəzifələri yeniləyib

Artıq Azərbaycan özünü təkcə neft və qaz hasil edərək ixrac edən ölkə kimi deyil, həm də Şərqi Qərblə, Şimalı Cənubla birləşdirən nəqliyyat qovşağı və logistika mərkəzi kimi dünyaya təqdim edir. Görünən odur ki, ölkəmizdə güclü nəqliyyat-logistika infrastrukturunun formalaşdırılması istiqamətində Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələr uğurla reallaşdırılır. Bu gün respublikamız həyata keçirdiyi layihələrin sayəsində digər nəqliyyat dəhlizləri ilə müqayisədə yüklərin Azərbaycan ərazisindən keçməklə müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verib, daha əlverişli şərtlərlə yüklərin qısa müddətdə, təhlükəsiz və vaxtında çatdırılmasına, həmçinin tranzit daşımalarının həcminin dəfələrlə artmasına imkan yaradıb.

*Ardı 2-ci səh.*

## 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan beynəlxalq humanitar hüququn təməl prinsiplərinə ciddi şəkildə riayət edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Avropa Şurasının Baş katibi statusunda Mariya Peyçinoviç Buriçi Azərbaycanda görməkdən məmnun olduğunu bildirdi və 2019-cu ilin aprelində Xorvatiyanın Baş nazirinin müavini, xarici və Avropa işləri üzrə nazir qismində ölkəmizə səfərini və səfər çərçivəsində görüşlərini qeyd etdi.

Dövlətimizin başçısı özünün Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi vaxtilə AŞ PA-dakı fəaliyyətini xatırlatdı.

*Ardı 2-ci səh.*

## İtkin düşmüş şəxslərlə bağlı Ermənistan tərəfindən xoş niyyət nümayiş olunmur

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru xanım Katrin Bombergeri qəbul edib.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı birinci Ermənistan-Azərbaycan müharibəsindən etibarən 3890 nəfər azərbaycanlının itkin düşmüş hesab olunduğunu, onların bir çoxunun işgəncələrə məruz qaldığını və öldürülərək Ermənistan tərəfindən kütləvi məzarlıqlarda basdırıldığını qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan humanitar xarakter daşıyan bu məsələ ilə bağlı dəfələrlə Ermənistan tərəfinə müraciət etsə də, Ermənistan tərəfindən konstruktiv əməkdaşlıq və xoş niyyət nümayiş olunmayıb.

*Ardı 2-ci səh.*

## Yeni əsrin qlobal layihəsi - "YAŞIL ENERJİ"

**Azərbaycan alternativ enerjidən istifadəni daha da genişləndirəcək**

*Bax: səh. 6*

## "Ümid" ümidləri doğruldur

**Bu il yataqdan hasilatın keçən ildəkindən çox olacağı gözlənilir**

*Bax: səh. 6*

# Avropanın birincisi



*Bax: səh. 7*

# 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan beynəlxalq humanitar hüququn təməl prinsiplərinə ciddi şəkildə riayət edib



*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığının konstruktiv dialoq əsasında inkişaf etməsinin vacibliyini bildirərək, Avropa Şurasına üzvlük çərçivəsində ölkəmizin qanunvericilik bazasının müasirləşdirilməsi istiqamətində ardıcıl addımların atıldığını diqqətə çatdırdı.

Ölkəmizə səfər etməkdən məmnunluğunu bildirən Mariya Peyçinoviç Buriç Azərbaycanın Avropa Şurasında üzvlüyünün yüksək dəyərləndirildiyini dedi və üzvlük prosesi çərçivəsində ölkəmizin Avropa Şurasının çox sayda konvensiya və müvafiq sənədlərinə qoşulduğunu və bu əsnada işin aparıldığını bildirdi.

Söhbət zamanı Azərbaycanla Avropa Şurası arasında 2022-2025-ci illəri əhatə edən Fəaliyyət Proqramının qəbul olunacağı məmnunluqla qeyd edildi və bu proqramda bir sıra sahələrdə əməkdaşlığın nəzərdə tutulduğu vurğulandı.

Prezident İlham Əliyev regionda yaranmış yeni vəziyyət, Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması üçün irəli sürdüyü təkliflər, həmçinin işğaldan azad olunmuş ərazilərdə mövcud vəziyyət barədə Avropa Şurasının Baş katibinə məlumat verdi.

Dövlətimizin başçısı birinci Ermənistan-Azərbaycan müharibəsindən etibarən 3890 nəfər azərbaycanlının itkin düşdüyünü qeyd etdi və onların taleyinin müəyyənləşdirilməsi üçün Ermənistan tərəfindən kütləvi məzarlıqların yerləri haqqında məlumatın verilməsinin vacibliyini vurğuladı. İşğaldan azad olunmuş ərazilərdə Azərbaycanın mina problemindən ciddi şəkildə əziyyət çəkdiyini, 2020-ci il 10 noyabr Bəyanatından bəri 200-dən çox insanın minaların partlaması nəticəsində həlak olduğunu və ya yaralandığını diqqətə çatdırdı. Prezident İlham Əliyev bildirdi ki, 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan beynəlxalq humanitar hüququn təməl prinsiplərinə ciddi şəkildə riayət edib. Ancaq buna baxmayaraq, müharibə dövründə Ermənistan tərəfindən çox sayda hərbi cinayətlərin törədildiyini bildirən dövlətimizin başçısı hərbi əməliyyatlar zamanı Ermənistanın şəhərlərimizi raketlərlə atəşə tutması, nəticədə aralarında uşaq və qadınlar da olmaqla 100-dən çox mülki şəxsin həlak olması faktını vurğuladı.

Prezident İlham Əliyev Avropa Şurasının da iki ölkə arasında etimad quruculuğu prosesinə və inteqrasiya olunmuş Cənubi Qafqaz regionunun qurulması işinə töhfə verə biləcək bir platforma rolunu oynaya biləcəyini qeyd etdi.

Avropa Şurasının Baş katibi Azərbaycanın bu sahədə nümayiş etdirdiyi yüksək siyasi iradənin təqdir olunduğunu bildirdi.

Mariya Peyçinoviç Buriç Avropa Şurasının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması və iki ölkənin cəmiyyətləri arasında etimadın qurulması prosesində platforma rolunu oynamağa hazır olduğunu qeyd etdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# İtkin düşmüş şəxslərlə bağlı Ermənistan tərəfindən xoş niyyət nümayiş olunmur



*Əvvəli 1-ci səh.*

Dövlətimizin başçısı bu yaxınlarda Xocavəndin Edilli kəndində belə bir kütləvi məzarlığın müəyyən olunduğunu, qazıntı işləri apararaq orada basdırılmış şəxslərin qalıqlarının aşkara çıxarıldığını və bu qalıqların DNT analiz təyinatlı laborator müayinələrə təqdim edildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev itkin düşmüş şəxslər məsələsinin daim dövlətimizin gündəliyində olduğunu, bunun Avropa İttifaqı və digər beynəlxalq təsisatlarla da müzakirə edildiyini vurğuladı.

Azərbaycanın bu sahədə texniki imkanlarını genişləndirdiyini qeyd edən dövlətimizin başçısı ölkəmizdə yeni modul laboratoriyaların qurulduğunu, xüsusi dron uçuş aparatlarının və digər ləvazimatların alındığını, cəlb olunmuş mütəxəssislərin peşə qabiliyyətlərinin artırıldığını diqqətə çatdırdı. İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın təcrübəsinin və imkanlarının ölkəmiz üçün çox vacib olduğunu qeyd etdi, bu komissiyanın dünyanın müxtəlif ölkələrində uğurlu fəaliyyət göstərdiyini diqqətə çatdırdı.

Katrin Bomberger itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi məsələsində Azərbaycanla yaxından əməkdaşlıq etməyə hazır olduğunu bildirdi. Qeyd etdi ki, təşkilat dünyanın müxtəlif ölkələrində, o cümlədən Qərbi Balkanlarda genişmiqyaslı fəaliyyət göstərib və itkin düşmüş hesab olunan minlərlə insanın taleyini müəyyən edərək onların ailəsinə məlumat verilməsində öz rolunu oynayıb.

DNT analiz nümunələrinin toplanması və laborator analizlər vasitəsilə insanların şəxsiyyətinin müəyyən edilməsinin vacibliyini bildirən Katrin Bomberger Azərbaycanda itkin düşmüş şəxslər üzrə məlumat bazasının yaradılması, kütləvi məzarlıqlarda birgə qazıntıların aparılması, yerli mütəxəssislərin peşəkarlıqlarının artırılması kimi işlərə öz töhfəsini verməyə hazır olduğunu dedi. O, əlavə etdi ki, itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi etimadın yaradılması və davamlı sülhün təmin edilməsi baxımından vacibdir.

İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru səfər çərçivəsində bir sıra görüşlər keçirəcəyini və Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə əməkdaşlığa dair niyyət protokolunun imzalanacağını və praktiki işə başlayacaqlarını diqqətə çatdırdı.

# "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq dövlət qurumlarının fəaliyyətində şəffaflığın daha da artırılması, korrupsiyaya şərait yaradan halların qarşısının alınması, dövlət orqanlarının ictimaiyyət qarşısında hesabatlılığının daha da gücləndirilməsi, dövlət qurumları tərəfindən əhaliyə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi və elektronlaşdırılması, eləcə də korrupsiyaya qarşı mübarizə ilə bağlı görülən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilsin (əlavə olunur).

2. Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, həmçinin dövlət adından yaradılmış publik hüquqi şəxslər:

2.1. "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nda (bundan sonra - Fəaliyyət Planı) nəzərdə tutulan tədbirlərin icrası barədə hər il dekabrın 30-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına illik hesabat təqdim etsinlər;

2.2. Fəaliyyət Planının icrası üzrə illik iş planlarını təsdiq etsinlər və bu barədə məlumatı Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına elektron formada göndərsinlər.

3. Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Baş Prokurorluğuna, Məhkəmə-Hüquq Şurasına, insan hüquqları üzrə müvəkkilinə (ombudsmana), Mərkəzi Bankına və Hesablama Palatasına, habelə bələdiyyələrin milli assosiasiyalarına tövsiyə olunsun ki, Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrasını təmin etsinlər.

4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına tövsiyə edilsin ki, Fəaliyyət Planının yerinə yetirilməsi ilə əlaqədar görülən işlərin vəziyyətini mütəmadi təhlil etsinlər və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

5. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

5.1. Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

5.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına tövsiyə edilsin ki:

6.1. Fəaliyyət Planının icrasının mütəmadi qiymətləndirilməsini təmin etsin, bu prosesə vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsi üçün tədbirlər görsün;

6.2. Fəaliyyət Planının icrası sahəsində görülən işlər barədə ictimaiyyəti mütəmadi olaraq məlumatlandırsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 aprel 2022-ci il*

# İ.H.Kərimovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında hüquq sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə İkram Heydər oğlu Kərimov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 aprel 2022-ci il*

# İ.Ə.Nəcəfovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının məhkəmə hakimiyyəti orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə İsa Əli oğlu Nəcəfov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 aprel 2022-ci il*

***Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli Sərəncamı ilə təsdiq edilmişdir***

# Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı

Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illəri əhatə edən bu çoxşaxəli Milli Fəaliyyət Planı fərqli fəaliyyət istiqamətləri olan müxtəlif qurumların korrupsiyaya qarşı mübarizə səylərini birləşdirməyə xidmət edir, eləcə də korrupsiyaya qarşı mübarizənin bütün dövlət strukturları və vətəndaş cəmiyyəti institutları ilə birgə sistemli və əlaqəli şəkildə gerçəkləşdirilməsinə imkan yaradır.

Ümumi inkişafa və təhlükəsizliyə mənfi təsir göstərən korrupsiya qanunun aliliyinə və sosial ədalətə ciddi təhlükə yaradır, iqtisadi və sosial inkişafı ləngidir, əlverişli biznes mühitinin yaranmasına mane olur.

Korrupsiya tarixboyu cəmiyyətlərin üzləşdiyi problemlərdən olmuşdur və bu gün də bütün dünya ölkələrində aktual problemlərdən biri olaraq qalmaqdadır.

Korrupsiyaya qarşı mübarizənin davamlı olması, korrupsiyanın qarşısının alınması ilə bağlı müasir çağırışlara uyğun effektiv mexanizmlərin tətbiq edilməsi xüsusi əhəmiyyət kəsb edir. Buna görə də həm beynəlxalq, həm də milli səviyyədə korrupsiyaya qarşı mübarizədə yeni təşəbbüslərin irəli sürülməsi zəruridir və bu sahədə icra edilən tədbirlər korrupsiyaya şərait yaradan halların və korrupsiya hüquqpozmalarının səbəblərinin, növlərinin və nəticələrinin qarşısının alınmasına yönəldilməlidir.

Azərbaycanın korrupsiyaya qarşı mübarizə təcrübəsi sistemli, kompleks və innovativ xarakteri ilə seçilir. Bu sahədə görülən tədbirlər çərçivəsində korrupsiyaya qarşı mübarizəyə dair milli strategiya və fəaliyyət planları qəbul edilmiş, yeni baxışlar və vəzifələr müəyyən edilmişdir. Hazırda ölkəmizdə sosial dövlətin yeni modeli formalaşmışdır və dövlət siyasətinin əsas məqsədi insanların yüksək sosial rifahına nail olmaqdır.

Ölkəmizdə son illərdə əsas strateji hədəflərə çatmaq üçün beynəlxalq miqyasda və ölkə daxilində görülmüş məqsədyönlü, düşünülmüş tədbirlər nəticəsində istər sosial-iqtisadi inkişaf, istərsə də hüquqi-institusional zəmin baxımından əhəmiyyətli irəliləyişə nail olunmuşdur.

Eyni zamanda Vətən müharibəsi nəticəsində işğal altında olan ərazilərin azad edilməsi ilə ölkəmiz üçün yeni inkişaf mərhələsi açılmışdır. Xarici və yerli investorların həmin ərazilərdə infrastruktur layihələrinin icrasına cəlb edilməsi, bu torpaqlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi kimi dövlətin yeni strateji prioritetləri bölgənin gələcək inkişafının carçısıdır. Korrupsiyadan azad mühit və şəffaflıq kimi komponentlər isə məhz bu inkişafın başlıca amilləridir.

Ölkəmizin hazırkı inkişaf mərhələsi korrupsiyaya qarşı mübarizə sahəsində görülməli olan sistem xarakterli tədbirlərin effektivliyini və davamlılığını təmin edəcək yeni bir sənədin - Korrupsiyaya qarşı mübarizəyə dair yeni Milli Fəaliyyət Planının qəbul edilməsini şərtləndirir.

Milli Fəaliyyət Planında əks etdirilmiş kompleks tədbirlərin icrası ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən məqsədyönlü və qətiyyətli fəaliyyətin tərkib hissəsi kimi, şəffaflığın artırılmasına, dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərin keyfiyyət etibarilə yaxşılaşdırılmasına, ictimai nəzarətin təşkilində və korrupsiyanın ifşa edilməsində vətəndaş cəmiyyəti institutlarının rolunun artırılmasına xidmət edir.

Dövlət sektorunda idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, yerli özünüidarəetmədə aşkarlığın və ictimai iştirakçılığın təmin edilməsi, özəl sektorda beynəlxalq standartlar əsasında antikorrupsiya standartlarının formalaşdırılması, müvafiq istiqamətlərdə qanunverici bazanın mütərəqqi beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi korrupsiyaya qarşı mübarizə sahəsində qarşıya qoyulmuş əsas prioritet istiqamətlər və məqsədlərdir.

Milli Fəaliyyət Planı çərçivəsində həyata keçiriləcək tədbirlərin müvafiq icraçı qurumlar üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitlər və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur.

# Regionun lideri

## İlham Əliyevin təşəbbüsləri Azərbaycanı Cənubi Q afqazın tranzit və logistik mərkəzinə çevirib

*Əvvəli 1-ci səh.*

Bunun nəticəsidir ki, ildən-ilə Azərbaycan ərazisindən tranzit yükdaşımaçılığı artmaqdadır. Beynəlxalq yüklərin daşınmasının çoxalması ölkəmizdə tranzit imkanlarının artırılması istiqamətində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsindən xəbər verir. Çin Xalq Respublikası da bu ölkənin rəhbəri Si Cinpin tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" təşəbbüsündə Azərbaycanın tranzit imkanlarını yüksək qiymətləndirir. Bu təşəbbüsə bir neçə istiqamət daxildir ki, onlardan biri Çindən başlayıb Mərkəzi Asiya ölkələrindən, Azərbaycan, Gürcüstan və Türkiyədən keçməklə Cənubi Avropaya uzanır. Bu baxımdan Azərbaycanın həyata keçirdiyi nəqliyyat layihələri Çində böyük maraqla qarşılanır və təqdir olunur.

Torpaqlarımızın işğaldan azad edilməsi Azərbaycanda tranzit və logistika sahəsində qarşıya qoyulan vəzifələri də yeniləyib. Qarabağın və Şərqi Zəngəzurun bərpası ilə bağlı həyata keçirilən layihələr bu ərazilərin nəqliyyat infrastrukturunun bərpası ilə yanaşı, onların beynəlxalq tranzit baxımından potensialından istifadəsini də nəzərdə tutur. Məsələn, hazırda icrası davam edən Əhmədbəyli - Horadiz - Cəbrayıl - Zəngilan - Ağbənd yeni avtomobil yolu, Zəngilan Hava Limanı kimi layihələr həm də respublikamızın beynəlxalq tranzitlə bağlı imkanlarını daha da artırır.

### Azərbaycan Ermənistanı yeni layihədən də kənarda qoydu

Mart ayında Azərbacanla İran arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında anlaşma memorandumunun imzalanması göstərdi ki, respublikamız indiyə qədər görülmüş işlərlə kifayətlənmir və regionun əsas tranzit habı kimi mövqelərini daha da gücləndirmək üçün bütün imkanlardan səmərəli yararlanır.

Xatırladaq ki, anlaşma memorandumu İran ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılmasını nəzərdə tutur. Daha dəqiq ifadə etsək, bu tarixi sənədin məqsədi respublikamızın əsas hissəsi ilə Naxçıvan arasında yeni dəmir yolu, avtomobil yolu əlaqəsinin, eləcə də rabitə və enerji təminatı xətlərinin yaradılmasından ibarətdir.

Sənədə əsasən Araz çayı üzərində iki avtomobil (piyada keçidi ilə) və iki dəmir yolu olmaqla ümumilikdə dörd körpünün, o cümlədən rabitə və enerji təminatı infrastrukturunun tikintisi nəzərdə tutulur. Həmin körpülər Ermənistanın dövlət sərhədindən cəmi 5 km aralı inşa olunacaq. Şərqi Zəngəzur iqtisadi rayonunu İranla birləşdirən avtomobil körpüsünün, eləcə də rabitə və enerji xətlərinin layihə sənədlərinin hazırlanması, tikintisi və bu tikintiyə nəzarət işləri üzrə bütün xərclər Azərbaycan tərəfindən ödəniləcək. İranı Naxçıvan MR-in Ordubad rayonu ilə birləşdirən avtomobil körpüsünün layihə sənədlərinin hazırlanması, tikintisi və tikintiyə nəzarət işləri üzrə bütün xərcləri İran tərəfi həyata keçirəcək.

Vətən müharibəsindən sonra Ermənistanın iqtisadi böhrandan və eyni zamanda iqtisadi blokadadan çıxa bilməsi üçün tarixi zəmin yaranmışdı. Azərbaycanın öz tarixi Zəfəri ilə bölgəyə gətirdiyi yeni reallıqlar Ermənistan üçün də mühüm imkanlar açmışdı. Çünki Zəngəzur dəhlizinin yaradılması ilə onilliklər boyu işğal siyasətinin qurbanı olan bu ölkənin xarici aləmlə iqtisadi əlaqələri yaranacaqdı. Lakin ötən dövrün reallıqları göstərir ki, Ermənistan tərəfi yaranmış bu tarixi şansı da düzgün dəyərləndirməkdən uzaqdır.

İran ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması regionun strateji yeniliyidir. Təbii ki, bu layihədə, bu strateji yenilikdə Ermənistana yer yoxdur və olmayacaq. Ermənistan rəhbərliyi elə düşünürdü ki, belə bir kommunikasiya yalnız onun ərazisindən və onun icazəsi ilə yaradıla bilər. Ermənistan bu amili Azərbaycana qarşı təsir vasitəsi kimi istifadə etməyi, özündən asılı vəziyyətdə saxlamağı planlamışdı. Lakin Azərbaycan-İran dostluğu və münasibətləri Ermənistanın bu planını alt-üst etdi. Daim Ermənistanı təcrid vəziyyətinə salan Azərbaycan bu dəfə də onu regionun yeni layihəsindən kənarda qoydu.

Azərbaycan qarşısına qoyduğu hədəflərə çatan dövlətdir. Nəqliyyat infrastrukturunda həyata keçirilən layihələr Asiya ilə Avropanın qovuşduğu coğrafi məkanda yerləşən Azərbaycanın nəqliyyat dəhlizi kimi önəmini daha da artırıb. İran ərazisindən keçməklə yaradılan yeni bağlantı isə respublikamızın mövqelərini daha da gücləndirəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisdə Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlığın müxtəlif sahələri və digər məsələlər barədə fikir mübadiləsi aparılıb

**Aprelin 4-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Milli Məclisin Sədri ötən il Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzvlüyünə qəbul edilməsinin 20 ilinin tamam olduğunu diqqətə çatdırıb. Sahibə Qafarova ölkəmizin ötən müddət ərzində Avropa Şurası və onun institutları ilə konstruktiv dialoq əsasında fəal əməkdaşlıq etdiyini qeyd edib. Bildirilib ki, Milli Məclisin AŞPA-dakı nümayəndə heyətinin üzvləri bu təşkilatın tədbirlərində, onun komitələrinin işində yaxından iştirak edir. Deputatlarımız AŞPA-nın qurumlarında müxtəlif aparıcı vəzifələrə seçiliblər. Pandemiyaya baxmayaraq, deputatlarımız həmişə AŞPA-nın tədbirlərinə onlayn və ya ənənəvi formatda qatılıblar və sıx əməkdaşlığımızı bundan sonra da davam etdirmək niyyətindəyik.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Azərbaycanla Avropa Şurası arasında 2022-2025-ci illəri əhatə edən fəaliyyət proqramı qəbul olunduqdan sonra əməkdaşlığımızın daha da dərinləşməsinə kömək edəcək. Həmin proqramda bir sıra sahələrdə əməkdaşlıq nəzərdə tutulur.

Görüşdə 44 günlük Vətən müharibəsi barədə məlumat verən S.Qafarova Azərbaycanın sülh və sabitliyin tərəfdarı olduğunu qeyd edib. Nəzərə çatdırılıb ki, Azərbaycanın Vətən müharibəsində qələbəsi və 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarını azad etməsi regionda yeni reallıqlar yaradıb. Ölkəmiz ərazilərinin tezliklə minalardan təmizlənməsi və 30 ilə yaxın məcburi köçkün həyatı yaşamış vətəndaşlarının öz yurdlarına qayıtması üçün sürətli bərpa və quruculuq işləri aparır. Sahibə Qafarova deyib: “Ümid edirik ki, Ermənistan üçtərəfli Bəyanatda üzərinə götürdüyü öhdəlikləri tam olaraq yerinə yetirəcək. Sülh sazişinin imzalanması region ölkələrinin inkişafına yeni təkan verəcəkdir”.

Milli Məclisdə olmaqdan və qonaqpərvər münasibətdən məmnunluğunu bildirən Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriç onun təmsil etdiyi təşkilatla Azərbaycanın uğurlu əməkdaşlıq etdiyini qeyd edib. Bildirib ki, AŞ və Azərbaycan arasında qəbul olunması nəzərdə tutulan yeni fəaliyyət planı gələcək əməkdaşlığa öz töhfəsini verəcəkdir.

Səfər çərçivəsində keçirdiyi görüşlər barədə təəssüratlarını bölüşən qonaq müzakirə olunan məsələlərin əhəmiyyətini qeyd edib. Söhbət zamanı Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlığın müxtəlif sahələri və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinin rəhbəri Səməd Seyidov və digər rəsmi şəxslər iştirak ediblər.

# Antiinflyasiya tədbirləri çərçivəsində sahibkarlığa yeni dəstək mexanizmi yaradılır

Nazirlər Kabinetinin 2022-ci il 4 aprel tarixli 145 nömrəli qərarı antiinflyasiya tədbirləri çərçivəsində atılan növbəti addımdır.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu qərarla minimum istehlak səbətinin tərkibində əsas ərzaq məhsullarının tədarükü və emalı, aqrar emal ilə məşğul olan mikro, kiçik və orta sahibkarlar üçün güzəştli maliyyələşdirmə alətlərinə və məhsullarına dair mexanizmlər yaradılması nəzərdə tutulur.

Mexanizmlər üzrə aşağıdakılar təklif olunur:

1. Güzəştli kredit mexanizmi üzrə

Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2022-ci il ərzində minimum istehlak səbətinin tərkibində əsas ərzaq məhsullarının tədarükü və emalı, aqrar emal ilə məşğul olan mikro, kiçik və orta sahibkarlara əlavə olaraq xammal tədarükü üçün güzəştli maliyyələşmə;

2. Kredit faizlərinin subsidiyalaşdırılması üzrə

Maliyyə xərclərinin azalması və nəticə etibarı ilə minimum istehlak səbətinin tərkibində əsas ərzaq məhsullarının maya dəyərinin aşağı salınması məqsədilə həmin sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə 2022-ci ildə verilən kreditlər üzrə kredit faizlərinin subsidiyalaşdırılması mexanizminin tətbiqi.

Mexanizm üzrə şərtlər:

- Subsidiyanın müddəti: 1 ilədək;
- Kreditin müddəti: müddətdən asılı olmayaraq;
- Kreditin məbləği: 3 milyon manatadək;
- Kreditin faiz dərəcəsi: faiz dərəcəsindən asılı olmayaraq;
- Faizin subsidiyası: kredit faizinin 10% bəndinə qədər.

Nəzərdə tutulan şərtlər çərçivəsində 150 milyon manat kredit portfeli üzrə maksimum 15 milyon manat faiz subsidiyasının ödənişi həyata keçiriləcək.

# Xarici işlər naziri Ceyhun Bayramov Avropa Şurasının Baş katibi ilə görüşüb

Aprelin 4-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Avropa Şurasının (AŞ) Baş katibi Mariya Peyçinoviç Buriç ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə tərəflər Azərbaycan ilə Avropa Şurası arasında qarşılıqlı əməkdaşlığın hazırkı durumu və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov Azərbaycanın AŞ ilə 21 illik əməkdaşlıq çərçivəsinə nəzər yetirib. Bu günədək 65 müqavilənin ratifikasiya edildiyini, əlavə olaraq yeddi müqavilənin imzalandığını bildirib. Avropa Şurası ilə Azərbaycan arasında əvvəlki fəaliyyət planları çərçivəsində qarşılıqlı əməkdaşlığın əhəmiyyəti, habelə Azərbaycanın ehtiyacları, AŞ-nin tövsiyələri əsasında işlənib hazırlanan və ümumi əməkdaşlıq çərçivəsini təşkil edəcək 2022-2025-ci illər üzrə yeni fəaliyyət planı vurğulanıb.

Baş katib Mariya Peyçinoviç Buriç AŞ Baş katibi qismində ölkəmizə ilk dəfə səfər etdiyini və bu çərçivədə dövlətimizin başçısı ilə görüşün baş tutduğunu bildirib. Baş katib səfəri çərçivəsində AŞ-Azərbaycan 2022-2025 Fəaliyyət Planının təsis görüşündə iştirak edəcəyini məmnunluqla vurğulayıb.

Nazir Ceyhun Bayramov Avropa Şurası rəsmisinə bölgədə mövcud olan münaqişə sonrası vəziyyət, üçtərəfli bəyanatların icrası və bu xüsusda Azərbaycan tərəfindən atılan addımlar, delimitasiya prosesi, habelə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidən quruculuq işləri ilə bağlı ətraflı məlumat verib. Nazir Azərbaycanın azad olunmuş ərazilərində mina təhlükəsinin doğurduğu ağır fəsadlardan, eləcə də Azərbaycan hökumətinin həyata keçirdiyi humanitar minadan təmizləmə işlərindən bəhs edib. Hələ 1990-cı illərin əvvəllərindən itkin düşən 4000-ə yaxın azərbaycanlının taleyi ilə bağlı Ermənistan tərəfindən hər hansı məlumatın verilmədiyi də Avropa Şurası Baş katibinin diqqətinə çatdırılıb. Azad edilmiş ərazilərdə aşkarlanan kütləvi məzarlıqların Ermənistan tərəfindən azərbaycanlıların sistematik və məqsədyönlü şəkildə öldürülməsi barədə məlumatların gizlədilməsinin sübutu olduğu bildirilib.

Nazir Ceyhun Bayramov Azərbaycanın bölgənin gələcək inkişafı ilə bağlı baxışlarını həmsöhbəti ilə bölüşüb. Beynəlxalq hüququn prinsipləri əsasında münasibətlərin normallaşması, o cümlədən sərhədlərin delimitasiyası və bütün kommunikasiyaların açılmasının, üçtərəfli bəyanatların müddəalarının tam yerinə yetirilməsinin bölgədə sülh, sabitlik və tərəqqinin təmin edilməsi üçün vacib olduğu vurğulanıb.

Görüşdə tərəflər regional və beynəlxalq gündəliyin aktual məsələləri, Ukraynada və ətrafındakı vəziyyəti, habelə qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Azərbaycan və Gürcüstan xarici işlər nazirləri arasında telefon danışığı olub

Aprelin 4-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Gürcüstanın yeni xarici işlər naziri İliya Darçiaşvili arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov Gürcüstanın xarici işlər nazirini təbrik edib və ona yeni vəzifəsində uğurlar arzulayıb.

Tərəflər iki ölkə arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafına dair fikir mübadiləsi aparıb və gələcəkdə bu əlaqələrin daha da inkişafına dair əminlik ifadə ediblər.

# Ceyhun Bayramov və Gürcüstanın keçmiş xarici işlər naziri arasında telefon danışığı baş tutub

Aprelin 4-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Gürcüstanın keçmiş xarici işlər naziri David Zalkaliani arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov David Zalkalianinin Gürcüstanın xarici işlər naziri vəzifəsində çalışdığı müddətdə iki ölkənin yüksəksəviyyəli və qarşılıqlı faydalı əməkdaşlığının daha da möhkəmləndirilməsi və beynəlxalq müstəvidə əməkdaşlığın genişləndirilməsi naminə birgə səyləri məmnunluqla vurğulayıb və qarşı tərəfə təşəkkürünü ifadə edib.

Nazir David Zalkalianiyə yeni, Gürcüstanın ABŞ-dakı səfiri vəzifəsində uğurlar arzulayıb.

# Dövlət Təhlükəsizliyi Xidmətində İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın rəhbər şəxsləri ilə görüş keçirilib

Aprelin 4-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Əli Nağıyev ölkəmizdə səfərdə olan İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru xanım Katrin Bombergeri və qurumun Siyasət və əməkdaşlıq üzrə direktoru Andreas Kleyzerlə görüşüb.



Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından AZƏRTAC-a bildiriblər ki, Dövlət Komissiyasının sədri Əli Nağıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Birinci və İkinci Qarabağ müharibələri zamanı itkin düşmüş Azərbaycan vətəndaşlarının axtarışı, naməlum məzar yerlərinin ekshumasiyası və meyit qalıqlarının eyniləşdirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlərin görüldüyünü qonaqların diqqətinə çatdırıb. Komissiya sədri dünyanın bir sıra müharibə bölgələrində və təbii fəlakətlər zamanı itkin düşmüş şəxslərin axtarışı, məzar yerlərinin ekshumasiyası və meyit qalıqlarının eyniləşdirilməsi sahəsində böyük iş təcrübəsinə, kadr potensialına və texniki imkanlara malik olan İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın Azərbaycanın müvafiq Dövlət Komissiyası ilə əməkdaşlıq etmək barədə qərarını yüksək qiymətləndirdiyini, 30 ilə yaxın müddət ərzində itkin düşmüş qohumları barədə hər hansı məlumat ala bilməyən ailələrin intizarına son qoyacağına ümidini ifadə edib.

Azərbaycan Respublikasına səfərdən və yüksəksəviyyəli qəbuldan məmnunluğunu bildirən xanım Katrin Bomberger rəhbərlik etdiyi təşkilatın 1996-cı ildə yaradıldığı və 2014-cü ildə beynəlxalq təşkilat hüququ aldığı barədə məlumat verib, qurumun bölgədə baş vermiş silahlı münaqişə nəticəsində itkin düşmüş şəxslərin sonrakı taleyinin müəyyən edilməsi istiqamətində tərəflərlə əməkdaşlığa hazır olduğunu, yaxınlarını itirmiş ailələrin əzablarına son qoyulması üçün çalışacaqlarını bildirib. Sonra Əli Nağıyev və Beynəlxalq Komissiyanın baş direktoru Katrin Bomberger itkin düşmüş şəxslərə aid məzar yerlərinin ekshumasiyası və meyit qalıqlarının eyniləşdirilməsi sahəsində əməkdaşlığa dair protokol imzalayıblar.

İmzalanma mərasimindən sonra İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiya rəhbərliyinin bir qrup itkin ailəsi ilə görüşü keçirilib, ailələri maraqlandıran suallar cavablandırılıb.

# Bakıda Azərbaycanla Rusiya arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü qeyd edilib

Aprelin 4-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə tədbir və sərgi keçirilib.










Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə Azərbaycan XİN-in rəhbər heyəti, Rusiyanın ölkəmizdəki səfirliyinin rəhbərliyi və əməkdaşları iştirak ediblər.

Tədbir hər iki ölkənin dövlət himnlərinin səslənməsi ilə başlayıb.

Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Fariz Rzayev çıxış edərək Azərbaycanla Rusiya arasında diplomatik münasibətlərin 1992-ci il aprelin 4-də qurulmasına baxmayaraq, iki ölkə arasında münasibətlərin tarixinin daha qədim olduğunu qeyd edib. SSRİ-nin dağılmasından sonra iki ölkə arasında ənənəvi dostluq və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin saxlanılmasında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəsna rolu olduğunu bildirən nazir müavini iki ölkənin dövlət başçıları arasında qarşılıqlı etimada əsaslanan siyasi dialoq sayəsində bu gün Azərbaycan ilə Rusiya arasında müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, humanitar və təhsil sahələrində səmərəli əməkdaşlığın mövcud olduğunu vurğulayıb. Nazir müavini Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşmasında ölkəmizin Rusiyanın vasitəçi rolunu yüksək qiymətləndirdiyini bildirib, regionda sülh və sabitliyə nail olmaq üçün imzalanmış üçtərəfli bəyanatların bütün müddəalarının tam şəkildə yerinə yetirilməsinin mühüm şərt olduğunu diqqətə çatdırıb.

Sonra çıxış edən Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov son 30 ildə iki ölkə arasında münasibətlərin inkişaf dinamikasından bəhs edərək, əlaqələrin davamlı şəkildə yüksələn xətt üzrə irəlilədiyini bildirib. Münasibətlərin təməlində yaxın zamanlarda 25 illiyinin qeyd ediləcəyi Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 1997-ci il 3 iyul tarixli müqavilənin dayandığı diqqətə çatdırılıb və növbəti illərdə iki ölkə arasında imzalanan birgə sənədlər məmnunluqla vurğulanıb. Azərbaycan-Rusiya münasibətlərinin inkişafının əsasında iki dövlət başçısı arasında mövcud olan yaxşı münasibətlərlə yanaşı, iki xalqın tarixən mövcud olan sıx təmaslarının dayandığı bildirilib. 30 il bundan əvvəl əsası qoyulan münasibətlərin bu gün öz bəhrəsini verdiyini qeyd edən səfir əlamətdar gün münasibətilə təbriklərini tədbir iştirakçılarına çatdırıb.

Tədbirin sonunda iştirakçılar Azərbaycan ilə Rusiya arasında diplomatik münasibətlərin 30 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.

# Avropa Şurası ölkəmizlə əməkdaşlığın genişləndirilməsində maraqlıdır

Aprelin 4-də ədliyyə naziri Fikrət Məmmədov Azərbaycanda səfərdə olan Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriç və rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Avropa Şurası ilə səmərəli əməkdaşlığı qeyd edən nazir xanım M.Buriç ilə 2019-cu ildə keçirilmiş görüşünü məmnunluqla xatırladaraq ötən müddətdə ölkəmizdə bir çox mühüm yeniliklərin baş verdiyini, xüsusilə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın 30 illik işğaldan azad edilməsi ilə bir milyona yaxın keçmiş məcburi köçkünlərimizin hüquqlarının bərpasına şərait yarandığını və onların öz doğma torpaqlarına qayıdışı ilə əlaqədar həmin ərazilərdə nəhəng bərpa-quruculuq işlərinin aparıldığını diqqətə çatdırıb.

Azərbaycanın ötən il Avropa Şurasına üzvlüyünün 20 illiyinin qeyd edildiyinin vurğulandığı görüşdə xanım M.Buriç bu dövrdə ölkəmizin bir çox konvensiyalara qoşulmasının, həmçinin 2014-cü ildə Avropa Şurası Nazirlər Komitəsinə uğurlu sədrliyinin əməkdaşlığın inkişafına geniş imkan yaratdığını vurğulayıb, Ədliyyə Nazirliyinin Avropa Şurası ilə konstruktiv əlaqələrə töhfəsini qeyd edib, səfərin dialoq və əməkdaşlığın davam etdirilməsinə xidmət etdiyini söyləyib.

Avropa Şurası ailəsində daim firavanlıq olmasını arzulayan Baş katib üzv dövlətlər arasında sabit və davamlı sülhə nail olmaq üçün hər cür dəstək göstərməyə hazır olduğunu bildirib.

Görüşdə əməkdaşlıq çərçivəsində birgə fəaliyyət planlarının uğurla həyata keçirildiyi, 2022-2025-ci illər üzrə qəbul olunan və müasir çağırışlara uyğun tədbirləri nəzərdə tutan növbəti fəaliyyət planının ikitərəfli əlaqələrə əlavə təkan verəcəyi qeyd olunub, Planın mühüm prioritetlərindən olan məhkəmə-hüquq islahatlarına toxunulub.

Nazir F.Məmmədov dövlətimizin başçısının rəhbərliyi ilə məhkəmə sistemindəki yeniliklər, Dünya Bankının iştirakı ilə yüksək texnoloji (hi-tech) məhkəmələrin yaradılması, o cümlədən ötən il Azərbaycan Prezidentinin şəxsən iştirakı ilə 11 məhkəmə üçün yeni, müasir bina və komplekslərin istifadəyə verilməsi, “Elektron məhkəmə” sisteminin tətbiqi barədə məlumat verib. Dövlətimizin başçısının eyni zamanda cəmiyyətin həssas qrupu olan qadın və yetkinlik yaşına çatmayan məhkumların hüquqlarının qorunmasına xüsusi önəm verərək bu günlərdə onlar üçün yeni inşa olunmuş müasir penitensiar müəssisələrə baş çəkdiyini və şəraitlə tanış olduğunu vurğulayıb.

M.Buriç ədliyyə və məhkəmə sistemindəki yenilikləri təqdir edərək dövlətimizin bu sahələrdə infrastrukturların müasirləşdirilməsinə verdiyi önəmi xüsusilə qeyd edib, müasir texnologiyaların tətbiqinin şəffaflıq baxımından əhəmiyyətinə toxunub, hakimlərin və digər hüquqşünasların tədrisində, o cümlədən İnsan hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin öyrənilməsi və tətbiqi sahədə qarşılıqlı fəaliyyətin genişləndirilməsinə maraq göstərib.

Görüşdə əməkdaşlığın perspektivləri müzakirə olunub, Avropa Şurasının tövsiyələrinin icrası, qanunvericiliyin təkmilləşdirilməsi, media və vətəndaş cəmiyyətinin inkişafı və digər maraq doğuran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.

Tədbirdə Avropa Şurasının ölkəmizdəki ofisinin rəhbəri, səfir Zoltan Hernyeş iştirak edib. Qonaqlar nazirlikdə Ədliyyə Tarixi Muzeyi ilə tanış olublar.

# Heydər Əliyev Mərkəzində III Beynəlxalq Autizm ABA Azərbaycan Konfransının yekununa həsr olunan konsert verilib









**Aprelin 3-də Heydər Əliyev Mərkəzində III Beynəlxalq Autizm ABA Azərbaycan Konfransının yekununa həsr olunan konsert verilib.**

AZƏRTAC xəbər verir ki, konsertdə autizmli gənclər və tanınmış incəsənət ustaları çıxış ediblər.

İlk çıxışçı - autizmli gənc piano ifaçısı Əlisahib Bayramov səhnəyə dəvət edilməzdən əvvəl onun konsertə necə hazırlaşdığını tamaşaçılara çatdırmaq üçün videoçarx göstərilib. Bildirilib ki, Əlisahib Bayramova səhnə vərdişlərini yiyələndirmək asan olmayıb. Bu məsələdə onun ailəsindən, çevrəsindən çox böyük səbir, dözüm, iradə, anlayış, insanseverlik tələb olunub. Ən böyük dəstəyi o, ailəsindən alıb. Qeyd olunub ki, anası, atası və qardaşı ona çox inanır. Amma bu sahədə pianoçuya ikinci böyük dəstəyi onun müəllimi, beynəlxalq müsabiqələr laureatı, Qran-pri mükafatçısı Humay Mansurova göstərib.

Sonra Əlisahib Bayramov və Humay Mansurova pianoda Tofiq Quliyevin "Sevgi" valsını ifa ediblər.

Gecədə Azərbaycanın fərqli balalarını öz himayəsində saxlayan Heydər Əliyev Fondunun rolu xüsusi vurğulanıb. Bildirilib ki, Leyla Əliyeva yazdığı şeirlərilə hər zaman insanların qəlbinə yol tapır. O, istedadlı insanlara olan xüsusi münasibətilə seçilir. Buna görə də proqramda Leyla Əliyevanın yaradıcılığını göz önünə gətirmək üçün səhnəyə qiraətçi Xəzər Süleymanlı dəvət olunub. O, Eldar Mansurovun "Elegiya"sının sədaları altında Leyla Əliyevanın şeirlərindən birini oxuyub. Tədbirdə Əlisahib Bayramovun fərqli bir dünyada yaşadığı diqqətə çatdırılıb. Bildirilib ki, onun ən çox sevdiyi əsərlərdən biri Müslüm Maqomayevin "Dəniz" mahnısıdır. Məhz dalğaların xışıltısında Əlisahib qurduğu dünyada rahatlıq tapır, öz arzularına qovuşur.

Proqramın davamında Şəhriyar İmanov tarda Azər Rzayevin "Düşüncə" əsərini, Ceyla Seyidova skripkada Rolf Lövlandın "Secret Garden" kompozisiyasını ifa ediblər. Ardınca Fərid Əliyev Müslüm Maqomayevin "Dəniz" mahnısını səsləndirib. Gecədə Faiq Sücəddinov "Vətən balladası"nı, Fidan Hacıyeva "Azərbaycan", Tünzalə Ağayeva autizmli şəxslərdən bəhs edən "Fərqliyəm" mahnısını oxuyublar.

İfalar zamanı səhnədə kompozisiyalara və mövzuya uyğun proyeksiya olunan videogörüntülər gecəyə xüsusi bir ab-hava gətirib.

Qeyd edək ki, aprelin 2-3-də Heydər Əliyev Fondu, Heydər Əliyev Mərkəzi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Agentliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, "Regional İnkişaf" İctimai Birliyi, "Birgə və Sağlam" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən ikigünlük konfransda məqsəd autizm sindromunun erkən aşkarlanması, erkən müdaxilə üzrə xidmətlər, eləcə də autizmli şəxslərin ömür boyu təhsil və məşğulluğunun təmin olunmasında inklüziv və multidisiplinar yanaşmalara əsaslanan beynəlxalq təcrübələrin öyrənilməsi, ictimaiyyətin diqqətini bu şəxslərin problemlərinə yönəltmək, autizmli insanların həyat keyfiyyətinin yaxşılaşdırılmasına kömək etmək olub.

# Şəhid ailələrinin üzvləri və qazilər üçün növbəti tibbi aksiya keçirilib





"Regional İnkişaf" İctimai Birliyi (RİİB), Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi (TƏBİB) və Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının (AKHA) birgə təşkilatçılığı ilə aprelin 2-də Ağdam və ətraf rayonlardan olan şəhid ailələrinin üzvləri və qazilər üçün tibbi aksiya keçirilib.

TƏBİB-dən AZƏRTAC-a bildirilib ki, müayinələr Quzanlı qəsəbəsində yerləşən Ağdam Rayon Mərkəzi Xəstəxanasında paytaxtın müxtəlif dövlət və özəl xəstəxanalarında çalışan kardioloq, onkoloq, radioloq, terapevt, pediatr, nevroloq, uroloq və digər ixtisaslar üzrə könüllü həkimlər tərəfindən aparılıb.

Keçirilən müayinələrin nəticələrindən asılı olaraq xəstəlik aşkar edilən vətəndaşlara müvafiq müalicə kursları təyin edilib, yerində məsləhətlər verilib, digər patologiya müşahidə edilən şəxslər isə ixtisaslaşmış tibb müəssisələrinə yönləndirilib.

Layihə çərçivəsində həmçinin zəruri dərman vasitələri ilə təmin olunan xəstəlik aşkarlanmış şəxslərin növbəti mərhələdə tam müayinələrdən keçirilməsi, müalicəsi və ehtiyac olduqda cərrahi əməliyyatları təmin ediləcək.

Qeyd edək ki, RİİB könüllülərinin yaxından dəstək verdiyi bu cür aksiyaların digər regionlarda da keçirilməsi nəzərdə tutulur.



# Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Gürcüstanda səfərdədir







Gürcüstanda səfərdə olan Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev aprelin 4-də Tbilisidəki Heydər Əliyev parkında Ümummilli Liderin abidəsini ziyarət edib.

Nazir Ulu Öndər Heydər Əliyevin abidəsi önünə əklil qoyub, dahi şəxsiyyətin xatirəsini ehtiramla yad edib.

Sonra nazir Rəşad Nəbiyev Gürcüstanın Qəhrəmanlar Meydanını ziyarət edib, bu ölkənin azadlığı və suverenliyi uğrunda canlarından keçən insanların xatirəsini ehtiramla anıb.

Ziyarətlər zamanı nazir Rəşad Nəbiyevi Azərbaycanın bu ölkədəki səfiri Faiq Quliyev və digər rəsmi şəxslər müşayiət ediblər.

***

Tbilisidə səfərdə olan Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.

Gürcüstan hökumət administrasiyasından bildirilib ki, görüşdə ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdiyi vurğulanıb.

Həmçinin Bakı-Tbilisi-Qars dəmir yolu, Qara dəniz-Xəzər nəqliyyat marşrutu, Fars körfəzi-Qara dəniz dəhlizi və "yaşıl limanlar" istiqamətlərində uğurlu əməkdaşlıq münasibətlərinin olduğu diqqətə çatdırılıb.

Qeyd olunub ki, Gürcüstan ilə Azərbaycan arasında koordinasiya edilmiş əməkdaşlıq Avropa-Asiya nəqliyyat dəhlizinə yüklərin cəlb olunması prosesinə şərait yaradır və bu da son nəticədə hər iki ölkənin iqtisadiyyatına müsbət təsir göstərir.

Görüşdə regionun inkişafı və uzunmüddətli tərəqqisi üçün sülh və sabitliyin vacibliyi xüsusi qeyd olunub.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və digər rəsmi şəxslər iştirak ediblər.

***

Tbilisidə səfərdə olan Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili ilə görüşüb.

Görüşdə iki ölkə arasında iqtisadi, siyasi, nəqliyyat, logistika və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi və inkişaf perspektivləri diqqət mərkəzində olub.

Görüşdə ikitərəfli əməkdaşlığımızın qarşılıqlı inkişaf etdiyi avtomobil nəqliyyatı, dəniz nəqliyyatı, aviasiya və İKT sahələrinə dair müzakirələr aparılıb.

Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti vasitəsilə yükdaşımaların təşkili və mövcud çətinliklərin həlli yolları haqqında fikir mübadiləsi aparılıb.

Bildirilib ki, beynəlxalq daşımaların həyata keçirilməsi işində ölkələrimizin tranzit potensialından istifadə edilməsində çoxtərəfli əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlıq TRACECA və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu platformalarında həyata keçirilir.

Görüşdə Azərbaycanın beynəlxalq çərçivədə tərəfdaşlarla tam və qarşılıqlı faydalı əlaqələr qurmaq üçün ölkənin nəqliyyat kompleksinin mövcud potensialını maksimum artırmağa çalışdığı diqqətə çatdırılıb.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev də iştirak edib.

*AZƏRTAC*

# *Hərbi Prokurorluq:* "Qarabağda kütləvi məzarlıqlarda aşkarlanan insan meyitlərinin qalıqları ekshumasiya edilib"

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hərbi və siyasi-diplomatik yolla 30 ilə yaxın müddətdə işğal altında olan tarixi torpaqlarımız azad olunub.

Hərbi Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası Hərbi Prokurorluğu tərəfindən, Dövlət Təhlükəsizliyi Xidmətinin, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının, Beynəlxalq Qızıl Xaç Komitəsinin və digər müvafiq qurumların nümayəndələri ilə birlikdə Şuşa rayonunun Daşaltı kəndi, Xocavənd rayonunun Edilli kəndi, Ağdam rayonunun Sırxavənd kəndi, eləcə də Xocalı rayonunun Fərrux kəndi və digər ərazilərdə aparılmış müvafiq axtarış tədbirləri nəticəsində aşkarlanan kütləvi məzarlıqlardan Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərə məxsus olması ehtimal olunan xeyli sayda insan meyitinin qalıqları ekshumasiya edilib, həmin meyit qalıqları ilə bağlı məhkəmə-tibbi və molekulyar-genetik ekspertizaları təyin edilərək icraya yönəldilmiş və digər zəruri hərəkətlər yerinə yetirilib.

Ermənistan Respublikasının silahlı qüvvələri və qanunsuz erməni silahlı birləşmələri tərəfindən xalqımıza qarşı törədilmiş sülh və insanlıq əleyhinə olan müharibə, terrorçuluq, qəsdən adam öldürmə və digər cinayət faktları ilə bağlı Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə istintaq olunan cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Azad edilmiş ərazilərdə mühəndis təminatı üzrə tədbirlər davam etdirilir

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin komandanlığı ilə Azərbaycan Ordusunun Qələbəsi ilə başa çatan Vətən müharibəsi nəticəsində azad edilmiş ərazilərimizdə mühəndis işləri davam etdirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələri tərəfindən nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yollar minalardan və qar örtüyündən təmizlənir, həmçinin dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizin mövqelərinə yeni təminat yolları çəkilir. Azad edilmiş ərazilərimizdə mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində mart ayında 203 hektar ərazi mina və partlamamış döyüş sursatlarından tam təmizlənib.

İşğaldan azad edilmiş ərazilərdə bu günədək mühəndis-istehkam bölmələri tərəfindən 14600 hektaradək ərazi minalardan təmizlənib. Ümumilikdə 6 min ədəddən çox piyada əleyhinə, 2100 ədəddən artıq tank əleyhinə və 9300 ədəddən çox partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib.

Mina təmizlənmə işlərində əsas səylər azad olunan ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib.

Azad edilən ərazilərimizdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanaraq zərərsizləşdirilməsi, eləcə də mühəndis təminatı üzrə digər zəruri tədbirlər davam etdirilir.

# Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Aprelin 3-ü saat 23:00-da Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Tovuzqala rayonunun Müsürskənd yaşayış məntəqəsində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Tovuz rayonunun Ağdam yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atəşə tutublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb. Ordumuzun sıralarında şəxsi heyət və texnika baxımından itki yoxdur.




# Azad Qarabağın abad baharı

**Qarabağa bahar gəlib. Uzun illər xalqımızın nisgilinə dönmüş Qarabağ arzumuzu gerçəkliyə qovuşduran bahar. Bu bahar başqa bir bahardır. Şuşada, Tərtərdə, Ağdamda illər sonra insanların rahat nəfəs aldığı, azadlığın simvolu bahar...**



Güllü-çiçəkli, xoş havalı bir gündə yolumuz Tərtər rayonunadır. Şəhər üçrəngli bayraqlara bürünüb. İlyarım əvvəl düşmənin dəfələrlə yağdırdığı mərmilərə qəhrəmancasına sinə gərmiş şəhər əhalisi bu gün başıuca, mərdi-mərdanə görünür. 30 ilə yaxın idi ki, Tərtərin Borsunlu, Qapanlı kəndlərinin sakinləri açıq ərazilərdə rahat gəzə bilmirdilər. Ermənilər kənddə közərti, işıq, tüstü görən kimi həmin istiqaməti atəşə tuturdular.

İndi rayonun bütün kəndləri azad Qarabağın abad baharını yaşayır.

Kovdadıq kəndində 20 şagirdlik yeni modul tipli məktəb şagirdlərin istifadəsinə verilib. Amma təkcə bu deyil. İllərlə düşmən hədəfi olan Tərtərin ürəkaçan mənzərələri hər sahədə görünür. 44 günlük Vətən müharibəsində rayon mərkəzinə və kəndlərə dəyən zərərin aradan qaldırılması istiqamətində çoxsaylı tədbirlər həyata keçirilib.

Düşmənin atəş altında saxladığı kəndlərdən biri də Əskipara idi. Həmin ərəfədə atılan mərmilər nəticəsində kənddə ümumilikdə 80-ə yaxın evə ziyan dəymiş, 20 ev tamamilə dağılmışdı. Döyüşçü-əsgər Kəmaləddin İbrahimovun evində də düşmənin atdığı raket mərmisi daşı daş üstə qoymamışdı. Ailəsi mal tövləsində yaşamaq məcburiyyətində qalmışdı. Bu gün Əskipara kəndində dağılan evlərin əksəriyyəti, o cümlədən Kəmaləddin İbrahimovun evi dövlət hesabına təmir olunub. Xanımı Güldanə İbrahimova deyir: "Həyat yoldaşım bir hərbçi kimi bu gün də ön mövqedə, xidmətdədir. Ermənilər illər idi ki, bizə zülm edirdilər, qorxu, həyəcan içində yaşayırdıq. Atdıqları raketlər evimizi dağıtdı, uşağım qorxudan xəstəlik tapdı. Şükürlər olsun ki, Azərbaycan Ordusunun, Ali Baş Komandanımızın sayəsində indi qulağıdinc, sakit həyatımız var. Qürur duyuram ki, Zəfər qələbəmizdə mənim həyat yoldaşımın da xidməti var".

Kəmaləddin İbrahimov 2016-cı ildən hərbdədir. Vətən müharibəsi zamanı Ağdərə, Madaqiz, Talış, Suqovuşan istiqamətində igidliklə döyüşüb, ölümlə üz-üzə gəlib, yaralanıb. Prezidentin sərəncamı ilə medala layiq görülüb.

Kənd sakini Çingiz Rüstəmovun fərdi yaşayış evinə də düşmən tərəfindən bir neçə mərmi atılmışdı. Nəticədə evə və evin həyətində yerləşən yardımçı tikililərə külli miqdarda ziyan dəymiş, ev heyvanları tələf olmuşdu. Xoşbəxtlikdən ölən və yaralanan olmadı. Onun da evi təmir edilib, rahatlığa qovuşub.

Rayonda qazilərə, şəhid ailələrinə xüsusi qayğıkeşlik var. Şəhid atası Alim Mehdiyev bərbər, Vətən müharibəsi iştirakçısı Ceyhun Quliyev avtoyuma avadanlıqları ilə təmin edilmiş, şəhid anası Nəzakət Aslanova heyvandarlıq təsərrüfatı yaratmışdır. Onların hamısı 44 günlük müharibədən sonra özünüməşğulluq proqramına qoşulub. Ümumiyyətlə, Tərtər rayonu üzrə bu il həssas əhali qruplarına aid olan 265 şəxs bu proqrama cəlb edilib.

Düşmənin ən çox hədəf aldığı Şıxarx qəsəbəsində diqqəti ilk olaraq şəhidlərin xatirəsinə tikilmiş bulaq çəkir. Bulağın önünə hər gün gül dəstələri düzülür, Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi yad edilir.

Məcburi köçkünlərin məskunlaşdığı Şıxarx qəsəbəsində Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində qaz təsərrüfatına da ziyan dəymişdi. Üstəlik, qəsəbədəki yaşayış binalarının 33-ü zədələnmişdi. İndi həmin evlər təmir olunur. Vüsalə Əliyeva deyir ki, evinin hər yerini qəlpələr deşik-deşik etmişdi. Təmiri tam başa çatmasa da, sığındığı Bərdə rayonundan geri dönüb. Buradan da birdəfəlik Kəlbəcərə qayıtmaq niyyətindədir.

Bax beləcə qəsəbədə yaşayan soydaşlarımızın üzündəki qırışlar çəkilib, qamətləri düzəlib. Çünki illərlə çiyinlərində daşıdıqları köçkün adının ağır yükündən qurtulublar. İndi kimisi Ağdama, kimisi Ağdərəyə, Kəlbəcərə, kimisi də Şuşaya dönəcəyi günləri sayır.

***Zəkurə QULİYEVA, "Azərbaycan"***

# Toxumluq sahələrə baxış keçirilir

**Dövlət Toxum Fondunun aqronomu və mütəxəssisləri tərəfindən əkin sahələrinə nəzarət tədbirləri həyata keçirilir.**

Artıq Beyləqan və Göygöl rayonlarında "Azəraqrar Dövlət İstehsalat və Emal Birliyi" MMC-ə məxsus Dövlət Toxum Fondu tərəfindən toxumla təchiz edilən toxumluq sahələrə baxış keçirilib, fermer və təsərrüfat sahibləri ilə söhbətlər aparılıb.

Aqrotexniki qulluqlarla bağlı Dövlət Toxum Fondunun mütəxəssisləri tərəfindən maarifləndirici məlumatlar verilib. Bildirilib ki, toxum üçün ayrılmış sahələr yüksək aqrotexniki qaydada becərilməli, sortların bioloji xüsusiyyətləri nəzərə alınmaqla gübrələnməli, səpin optimal müddətdə, düzgün təyin edilmiş normada və qısa vaxt ərzində aparılmalıdır.

Hazırda da toxumluq sahələrə baxış, həmçinin fermer və təsərrüfat sahibləri ilə görüşlərin keçirilməsi davam etdirilir.



Qeyd edək ki, ötən il Dövlət Toxum Fondu tərəfindən ölkəmizə 340 ton elit buğda toxumu idxal olunub. Fermer və təsərrüfat sahibləri tərəfindən alınan buğda toxumları ölkənin müxtəlif regionlarında əkilib. Ölkədə ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə və yüksək reproduksiyalı toxumlara olan tələbatı nəzərə alaraq, toxumçuluq üçün nəzərdə tutulan elit toxumlarının gətirilməsi Dövlət Toxum Fondu tərəfindən davam etdiriləcək.

# Faraş kartof cəlilabadlı fermerlərin əsas gəlir mənbələrindəndir

Aprel ayının sonlarından Cəlilabadda sellofan örtük altında, təxminən mayın 5-dən isə faraş kartofun yığılmasına başlanacaq. Məlumat üçün bildirək ki, bu il Cəlilabadda rayon üzrə 3 min nəfərə yaxın fermer 5 min 400 hektarda kartof əkmişdir.



Keçən il rayonda 130 min tondan çox kartof istehsal olunmuş və onun əksər hissəsi nübar məhsul kimi, əsasən, Rusiyaya ixrac edilmişdir. Bəzi illər istisna olmaqla, əvvəlki illərdə də bu məhsulun xeyli hissəsi Rusiya bazarlarında satılmışdır. Nəticədə mülkiyyətçilər yaxşı gəlir əldə etmişlər.

Yüksək miqdarda və həm də keyfiyyətli məhsul isə böyük xərc, gərgin əmək tələb edir. Cəlilabadlılar keyfiyyətli toxum əldə etmək, əkini vaxtında və optimal səviyyədə başa vurmaq, bitki torpaqdan baş qaldıran kimi onun nazını çəkmək, suyunu, gübrəsini vaxtında vermək, bütün aqrotexniki tədbirləri zamanında həyata keçirmək baxımından yaxşı təcrübəyə malikdirlər. İndinin özündə də onlar günəşi hər gün əkin sahəsində qarşılayır və elə orada da yola salırlar.

İndi Cəlilabad mülkiyyətçiləri çox narahatdırlar. Rusiya ilə Ukrayna arasındakı münaqişə onlar üçün də problem yaratmışdır. Belə ki, kartofun ixracı ilə bağlı müəyyən məhdudiyyətlər ortaya çıxmışdır. Cəlilabaddan başqa ölkəmizin qərb bölgəsində - Gədəbəy, Tovuz, Qazax, Ağstafa və başqa rayonlarında da kartof yığımı başlayacaq. Bu məsələ indi onları düşündürür.

Bəzi kənd təsərrüfatı məhsullarının istehsalçılar tərəfindən satılması məsələsində isə demək olar ki, heç bir çətinlik yoxdur. Məsələn, pambıqçılığı götürək. Torpaq mülkiyyətçisi və ya fermer ilin əvvəlində bağladığı müqaviləyə əsasən əldə etdiyi məhsulu şirkətə verərək pulunu alır. Üstəlik müqavilə şərtlərinə görə həmin şirkət şumdan tutmuş yığıma qədər mülkiyyətçinin yanında olur, ona toxum, texnika, gübrə, becərmə pulu və s. sarıdan kömək edir, mütəxəssis məsləhəti verir. Çayçılıq, baramaçılıq, tütünçülük sahələrində də buna oxşar iş prinsipi tətbiq edilməkdədir. Görünür, yun, tərəvəz, meyvə və s. kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanılması, alınıb-satılması ilə məşğul olan şirkətlərin, qurumların yaradılmasının da zamanı çatmışdır. Odur ki, bütün bunlar barəsində əlaqədar təşkilatlar tədbirlər görməyə tələsməlidirlər.

***Seyran CAVADOV, "Azərbaycan"***

# "Aqroservis" ASC kombayn mexanizatorları üçün təlimlərə başlayıb

**"Aqroservis" ASC cari ildə taxıl biçininin operativ, vaxtında və itkisiz həyata keçirilməsi, o cümlədən texnikaların istifadəsi zamanı istismar qaydalarına düzgün riayət edilməsi, yanğın, əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarının vacibliyini nəzərə alaraq müvafiq təlimlərə start verib.**

Təlimlərə ümumilikdə 249 mexanizator cəlb edilib. Təlimlər aprel ayının 1-dən sonunadək davam edəcək.

İlk olaraq Səhmdar Cəmiyyətin Yevlax Regional nümayəndəliyindəki təlim mərkəzində müasir kombaynların idarə olunması ilə bağlı təlim təşkil edilib. Təlimlər Səhmdar Cəmiyyət və "New Holland" şirkətinin birgə dəstəyi ilə tamamilə ödənişsiz olaraq həyata keçirilir. Həmçinin təlim boyunca mexanizatorların gecələməsi və qidalanması da şirkət tərəfindən qarşılanır.

Təlimlər həm əyani, həm də praktiki dərslər formasında keçirilir. Həmçinin mexanizatorlara biçin zamanı yanğından mühafizə üzrə praktiki məşğələlər də keçiriləcəkdir. Təlimləri müvəffəqiyyətlə başa vuran mexanizatorlara sertifikatlar təqdim olunacaqdır. Qeyd edək ki, təlimlər pandemiya qaydalarına uyğun olaraq həyata keçirilir.

Təlimlərin keçirilməsində əsas məqsəd mexanizatorlar tərəfindən kombaynların düzgün idarə edilməsi, dəqiq texniki xidmətin göstərilməsi, onların üzərində nizamlama işlərinin, istismar zamanı baş verə biləcək nasazlığın aradan qaldırılması və texnikanın idarə edilməsində təhlükəzlik qaydalarına düzgün riayət edilməsinin öyrədilməsidir.

Təlimlər istehsalçı zavoddan dəvət olunmuş yüksəkixtisaslı mütəxəssislər və "Aqroservis" ASC-nin nümayəndə heyəti tərəfindən videogörüntülü, əyani vasitələrdən istifadə edilməklə interaktiv və kombaynı idarə etməklə, üzərində işlər aparmaqla praktiki formada tədris olunur.

Təlimdən sonra imtahandan keçən hər bir operatora (mexanizatora) sertifikat təqdim edilir.

# Taxıl sahələrində alaq otlarına qarşı mübarizə tədbirləri gücləndirilir

Aqrar Xidmətlər Agentliyinin Bitki Mühafizəsi və Fumiqasiya (zərərsizləşdirmə) Mərkəzinin və Aqrar Təlim Mərkəzinin mütəxəssisləri tərəfindən payızlıq taxıl əkinlərində aqrotexniki tədbirlərin, o cümlədən alaq otlarına qarşı mübarizənin aparılmasına dair yerlərdə maarifləndirici tədbirlərə başlanılıb.

Belə ki, Beyləqan və Salyan rayonlarında taxıl sahələrində "Alaq otlarına qarşı mübarizə tədbirləri və pestisidlərlə iş zamanı texniki təhlükəsizlik qaydaları" mövzusunda təlim keçirilib. Təlimdə AXA-nın sədr müavini Cəfər Məhərrəmov, Bitki Mühafizəsi və Fumiqasiya (zərərsizləşdirmə) Mərkəzinin rəhbərliyi, yerli qurumların nümayəndələri, Aqrar Təlim mərkəzlərinin və Dövlət Aqrar İnkişaf mərkəzlərinin mütəxəssisləri, taxılçılıqla məşğul olan 40-dan çox fermer iştirak edib.

Təlimdə AXA-nın sədr müavini Cəfər Məhərrəmov iştirakçılara yaz tarla işlərinin başlanması ilə əlaqədar payızlıq taxıl əkinlərində görüləcək işlər, o cümlədən taxıl sahələrində yayılan alaq otlarının növləri, zərərləri, mübarizə tədbirlərinin vaxtında və düzgün aparılması, tətbiq olunan yüksəkkeyfiyyətli herbisidlər və onlardan istifadə qaydaları, eləcə də pestisidlərlə iş zamanı texniki təhlükəsizlik qaydalarına riayət olunması qaydaları barədə məlumat verib və tövsiyələr verib.

Sonra təlim iştirakçıları tərəfindən nümayiş məqsədilə seçilmiş 3 ha payızlıq taxıl sahəsinə baxış keçirilib. Sahənin əsasən vələmir, qanqal, turpəng və digər alaqlarla sirayətlənməsi müəyyən olunub.

Təlimdə fermerlərə maarifləndirici bukletlər təqdim olunub, sualları cavablandırılıb və geniş fikir mübadiləsi aparılıb.



# "Səni yanasan toyuq aparan..."

## Yaxud kənd yerində toyuq-cücə saxlamağın problemləri nədir

**"Səni yanasan, toyuq aparan..." Bu qədim xalq mahnısından bəlli olan odur ki, toyuq-cücənin əbədi və heç vaxt tükənməyən bir problemi var. Bu həm də toyuq-cücə sahiblərinin gündəmdən düşməyən, elə bu xalq mahnısı kimi yanıqlı mövzusudur.**

Yəni kənd-kəsəyin ətrafında çaqqal da dolaşır, tülkü də. Onlar da ki, əllərinə fürsət düşən kimi toyuq-cücədən çırpışdırıb aradan çıxırlar. Bundan başqa, kəndin mal-qara oğruları da hərdən ev quşlarına tamah salırlar. Əslində, toyuq onlar üçün oğurluq mal sayılmasa da, 4-5 oğrunun ürəyinə çığırtma düşübsə, mütləq söz yazılacaq ki, filankəsin toyuqları qeybə çıxıb.

Bir sözlə, meşə çaqqalsız olmur. Ona görə də xalq mahnılarının canına hopan "mənim toyuğum ağ idi, dərisi dolu yağ idi, səni yanasan toyuq aparan, odlanasan toyuq aparan..." kimi misralar da boşuna yaranmır. Belə yanıqlı kəlmələri kəşf etmək üçün istedad sahibi olmaqdan əvvəl gərək toyuq-cücənin əziyyətini çəkəsən, yemini verəsən, böyüdəsən ki, itirəndə beləcə oxuyub özün də yanasan, qulaq asanı da kövrəldəsən.

"Baba, mən yazıram, dünya dəyişmir ki, dəyişmir" ifadəsi elə bizim toyuq-cücəyə də aiddir. Kimsə sahibsiz itlərin əlindən cücə alıb saxlaya bilmir. Saxlayanlar da zülm çəkirlər. Aylar, illər keçdikcə bu problem həllini tapmaq əvəzinə, daha da qəlizləşib müşkül işə cevrilir. Ona görə də "toyuq aparanlar"ın sırasına müxtəlif rayonlarda kənd meşələrinə yığılan sahibsiz itləri də əlavə etmək lazımdır. Kimi dindirsən, hamı həmin itlərin əlindən bezdiyini deyir. Həyət-bacada toyuq saxlamaq mümkün deyil. Tülküdən, çaqqaldan fərqli olaraq sahibsiz itlər gecə də, gündüz də istənilən kəndə, istənilən həyətə rahat girib-çıxır və nəzarətsiz qalan toyuq-cücəni göz qırpımında çırpışdırırlar.

İndi kəndlərdə vəziyyət elədir ki, camaat məsələnin ən asan həllini tapıb: heç kim toyuq-cücə saxlamır. Deyirlər ki, saxlamağın nə mənası - ya quş qripi aparacaq, ya da ki sahibsiz itlər. Amma vaxt var idi ki, hər həyətdə mal-qaradan savayı 100-dən çox toyuq, 20-30 hinduşqa saxlayardılar. Quş ətinə, yumurtaya pul da verməzdilər. İndi kəndli də broyler toyuğu yeyir, şəhərli də.

Çıxış yolu varmı? Əslində, istənilən çətin vəziyyətdən bir çıxış yolu olmalıdır. Birincisi, toyuq-cücəni həyətin bir küncündə məftildən etibarlı çəpər çəkib hasara almaq, orda saxlamaq və yemləmək mümkündür. Amma bu gün



hər kəndli bir ətək pulu aparıb dəmir tora, beton dirəyə verə bilmir. İmkanı olanların hamısı belə edir. İmkansızların isə əli heç yerə çatmır. Amma mikrokreditlə bu məsələni həll etmək mümkündür. Lakin bunu problem kimi qaldırıb həllinə qərar verən yoxdur.

Halbuki Azərbaycan Prezidentinin dövlət məmurlarından ən böyük tələbi odur ki, sadə insanlara yaxın olsunlar, onların qayğılarına, problemlərinə diqqətlə yanaşsınlar. Əgər kənd yerində yaşayanlar özlərini toyuq əti və yumurta ilə təmin etsələr, bu, onların daha yaxşı dolanışığına dəstək olar. Problemin həlli üçün yerli idarəetmə və icra orqanlarına təşəbbüslə çıxış etməyə nə maneə olur ki?

Məsələnin başqa bir tərəfi də ondan ibarətdir ki, kənd-kəsəkdə toyuq-cücənin kökü kəsilməyib. Xeyli adam çəpərini möhkəmlədir, hasara alır, toyuq-cücəsini saxlayıb onun yumurtasından, ətindən istifadə edir, artıq qalanını isə satır. Qubalı İsbat Həsənov deyir ki, evin arxasında bir sot yeri yaxşı hasara alıb, çəpəri də yerə elə pərçimləyib ki, altından nəinki it, heç pişik belə keçə bilməz: "Yüzə yaxın cücə alıb saxlayıram. 4-5 aydan sonra satmağa da, kəsib yeməyə də ətimiz olur, yumurtadan da korluq çəkmirik. Nəvələrə da çatır, qapıdan satmağa da".

Maraqlısı odur ki, itlərdən gileylənən nə qədər çox olsa da, onları aciz sayan, vecinə almayan da çoxdur. Qubanın Xucbala kəndindən Rahim Məmmədov özü müəllimdir, hələ səhhətində də problem var. Amma hər il bir neçə yüz hinduşqa saxlayır, Yeni il qabağı kilosu 12-13 manatdan satışa çıxarır. O, hinduşqalara tək yox, uşaqları ilə bir yerdə baxır: "Hinduşqa saxlamağı uşaqlıqdan atam bizə öyrədib. Zəhmətkeş kişi idi, deyirdi ki, pul qazanmaq üçün ali savad azdır, qabara dözən əl də lazımdır. O çox sadə və bir o qədər də çox zəhmətkeş adam idi. Evimizdə həmişə ehtiyat pulumuz olardı, həyət-bacamız da ki, mal-qara ilə dolu idi".

Soruşuram ki, ay Rahim müəllim, kəndçilər sahibsiz itlərin qorxusundan toyuq saxlamaq istəmir. O isə gülüb cavab verir:

- Bəhanədir, mən hər gün hinduşqaları kəndimizin ayağındakı güneyə qaldırıram, ordan uşaqlar vurur meşəyə. Güneyin üstündə Qərəl meşəsi var. İtlərin sürü ilə gəzdiyi yerlərdir. Hünərləri var mənim hinduşqalarıma sataşsınlar. Bir-iki dəfə tüfənglə qorxuzmuşam. İkincisi, hamı bilir ki, hinduşqa saxlamaq toyuq-cücə bəsləməkdən qat-qat çətindir. Biz saxlayırıq, əziyyət çəkirik, Allah da ruzisi ilə mükafatlandırır. Amma bu o demək deyil ki, toyuq-cücə, hinduşqa saxlamaqda problemimiz yoxdur.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

# Yeni əsrin qlobal layihəsi - “YAŞIL ENERJİ”



## Azərbaycan alternativ enerjidən istifadəni daha da genişləndirəcək

**Dünyada yaranan iqlim dəyişikliyinin, qlobal istiləşmənin qarşısının alınması üçün havaya buraxılan zərərli qazların həcminin azaldılması istiqamətində görülən tədbirlər sırasında alternativ enerji mənbələrindən istifadə əsas yer tutur. Azərbaycanın bu sahədə gördüyü işlər ötən əsrdən başlasa da, XXI əsrdə “yaşıl enerji”yə keçid bir çox dövlətlər kimi, ölkəmizdə də prioritet sahələrdən birinə çevrilib.**

Bərpaolunmayan enerji mənbələri zərərli tullantıların artması nəticəsində havanın çirklənməsinə səbəb olur. Hazırda bir çox dövlətlər bərpaolunmayan enerjidən asılılığı azaldaraq, “yaşıl enerji”yə keçidi təmin etməyi hədəf seçirlər. Beynəlxalq Enerji Agentliyinin (BEA) proqnozuna görə, növbəti 10 ildə bərpaolunan enerji sektoruna hər il orta hesabla 440 milyard dollar investisiya qoyuluşu nəzərdə tutulur. Alternativ enerji mənbələri növbəti beş ildə 50 faiz artaraq 2025-ci ildə qlobal elektrik enerjisi istehsalının 33 faizini təşkil edəcək. Ümumilikdə, 2025-ci ildə elektrik enerjisi istehsalının artım gücünün 95 faizinin bərpaolunan enerji mənbələrinin payına düşəcəyi proqnozlaşdırılır.

### Qarabağda enerji növlərinin istehsalı 9-10 min meqavata çata bilər

Torpaqlarımız işğaldan azad edildikdən sonra həmin ərazilərdə bərpaolunan enerjinin əldə olunması üçün əlverişli mühit yaranıb. Qarabağda günəş, külək enerjisi növlərinin istehsalı təxminən 9-10 min meqavata çata bilər. Artıq işğaldan azad edilmiş ərazilər, yəni, 10 min kvadratkilometr ərazi “yaşıl enerji” zonası elan olunub.

Prezident İlham Əliyevin sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə “yaşıl enerji” zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Energetika Nazirliyinə 1 milyon 391 min 40 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılıb.

Azərbaycanın inkişaf strategiyasında Qarabağın “yaşıl enerji” zonasına çevrilməsi mühüm əhəmiyyət kəsb edir. Ötən il işğaldan azad edilmiş ərazilərdə ümumi generasiya gücü 20 meqavat olan 4 su-elektrik stansiyası bərpa edilib. Bu il isə 5 su-elektrik stansiyasının yenidən qurulması planlaşdırılır. Bu stansiyaların generasiya gücü 27 meqavat olacaq.

### Bərpaolunan enerji mənbəyi çox olarsa, ixrac üçün qaza qənaət ediləcək

Prezident İlham Əliyev “Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısındakı çıxışında bildirdi ki, Azərbaycanda bərpaolunan enerji mənbəyi nə qədər çox olsa, ixrac üçün daha çox qaza qənaət ediləcək. Azərbaycanın “yaşıl enerji” strategiyası hazırda, təkcə, qiymətləndirilmə deyil, həm də planlamanın yekun mərhələsindədir. İşğaldan azad edilmiş ərazilər üçün xüsusi proqram var: “Biz artıq Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan mənbələrin potensialının beynəlxalq qiymətləndirməsini aparmışıq və ilkin rəqəmlər çox ümidvericidir. Külək enerjisində potensial təxminən 7200 meqavat, günəş enerjisində potensial isə 2000 meqavatdan çoxdur”.

Azərbaycanda “yaşıl enerji”nin inkişafı daxili strategiyanın bir hissəsi olmaqla yanaşı, ixracdan əldə olunan gəlirlər üçün əlavə mənbə ola bilər və enerji mənbələri idxal edən ölkələr üçün də faydalı olar.

### Azərbaycan 2030-cu ilədək bərpaolunan enerji mənbələrinin payını artıracaq

Energetika Nazirliyindən bildirilir ki, neft və qaz kimi ənənəvi enerji daşıyıcıları ilə zəngin olan Azərbaycanda bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi prioritet istiqamətlərdəndir.

Azərbaycanda onlarca günəş, külək, su-elektrik stansiyaları mövcuddur. Ən böyük külək-elektrik stansiyası Yeni Yaşma ərazisində fəaliyyət göstərir və 50 meqavat gücündədir. Bununla yanaşı, Şuraabadda, Qobustanda külək elektrik stansiyaları var. Ən böyük günəş-elektrik stansiyası isə 22 meqavat gücü olan, Naxçıvanda yerləşən “Babək”dir. Bundan əlavə, 5 MVt gücündə “Kəngərli” və “Şərur” stansiyaları da mövcuddur. Qobustan, Suraxanı, Pirallahı, Sahildə də kiçik güclü günəş-elektrik stansiyaları var.

Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulan ümumi elektrik enerjisi istehsalı gücündə bərpaolunan enerji mənbələrinin payının 30 faizədək artırılması strateji hədəfdir. Bu, 2030-cu ilə qədər ölkəmizin ümumi qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılmasını ehtiva edir ki, bu da 1500 meqavat yeni qoyuluş güclərinin istismara verilməsi deməkdir. İlk 470 meqavat güc artıq iki şirkətin inşa edəcəyi layihələr hesabına təmin ediləcək, digər hissəsi isə gələcəkdə reallaşdırılacaq.

Nazirlikdən bu sahəyə özəl investisiyaların cəlb edilməsi istiqamətində əməli addımların atıldığı da bildirilib. Artıq iki şirkətlə - “ACWA Power” və “Masdar” şirkətləri ilə müvafiq müqavilələr imzalanıb və nəticədə 230 MVt gücündə “Qaradağ” Günəş-Elektrik Stansiyası, 240 MVt gücündə “Xızı-Abşeron” Külək-Elektrik Stansiyasının təməli qoyulub. Bu stansiyalar xarici sərmayə cəlb edilməklə həyata keçirilən sənayehəcmli bərpaolunan enerji, eyni zamanda Azərbaycanda ən böyük külək və günəş-elektrik stansiyaları olacaq.

Bu, ölkəmizdəki iqtisadi sabitliyə və əlverişli investisiya mühitinə olan inamın göstəricisidir ki, hazırda xarici investorlar Azərbaycana belə böyük həcmdə investisiyalar qoyurlar. Hər iki layihənin birlikdə investiya dəyəri yarım milyard ABŞ dollarından daha çox qiymətləndirilir. Bu, Azərbaycanda qeyri-neft sektoruna qoyulmuş çox böyük investisiyadır.

### 600 min tondan artıq karbon emissiyasının qarşısı alınacaq

Hazırda Azərbaycan enerji təhlükəsizliyini tam təmin edir, yəni 100 faiz elektrikləşmiş ölkədir. Eyni zamanda qonşu ölkələrin enerji təhlükəsizliyinin təminində də iştirak edir. Ölkəmiz enerji daşıyıcılarının ixracatçısıdır.

Təməli qoyulmuş hər iki stansiyanın birlikdə illik istehsal edəcəyi elektrik enerjisinin miqdarı 1 milyard 500 milyon kilovat/saat kimi qiymətləndirilir. “Xızı-Abşeron” Külək-Elektrik Stansiyası hesabına istehsal olunan 1 milyard kilovat/saat elektrik enerjisinə müqabil olaraq 220 milyon kubmetr təbii qaza qənaət deməkdir ki, bu da özlüyündə 400 min tondan artıq karbon emissiyasının artırılmasının qarşısının alınmasıdır. “Qaradağ” Günəş-Elektrik Stansiyasının işə düşməsi ilə isə 110 milyon kubmetr təbii qaza qənaət ediləcək və 500 milyon kilovat/saat elektrik enerjisi istehsal edilmiş olacaq ki, bu da 200 min tondan artıq karbon emissiyasının qarşısının alınmasıdır. Layihə istər elektrik enerjisi, istərsə də təbii qaz ixracı potensialının artırılması ilə yanaşı, qlobal iqlim hədəflərinə yaxınlaşmağa da öz töhfəsini verəcək. Bu, 2050-ci ilə qədər karbon emissiyasının miqdarının 40 faiz azaldılmasına dair hədəfə nail olunması istiqamətində atılmış mühüm addımlardan biri kimi qiymətləndirilə bilər.

### Özəl investisiyaların cəlb edilməsi perspektivdə duran məsələdir

Energetika Nazirliyindən aldığımız məlumatda bildirilir ki, Azərbaycanda bərpaolunan enerji ilə bağlı qanunvericilik sahəsində də mühüm addımlar atılıb. Bu, “Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında” qanundur. Qanunda özəl investisiyaların cəlbini stimullaşdırmaq üçün mexanizmlər mövcuddur. Bunlardan biri bərpaolunan enerji hərraclarının keçirilməsidir. Hərraclar zamanı özəl şirkətlər müraciət edir və qalib olduqları təqdirdə öz investiyaları hesabına bərpaolunan enerji stansiyalarının tikintisi ilə məşğul olurlar. Qanun fiziki şəxslərin evlərinin damında, həyətyanı sahələrdə və digər yerlərdə bərpaolunan enerji qurğularının quraşdırılaraq şəbəkə ilə əlaqələndirməsinə icazə verir. Qanun qəbul olunub. İndi hərracların keçirilməsi ilə əlaqədar, həmçinin aktiv istehlakçıların dəstəklənməsi mexanizminə dair qanunvericilik aktları hazırlanır.

### Azərbaycan enerjiyə olan tələbatını 100 faiz ödəyir

Azərbaycanın hər bir guşəsi bərpaolunan enerji potensialı ilə zəngindir. İşğaldan azad olunmuş ərazilər - Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında da bu potensial yüksəkdir. Həmin ərazilərdə texniki potensial 10 min meqavatadək - günəş enerjisi üzrə 7200 MVt, külək enerjisi üzrə isə 2000 MVt kimi qiymətləndirilir. Günəş enerjisi potensialı əsasən cənub - Cəbrayıl, Zəngilan rayonlarında yüksəkdir. Külək enerjisi ilə zəngin olan rayonlarımız isə Kəlbəcər və Laçındır.

Nazirlikdən bildirilib ki, bu ərazilərdə potensialın reallaşdırılması üçün özəl investisiyaların cəlbi istiqamətində bir çox işlər görülür. Məsələn, bp şirkəti ilə imzalanmış icra müqaviləsini misal göstərmək olar. Bu şirkətlə 200 meqavatdan yüksək günəş-elektrik stansiyasının inşasının mümkünlüyünün araşdırılması hazırda davam etdirilir. Eyni zamanda Kəlbəcər və Laçın rayonlarında 100 MVt gücündə külək-elektrik stansiyasının inşasına da özəl investisiyaların cəlbi istiqamətində addımlar atılmaqdadır. Beynəlxalq şirkətlərin bu layihəyə böyük marağı var.

Azərbaycanda həyata keçirilən siyasət enerji resurslarının diversifikasiyasına, yəni müxtəlif mənbələr hesabına ölkənin elektrik enerjisinə tələbatının ödənilməsinə hesablanıb. Ölkəmizin enerjiyə olan tələbatı müxtəlif mənbələr hesabına 100 faiz ödənilir.

### Alternativ enerjidən istifadə nəticəsində ölkəyə daha çox valyuta daxil olacaq

Milli Məclisin İqtisadi, siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin iştirakı ilə “Qaradağ” Günəş-Elektrik Stansiyasının təməlqoyma mərasimi Azərbaycanda alternativ enerji mənbələrindən istifadə imkanlarını genişləndirəcək.

Deputatın sözlərinə görə, alternativ enerji istehsalının qlobal olaraq növbəti 3 ildə 50 faiz, qlobal istehlakda isə payının 35 faizə qədər yüksədilməsi nəzərdə tutulur.

Dünyada alternativ və ya bərpaolunan enerjinin 60 faizi günəş, 30 faizi külək, 10 faizi isə digər mənbələrin payına düşür. Azərbaycan alternativ enerjidə böyük üstünlüklərə və potensiala malik ölkələrdəndir. Azərbaycanda günəş, külək enerjisindən istifadə imkanları kifayət qədər yüksəkdir, eyni zamanda hidroenerji potensialı torpaqlarımızın işğaldan azad olunmasından sonra daha da artıb.

Vüqar Bayramov qeyd edib ki, Azərbaycanın bərpaolunan enerji potensialı 27 min MVt olaraq qiymətləndirilir. Onun 23 min meqavatı günəş, 3 min meqavatı külək, qalanı isə digər enerji mənbələrinin payına düşür. Azərbaycan 2030-cu ilədək bərpaolunan enerjinin ümumi istehlakda payının 30 faizə qədər yüksəlməsinə nail olmağı hədəfləyib: “Nəzərə alsaq ki, 2013-2019-cu illərdə külək enerjisinin istehsalı 131 dəfə artıb, deməli, bu sahədə zəngin potensial var. Alternativ enerjidən istifadə həm də iqtisadi baxımdan əhəmiyyətlidir, çünki Azərbaycan il ərzində 13 milyard kubmetr qaz istehlak edir”.

Deputat deyib ki, alternativ enerjidən istifadə ekoloji baxımdan vacib olmaqla yanaşı, həm də mavi qaz istehlakında qənaətə imkan yaradır. Qənaət nəticəsində əldə edilmiş təbii qazın xarici ölkələrə ixracı ilə ölkəyə daha çox valyuta gətirmək olar. Alternativ enerjidən istifadə həm ekoloji, həm yaşıl iqtisadiyyat prinsipləri baxımından vacib olmaqla yanaşı, iqtisadi potensialın genişləndirilməsi aspektindən də mühümdür.

### Bərpaolunan enerji atlasının yaradılması strateji qərardır

İqtisadçı ekspert Eldəniz Əmirov qəzetimizə bildirib ki, Azərbaycanda son dövrlər “yaşıl enerji”yə keçidlə əlaqədar sistemli işlər görülür. Onun sözlərinə görə, “ağıllı şəhər” və “ağıllı kənd” layihələrinin icrasına başlanması, Zəngilanın Ağalı kəndində bu layihənin başa çatmaq üzrə olması və kənd konsepsiyasının icrasında məhz yaşıl enerjidən geniş istifadə olunması, o cümlədən işğaldan azad olunmuş ərazilərdə müxtəlif çaylar üzərində 13 avtomatlaşdırılmış hidroloji stansiyanın yaradılması ilə bağlı göstərişin verilməsi orada hidroloji enerji potensialından maksimum istifadəni nəzərdə tutur. Respublikamız texniki cəhətdən istifadəsi mümkün olan 27 min meqavat alternativ enerji mənbələrinə malikdir. 3 min meqavat külək, 23 min meqavat günəş enerjisi, 380 meqavat bioenerji, 530 meqavata yaxın dağ çaylarının və bu qəbildən olan digər enerji mənbələrinin kifayət qədər alternativ enerji potensialı var. Bu, ölkənin “yaşıl enerji”yə keçidi üçün əlavə fürsətlər yaratmış olur.

Ekspert qeyd edib ki, alternativ enerji mənbələrindən daha səmərəli istifadənin həyata keçirilməsi, bu mənbələrin optimal realizə edilməsi üçün bərpaolunan enerji atlasının yaradılması ilə bağlı Prezident İlham Əliyev tərəfindən göstəriş verilib: “Bu, ölkənin ərazisi boyu alternativ enerji mənbələrinin aşkarlanması üçün son dərəcə strateji qərardır. Qərarın icrasından sonra “yaşıl enerji”yə keçid daha da sürətlənəcək. Bərpaolunan yeni enerji formalarına keçidin iqtisadi əhəmiyyəti çox böyükdür. Bu, iqtisadiyyatdan icrası üçün böyük layihə tələb edən prosesdir, həmçinin strateji olaraq effektivdir”.

Eldəniz Əmirovun fikrincə, “Qaradağ” Günəş-Elektrik Stansiyasının enerji potensialından istifadə qaza qənaət baxımından da faydalıdır, çünki həmin elektrik enerjisinin digər istilik elektrik stansiyasında istehsalı zamanı ildə 160-170 milyon dollar civarında qaz sərf oluna bilərdi. Bu stansiyanın işə düşməsi həm elektrik enerjisi ilə fasiləsiz təmin olunmasına, həm də qaz resurslarına qənaət olunmasına şərait yaradacaq, eyni zamanda atmosferə karbon emissiyasının atılmasının qarşısını alacaq.

Bu, işğaldan azad olunmuş ərazilərdə iqtisadi reinteqarasiyanın daha sürətli keçirilməsi üçün də vacibdir.

***Əsmər QARDAŞXANOVA, “Azərbaycan”***

---

**Xəzərin Azərbaycan sektorundakı karbohidrogen yataqları sırasında “Ümid”in özünəməxsus yeri var. Bu, ölkəmizin müstəqilliyinin bərpasından sonra SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) öz gücü ilə kəşf etdiyi ilk yataqdır.**



# “Ümid” ümidləri doğruldur

## Bu il yataqdan hasilatın keçən ildəkindən çox olacağı gözlənilir

“Ümid” qaz və kondensatla zəngindir. Yataqdan əldə olunan hasilat onun ümidləri doğrultduğunu təsdiq edir. Belə ki, indiyədək buradan 5,4 milyard kubmetr təbii qaz və 856,1 min ton kondensatın çıxarıldığı bildirilib. Yatağın ümumi karbohidrogen ehtiyatları isə 200 milyard kubmetr qaz və 40 milyon ton kondensat həcmində qiymətləndirilir.

“Ümid” yatağı Bakıdan 75 kilometr cənubda, qurudan 40 kilometr məsafədə yerləşir. 2009-cu ildə strukturda dərin axtarış-kəşfiyyat qazmasına başlanmış və 2010-cu ilin noyabrında burada nəhəng qaz-kondensat yatağı kəşf edilmişdir.

“Ümid” strukturunda, dayaqları suyun 58 metr dərinliyində yerləşən stasionar dəniz özülünün tikintisindən dərinliyi 6006 metr olan quyunun qazılmasına qədər bütün işlər SOCAR-ın öz gücü ilə həyata keçirilmişdir. Quyuda karotaj göstəricilərinə əsasən, məhsuldar qatın VII və V horizontlarında karbohidrogen ehtiyatları müəyyən edilmişdir. Sonradan VII horizontdan qaz axını alınmışdır. Bu da strukturun karbohidrogen ehtiyatlarını qiymətləndirməyə imkan vermişdir.

Xatırladaq ki, Prezident İlham Əliyev “Ümid”in açılmasının böyük əhəmiyyət daşıdığını bildirərək həmin münasibətlə 2010-cu il noyabrın 19-da şirkətin rəhbərliyi ilə görüşmüşdür. Dövlət başçısı bu mühüm hadisəni belə dəyərləndirmişdir: “Uzun fasilədən sonra biz böyük neft-qaz yatağında bütün qazma və kəşfiyyat işlərini öz hesabımıza, öz gücümüzlə aparmışıq. Siz bunu yaxşı bilirsiniz ki, Xəzər dənizinin bütün yataqlarını Azərbaycan neftçiləri kəşf etmişlər. Xəzərdə 1950-ci illərdən başlayaraq bu günə qədər Azərbaycan neftçiləri, mütəxəssisləri müstəsna rola malikdirlər. Xəzər dənizinin neft-qaz ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün ölkəmiz aparıcı rol oynamışdır. Ancaq bildiyiniz kimi, Sovet İttifaqı dağılandan sonra və ondan əvvəlki illərdə neft-qaz sənayesində tənəzzül başlamışdır. Demək olar ki, biz mövqelərimizi itirməyə başlamışdıq. 1990-cı illərin əvvəllərində Ulu Öndər Heydər Əliyev tərəfindən başlanmış yeni neft strategiyamız bu sahədə köklü dönüşün yaranmasına gətirib çıxardı. “Əsrin kontraktı”nın, “Şahdəniz” yatağı üzrə kontraktın imzalanması və digər addımlar bizə imkan verdi ki, neft-qaz sahəsində özümüzə məxsus olan mövqelərimizi bərpa edək. Biz mövqeyimizi nəinki bərpa edə, hətta onu böyük dərəcədə möhkəmləndirə bilmişik”.

Həmin vaxta qədər Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatlarının 2 trilyon kubmetr səviyyəsində olduğu tam dəqiqliklə deyilir və əlavə edilirdi ki, bu ehtiyatlar daha çox ola bilər. “Ümid” yatağının işlənməyə başlanması bunu bir daha təsdiqlədi. Deməli, 2 trilyon, sadəcə olaraq təvazökar bir rəqəmdir. Azərbaycan heç vaxt öz resursları haqqında yanlış məlumat verməmişdir, təbii ehtiyatlarını, necə deyərlər, şişirtməmişdir. Hətta əksinə, onları ehtiyatla qeyd etmişdir ki, dəqiqlik olsun. Buna görə ölkəmizin sözünə beynəlxalq enerji aləmində inam yüksək səviyyədədir.

Prezident həmçinin “Ümid”in ehtiyatlarının da bəlkə deyiləndən daha çox olacağını bildirmişdir: “Yadımdadır, “Azəri-Çıraq-Günəşli” yatağının ehtiyatları haqqında birinci xəbərlər göstərirdi ki, 511 milyon ton neft vardır. Hətta mən o vaxt bir az təəccüblənirdim ki, nə üçün 511, belə dəqiqliyi necə bilmək olar?! Ancaq sonra həyat özü onu göstərdi ki, “Azəri-Çıraq-Günəşli” yatağının ehtiyatları 511 milyon ton deyil, 1 milyard tondan artıqdır... Ona görə, “Ümid” yatağının ehtiyatları haqqında verilən ilkin məlumat əminəm ki, gələcəkdə görülən işlər nəticəsində, düzəlişlərlə tamamlanacaq və dünya miqyaslı yeni qaz yatağının aşkarlanması dünya qaz bazarına müsbət təsir göstərəcəkdir. Azərbaycanın imkanları daha da genişlənəcək, bizim qaz ixracımız daha da artacaqdır”.

“Ümid” yatağı 2012-ci ildə sənaye istismarına daxil edilib. 2012-2021-ci illər ərzində yataqda qaz hasilatı 15 dəfəyə yaxın, kondensat hasilatı isə 14 dəfəyədək artıb. Ötən il “Ümid”dən 1 milyard 115 min kubmetrə qədər qaz və 173 min 453 ton kondensat hasil edilib. Cari ildə isə yataqdan 1 milyard 309 min kubmetr qaz və 194 min ton kondensatın çıxarılacağı gözlənilir. Bu da əvvəlki illə müqayisədə müvafiq olaraq 17,4 və 11,8 faiz artım deməkdir.

“Ümid” yatağında ikinci hasilat platformasının tikilib istismara verilməsi də planlaşdırılır. Belə ki, yatağın şimal qanadının tammiqyaslı işlənməyə cəlb edilməsi üçün “Ümid-2” platformasının olması vacibdir. Qurğunun bir neçə il sonra tikilib istifadəyə verilməsi nəzərdə tutulur. “Ümid” layihəsi çərçivəsində həmçinin üçüncü özülün tikintisi və əlavə quyuların qazılması da mümkündür.

***Flora SADIQLI, “Azərbaycan”***

# 30 illik zirvə

## Azərbaycanda Olimpiya hərəkatı tarixi uğurlara imza atıb



**Son illər digər sahələrdə olduğu kimi, Azərbaycanın idman tarixində də şanlı səhifələr yazılıb. Ötən dövr ərzində ölkəmizdə idmanın və olimpiya hərəkatının inkişafında böyük canlanma müşahidə olunub. Gələcəyə hesablanmış idman siyasəti ölkəmizdə sağlam nəsil və böyük idmançı ordusu formalaşdırıb. Bunlara paralel olaraq Azərbaycan mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana, dünyanın idman mərkəzlərindən birinə çevrilib.**

"Bakı-2015" I Avropa Oyunlarında yarışların standartını müəyyənləşdirən, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında isə yüksək təşkilatçılıqla nümunə göstərən Azərbaycan "Formula-1" Qran-prilərini də keçirməklə yarışların tarixinə öz imzasını həkk etdirib.

### İdmanda yüksəliş mərhələsi

Bu günlərdə Azərbaycanda Milli Olimpiya Komitəsinin (MOK) yaradılmasının 30 illiyi keçiriləcək. Azərbaycan Prezidenti İlham Əliyev MOK-un 30 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Qeyd olunur ki, Milli Olimpiya Komitəsi təsis olunduğu vaxtdan ölkədə idmanın dinamik inkişafı, Olimpiya ideallarının bərqərar olması və təşviqi üçün məqsədyönlü, ardıcıl fəaliyyət göstərmişdir. Ötən müddət ərzində Azərbaycanın idman infrastrukturunun yenilənərək ən müasir standartlara cavab verən səviyyəyə gətirilməsində, idmanın kütləviliyinin artırılmasında və sağlam həyat tərzinin təbliğində Milli Olimpiya Komitəsinin mühüm xidmətləri olmuşdur.

Xatırladaq ki, sovet dövründə idmançılarımız yalnız SSRİ-nin adı və bayrağı altında beynəlxalq idman yarışlarına qatılırdılar. Ölkəsinin bayrağını qaldırmaq, himnini səsləndirmək o dövrün qalib Azərbaycan idmançısına nəsib olmurdu. Müstəqillik dövründə isə vəziyyət tamam başqadır. Doğrudur, ötən əsrin 90-cı illərinin əvvəllərində, xaos və anarxiya dövründə idmançılarımız iştirak hüququ qazandıqları yarışlara belə vəsait çatışmazlığından qatıla bilmirdilər. 1992-1997-ci illərdə MOK-un fəaliyyəti heç də istənilən səviyyədə deyildi və qənaətbəxş sayıla bilməzdi. Çünki bu sahədə fəaliyyət planı lazımi səviyyədə qurulmamışdı.

Əslində, həmin dövrdə MOK qarşıda duran ümdə vəzifələrin həyata keçirilməsi üçün kənarda qalmamalı, aparıcı rol oynamalı idi. Təəssüf ki, MOK belə bir mövqe tuta bilmədi, ümumən, qurumun fəaliyyətinin ilk beş illiyi dövründə Milli Olimpiya Hərəkatında durğunluq hökm sürürdü. Belə bir vəziyyət isə ölkə rəhbərliyini, idman ictimaiyyətini qane etmirdi. Çünki Olimpiya oyunlarında yüksək nəticələr göstərmək lazım idi.

MOK-un 1997-ci il iyulun 31-də keçirilmiş növbəti Baş Məclisində bütün məsələlərin müzakirəsi zamanı bəlli oldu ki, istedadlı idmançılarımızın, məşqçi və mütəxəssislərimizin bir qismi ölkədən gedib, idmançıların məşq və yarışlarda iştirakı, onların sosial vəziyyəti acınacaqlı haldadır. MOK-un nəinki beynəlxalq idman qurumları ilə, hətta ölkənin idman təşkilatları ilə belə əlaqəsi yox idi.

Bu vəziyyətlə barışmayan Baş Məclis MOK İcraiyyə Komitəsinin yeni tərkibini seçdi. Səsvermə nəticəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev MOK-un prezidenti seçildi. Elə ilk günlər göstərdi ki, MOK çox düzgün və qətiyyətli bir addım atıb. Komitə ilk növbədə mövcud durumu düzgün qiymətləndirməklə idmanımızı dirçəltməyin yollarını dəqiq müəyyənləşdirib hərəkətə keçdi. Olimpiya hərəkatının real vəziyyəti öyrənildi, mövcud problemlər aşkara çıxarılaraq araşdırıldı. Cənab İlham Əliyevin rəhbərliyi altında Milli Olimpiya Komitəsinin görməli olduğu işlər həddən artıq idi. Bunların sırasında beynəlxalq əlaqələrin qurulması və genişləndirilməsi olduqca vacib rol oynayırdı. Qarşıya çıxan bütün problemləri bacarıqla həll edən İlham Əliyev Olimpiya hərəkatının məqsəd və vəzifələrini, fəaliyyət sisteminin ardıcıl istiqamətlərini müəyyənləşdirdi. Beləliklə, İlham Əliyevin MOK-un prezidenti seçilməsindən sonra ölkədə bədən tərbiyəsi və idman geniş vüsət aldı, respublikamız beynəlxalq Olimpiya hərəkatına qoşuldu, bu sahədə sistemli şəkildə işlər görüldü.

### Bakıdan bölgələrə doğru

MOK-un fəaliyyətində canlanma təkcə olimpizmin təbliği, idmançılarımızın olimpiadalarda iştirakını təmin etməklə bitmədi, həm də maddi-texniki bazanın gücləndirilməsi sahəsini əhatə etdi. Ölkədə idmanın sürətli inkişafını təmin etmək və onun perspektivlərini genişləndirmək məqsədilə mövcud maddi-texniki bazanın vəziyyətində dönüşün əsası qoyuldu. MOK 1999-cu ildən öz obyektlərinin tikintisinə başladı və artıq 2000-ci ilin oktyabrında Bakıda ilk Olimpiya kompleksinin açılış mərasimi oldu. Paytaxtdan başlayan quruculuq bölgələrə doğru istiqamətləndi. Bölgələrdə Olimpiya idman komplekslərinin tikilib istifadəyə verilməsi idman hərəkatının tərəqqisi üçün çox önəmli rol oynadı.

Bütövlükdə 2000-ci ildən indiyədək ölkədə 50-yə yaxın Olimpiya idman kompleksi, həmçinin ixtisaslaşmış idman qurğuları tikilib istifadəyə verilib, mövcud idman obyektləri yenidən qurulub. İndi, demək olar ki, respublikamızın bütün bölgələrində Olimpiya kompleksləri fəaliyyət göstərir. Azərbaycanın ucqar rayonlarında müxtəlif idman növləri ilə məşğul olmaq üçün mövcud şərait var.

### Son 7 olimpiada, 53 medal

Atletlərimiz çıxış etdikləri son 7 olimpiadada möhtəşəm tarixi zəfərlərə imza atıblar. Onları bir daha xatırlamaq yerinə düşərdi. 1996-cı ildə ABŞ-da keçirilən Atlanta Olimpiadasında 23 idmançı ilə təmsil olunan Azərbaycan 1 gümüş medalla 61-ci yeri tutmuşdu. Yeganə medalı 52 kq çəki dərəcəsində yarışan sərbəst güləşçimiz Namiq Abdullayev gümüş medal qazanmışdı.

2000-ci ildə Sidneydə 31 idmançı ilə təmsil olunan Azərbaycan 2 qızıl və 1 bürünc medalla dünyada 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri tutdu. Komandamıza ilk medalı qadınlar arasında stend atıcılığı yarışlarında Zemfira Meftahəddinova qazandırdı. Ölkəmizə ikinci qızıl medalı Atlanta oyunlarının gümüş mükafatçısı, güləşçi Namiq Abdullayev gətirdi. Boksçu Vüqar Ələkbərov bürünc medala sahib oldu.

21-ci minilliyin ilk Olimpiya Oyunlarında - "Afina-2004"də 12 idman növündə 38 idmançı ilə təmsil olunan Azərbaycan milli komandası bu möhtəşəm yarışdan vətənə 1 qızıl, 4 bürünc medalla qayıtdı. Yunan-Roma güləşi üzrə 66 kq çəki dərəcəsində 22 yaşlı Fərid Mansurov fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq qızıl, atıcılıq üzrə yarışlarda kiçik çaplı tapançadan 25 metr məsafəyə atəş açmada İradə Aşumova və stend atıcılığı üzrə təmsilçimiz, "Sidney-2000" Olimpiadasının qızıl mükafatçısı Zemfira Meftahəddinova Azərbaycan yığmasının hesabına iki bürünc medal yazdırdılar.

Afinada yarımfinala yüksələn ilk Azərbaycan boksçusu Ağası Məmmədovun çəki problemi onu bürünc medalla kifayətlənməyə məcbur etdi. Ölkəmizin aktivinə yazılan 4 bürünc medaldan biri isə digər boksçumuz Fuad Aslanovun payına düşdü.

2008-ci ildə Pekində təşkil edilən Olimpiadada Azərbaycan 12 idman növündə 44 atletlə təmsil olundu. Komandamız Olimpiya oyunlarında ilk dəfə olaraq hər üç əyarda medallar qazandılar. Ölkəmizə Olimpiya qızılını cüdoçumuz Elnur Məmmədli (73 kq) gətirdi. Gümüş medalları Yunan-Roma güləşində Rövşən Bayramovla (55 kq) Vitali Rəhimov (60 kq) qazandı.

Sərbəst güləşçimiz Xetaq Qazyumov (96 kq), qadın güləşində Mariya Stadnik (48 kq), boksda Şahin İmranov (57 kq) və cüdoda Mövlud Mirəliyev (100 kq) bürünc medala layiq görüldülər.

Beləliklə, Pekində keçirilən XXIX Yay Olimpiya Oyunlarında Azərbaycan yığması 7 medalla (1 qızıl, 2 gümüş, 4 bürünc) 204 ölkə arasında medalların sayına görə 27-ci, medalların növünə görə isə 39-cu yeri tutdu.

2012-ci ildə London Olimpiya Oyunlarında isə Azərbaycan idmançıları 10 medal (2 qızıl, 2 gümüş, 6 bürünc) qazandılar. Bununla da 204 ölkə arasında 30-cu yerdə qərar tutan ölkəmiz medalların ümumi sayına görə 25-ci oldu. İki qızıl, iki gümüş və altı bürünc əldə edən idmançılarımız bu göstərici ilə Avropa ölkələri arasında 15-ci, MDB-də isə 5-ci yeri tutdular. Londonda Toğrul Əsgərov və Şərif Şərifov qızıl, Rövşən Bayramov və Mariya Stadnik gümüş medalların sahibi oldular. Digər üç güləşçimiz Emin Əhmədov, Yuliya Ratkeviç və Xetaq Qazyumov isə mübarizələrini bürünc medalla başa vurdular. Digər üç bürünc medalı isə ağırlıqqaldıran Valentin Xristov və boksçularımız Teymur Məmmədovla Məhəmmədrəsul Məcidov qazandılar.

2016-cı ildə Braziliyanın Rio-de-Janeyro şəhərində təşkil edilən XXXI Yay Olimpiya Oyunlarına Azərbaycan 56 idmançı ilə qatıldı. İlk dəfə rekord sayda - 18 medal (1 qızıl, 7 gümüş, 10 bürünc) qazanıldı. Dünyanın 207 ölkəsindən 11 mindən çox idmançının iştirak etdiyi turnirə respublikamız 56 idmançı ilə qatılmışdı. Azərbaycan medal sayına görə 87 mükafatçı dövlət arasında 15-ci yeri tutaraq İslam, türk və Qafqaz ölkələri arasında lider oldu.

Pəhləvanlarımız bu dəfə də 9 medal qazandılar. Güləş yığmamızın aktivinə 3 gümüş medalı pəhləvanlar (Mariya Stadnik, Toğrul Əsgərov və Xetaq Qazyumov) əlavə etdilər. Digər 6 güləşçimiz - Cəbrayıl Həsənov, Rəsul Çunayev, Nataliya Sinişin, Sabah Şəriəti, Şərif Şərifov və Hacı Əliyev isə çıxışlarını bürünc medalla başa vurdular. Cüdoçulardan Rüstəm Orucov və Elmar Qasımov 4 illiyin zirvə yarışını gümüş medalla başa vurdular.

Tarixində ilk dəfə Olimpiya oyunlarında mükafat qazanan taekvondo üzrə Azərbaycan millisi "Rio-2016"da ən yaxşılardan olub. Braziliyaya 4 idmançı ilə yollanan yığmamız okeanın o tayında 3 medal əldə edib. Radik İsayev Azərbaycanın yeganə qızıl medalının sahibi olub. Milad Beiqi Harçeqani və Patimat Abakarova bürünc medal qazandıqlarına sevindilər. Boksçulardan Sotomayor Lorenzo gümüş, Kamran Şahsuvarlı bürünc medala sahib oldular. Ölkəmizin hesabına daha bir gümüş medalı avarçəkmə yarışlarında Valentin Demyanenko, bürüncü isə İnna Osipenko-Rodomskaya əlavə etdi.

Pandemiya səbəbindən bir il təxirə salınan "Tokio-2020" Olimpiadasına 44 idmançı ilə qatılan Azərbaycan komandası turniri 3 gümüş və 4 bürünc medalla başa vurub. Gümüş medalların 2-si karate, 1-i güləş, bürünc mükafatlardan isə 2-si güləş, 1-i cüdo, 1-i boks yarışlarında qazanılıb. Karateçilərimizdən Rafael Ağayev (kumite, 75 kq) və İrina Zaretska (kumite, +61 kq) təkcə finalda uduzaraq gümüş medallara sahib olublar. Digər gümüş medalın sahibi sərbəst güləşçi Hacı Əliyevdir. Yunan-Roma güləşçilərimizdən Rafiq Hüseynov (77 kq) və qadın güləşçimiz Mariya Stadnik (50 kq) Olimpiadanı bürünc medallarla başa vurdular. Ölkəmizin aktivinə digər bürünc medalları cüdoçu İrina Kindzerska (+78 kq) və boksçu Alfonso Domingez (81 kq) yazdırdılar.

Şübhəsiz ki, idmançılarımız növbəti yarışlarda da möhtəşəm qələbələri ilə yeni tarix yazacaqlar. Onlar Prezident İlham Əliyevin yüksək diqqət və qayğısını, xalqımızın inamını doğruldacaq, son ana qədər əzmkarlıqla mübarizə apararaq dünyanın ayrı-ayrı ölkələrində himnimizi səsləndirəcək və müqəddəs bayrağımızı daim yüksəklərə qaldıracaqlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***







# Bakıda keçirilən Dünya kuboku başa çatdı

## Azərbaycan gimnastı mötəbər yarışın bürünc medalına sahib çıxdı







Ötən həftə Azərbaycanın paytaxtı növbəti dəfə mötəbər beynəlxalq yarışa evsahibliyi etdi. Bakıda Milli Gimnastika Arenasında Kişi və Qadın İdman Gimnastikası üzrə FIG Dünya Kuboku yarışları keçirildi.

34 ölkədən 145 idmançının qüvvəsini sınadığı turnir dörd gün davam etdi. Yarışların ilk iki günü təsnifat, sonrakı iki günü isə final mərhələləri baş tutdu.

Dünya kubokunda ölkəmizi Mənsum Səfərov (sərbəst hərəkətlər), Ağamurad Qəhrəmanov (sərbəst hərəkətlər, dayaqla tullanma, paralel qollar, turnik), İvan Tixonov (dəstəkli at, dayaqlı tullanma, paralel qollar, turnik), Cavidan Babayev (halqa), Nikita Simonov (halqa), Samirə Qəhrəmanova (dayaqlı tullanma, gimnastika tiri, sərbəst hərəkətlər), Milana Minakovskaya (müxtəlif hündürlüklü qollar, gimnastika tiri, sərbəst hərəkətlər) təmsil etdilər.

Yarışların açılış mərasimində çıxış edən gənclər və idman nazirinin müavini Mariana Vasileva gimnastikanın ən maraqlı növlərindən biri olan idman gimnastikasının ölkəmizdə çox sevildiyini, bu növün Olimpiya oyunlarında da böyük maraqla qarşılandığını bildirdi.

Açılış mərasiminin ardınca idmançıların çıxışlarına start verildi. Dünya kubokunun ilk günündə kişi idmançılar sərbəst hərəkətlər, paralel qollar və halqalar üzrə çıxışlarını təqdim etdilər. Qadın idman gimnastları isə dayaqlı tullanmada və müxtəlif hündürlüklü qollarda mübarizə apardılar.

Azərbaycanın dörd təmsilçisi yarışın ilk günündə qüvvəsini sınadı. Nikita Simonov halqalarda proqramını təqdim etdi. Onun çıxışı hakimlər tərəfindən 14,266 xalla qiymətləndirildi. Gimnastımız altıncı pillədə qərarlaşdı və finala vəsiqə qazandı. Digər təmsilçimiz İvan Tixonov paralel qollarda çıxış edərək hakimlərdən 13,933 xal aldı. Bu nəticə ilə idmançımız 8-ci olub və finala keçdi.

Aprelin 2-də final mərhələsi oldu. Final proqramında kişilər arasında paralel qollar və halqalar, qadınlar arasında isə dayaqlı tullanma və müxtəlif hündürlüklü qollar üzrə qaliblər müəyyənləşdi.

Sevindirici haldır ki, təmsilçimiz Nikita Simonov halqalarda uğurla çıxış edərək komandamıza bürünc medal qazandırdı. İdmançımız həlledici mərhələdə hakimlərdən 14,500 xal aldı. Yarışın qalibi 14,800 xalla italiyalı Mareska Salvatore oldu. Türkiyəli İbrahim Çolak 14,766 xalla turniri ikinci pillədə başa vurdu.

Həlledici mərhələdə paralel qollarda ölkəmizi təmsil edən İvan Tixonov 13,833 xalla 7-ci pillədə qərarlaşdı.

Mükafatlandırma mərasiminin yekununda kişi və qadınlar arasında bu il keçirilmiş 4 dünya kubokunda göstərilən üç ən yaxşı nəticənin yekununa əsasən idmançılara ayrı-ayrı alətlər üzrə FIG kuboku təqdim edildi. Kişilər arasında sərbəst hərəkətlər üzrə Artyom Dolqopyat (İsrail), paralel qollar üzrə İlya Kovtun (Ukrayna), qadınlar arasında dayaqlı tullanma üzrə Oksana Çusovitina (Özbəkistan), müxtəlif hündürlüklü qollar üzrə isə Daniela Batrona (Ukrayna) FIG kubokuna layiq görüldülər.

Bundan əlavə, ən yüksək icra xalı toplamış gimnastlar - Bolqarıstan təmsilçisi Valentina Georgiyeva və Gürcüstan təmsilçisi İoanne Cimşeleşvili "AGF Trophy" kuboku ilə təltif olundular.

Aprelin 3-də final yarışlarında kişilər arasında dayaqlı tullanma, dəstəkli at və turnik, qadınlar arasında isə gimnastika tiri və sərbəst hərəkətlər proqramları üzrə qaliblər müəyyənləşdi.

Braziliya təmsilçisi Julia Soaresin sərbəst hərəkətlərdə final çıxışı hakimlər tərəfindən 13,433 xalla qiymətləndirildi və o, birinci oldu. Macarıstanlı Dorina Boeczoeqo 13,166 xalla turniri ikinci, özbəkistanlı Dildora Aripova isə 12,866 xalla üçüncü pillədə başa vurdular.

Qazaxıstan idmançısı Nəriman Qurbanov kişilərin dəstəkli at yarışlarında 14,633 xalla qızıl medal əldə etdi. Albaniya idmançısı Matvey Petrov 14,466 xalla ikinci, Fransa gimnastı Siril Tommazon isə 14,333 xalla üçüncü oldular.

Almaniya təmsilçisi Sara Voss qadınlar arasında gimnastika tirində qızıl medala sahib oldu. O, 13,733 xalla bütün rəqiblərini qabaqlayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxdı. Fransa təmsilçisi Lorett Şarpi 12,966 xalla turniri ikinci, ukraynalı gimnast Daniela Batrona isə 12,900 xalla üçüncü pillədə başa vurdular.

Ukraynalı gimnast Nazar Çepurnının dayaqlı tullanma yarışlarında final çıxışı hakimlər tərəfindən 15,016 xalla qiymətləndirilib və o, qızıl medal qazandı. İlk üçlüyü İsrail gimnastları qapayıblar. Belə ki, Andrey Medvedev 14,500 xalla gümüş, Artyom Dolqopyat isə 14,450 xalla bürünc medala sahib oldular.

Son olaraq Milli Gimnastika Arenasında kişilər arasında turnik üzrə qaliblər müəyyənləşdi. Çıxışına görə hakimlərdən 14 xal alan Böyük Britaniya idmançısı Co Frayzer bütün rəqiblərini qabaqladı. Avstraliya təmsilçisi Mitçell Morqans 13,966 xalla gümüş, ukraynalı İlya Kovtun 13,866 xalla bürünc medala yiyələndilər.

Sonuncu qalib müəyyənləşdikdən sonra mükafatlandırma mərasimi təşkil olundu.

Ümumiyyətlə, Azərbaycanda idman siyasəti Prezident İlham Əliyevin rəhbərliyi altında böyük uğurla həyata keçirilir. Müstəqillik tarixində ölkəmiz, xüsusilə paytaxtımız bir sıra idman növləri üzrə mötəbər yarışları təşkil etməsi ilə yadda qalıb. Gimnastika növləri üzrə yarışların keçirilməsi də artıq bir ənənəyə çevrilib.

2002-ci ildə Mehriban xanım Əliyeva Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib və bu vəzifədə özünü peşəkar təşkilatçı kimi nümayiş etdirib. Həmin vaxtdan bəri ölkəmizdə mövcud gimnastika növləri dirçəlib və digərləri də inkişaf etməyə başlayıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın beynəlxalq aləmdə artmaqda olan nüfuzu bədii gimnastika üzrə dünya kubokunun "A" kateqoriyalı mərhələsinin, dünya kubokunun, 27-ci dünya çempionatının, 23-cü, 25-ci və 30-cu Avropa çempionatlarının Azərbaycanda keçirilməsinə dair qərarın qəbul olunmasında həlledici rol oynayıb.

Bundan əlavə, batut üzrə Avropa, dünya çempionatlarına evsahibliyi etmişik. Ötən həftə Bakıda Akrobatika Gimnastikası üzrə XII Dünya Yaş Qrupları Yarışları, martın 10-13-də isə böyüklər arasında Akrobatika Gimnastikası üzrə XXVIII Mundial uğurla keçirilib.

Aprelin 22-dən 24-dək dünyanın diqqəti bir daha Azərbaycanın paytaxtı Bakıya cəmlənəcək. Belə ki, dünyanın ən güclü bədii gimnastları bu dəfə ölkəmizdə təşkil olunacaq Bədii Gimnastika üzrə Dünya Kubokunda bir araya gələcəklər.

***R.CƏFƏROV,***
***"Azərbaycan"***

# Avropanın birincisi

## Hər iki komandamız - yunan-Roma və sərbəst güləş üzrə yığmalarımız qitə çempionu oldular



Macarıstanın paytaxtında keçirilən Avropa çempionatında uğurlu çıxış edən sərbəst güləş üzrə millimiz Vətənə qayıdıb. Baş məşqçi Namiq Abdullayev, böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında Budapeştdə 1 qızıl, 4 gümüş və 2 bürünc medalla komanda hesabında Avropa çempionu olan yığmamızı Heydər Əliyev Beynəlxalq Aeroportunda Gənclər və İdman Nazirliyinin və Güləş Federasiyasının rəsmiləri, məşqçilər, idmançılar və heyət üzvlərinin yaxınları qarşılayıblar.

Hava limanındakı brifinqdə çıxış edən baş məşqçi Namiq Abdullayev bu uğuru tarixi rekord adlandırıb. Onun fikrincə, Azərbaycan güləşçiləri ümidləri doğrultdular: "Bir neçə gün bundan əvvəl U-23 Avropa çempionatında da komanda hesabında çempion olmuşduq. Həmin yarışdan sonra Prezident İlham Əliyev bütün heyəti qəbul etdi, təbriklərini çatdırdı, tövsiyələrini verdi. Bu, idmançılar üçün böyük stimul oldu. Dövlət başçısının diqqət və qayğısını daim hiss edirik".

Bu yarışda da heyətdə gənc güləşçilərin yer aldığını söyləyən baş məşqçi Bolqarıstanda medal qazanan idmançılardan Zirəddin Bayramov, Əşrəf Aşırov və Aydın Əhmədovun böyüklərin qitə birinciliyində də iştirak etdiyini söyləyib. Maqomedxan Maqomedov isə ölkəmizi ilk dəfə Avropa çempionatında təmsil edib və bütün görüşləri inamla keçirib. O, təcrübəli güləşçilərə qalib gələrək gələcək üçün ümid verib.

Namiq Abdullayev həmçinin böyük məşqçi Zəlimxan Hüseynovun və məşqçi Arif Abdullayevin zəhmətlərini dəyərləndirərək qeyd edib ki, yeniyetmə və gənclərdən ibarət yığmalarımızın məşqçilərinin əməyi yüksəkdir: "Təlim-məşq toplanışlarında, yarışlara hazırlaşarkən vahid bir komanda kimi işləyirik. Qarşıda bizi İslam Həmrəyliyi Oyunları və dünya çempionatı gözləyir. Ona qədər İtaliyada keçiriləcək reytinq turnirində də əsas heyət üzvlərinin iştirakı nəzərdə tutulub. Bu yarışlara hazırlıq məqsədilə müxtəlif yerlərdə təlim-məşq toplanışları keçirməyi planlaşdırırıq".

Avropa çempionu Maqomedxan Maqomedov (97 kq) yarışlarla bağlı təəssüratlarını bölüşüb: "Sözsüz ki, çempion olduğum üçün çox sevinirəm. Bu nəticəni qazanmağımda əməyi olan hər kəsə təşəkkürümü bildirirəm. Göstərdiyi diqqət və qayğıya görə federasiya rəhbərliyinə və bizi bu yarışa yüksək səviyyədə hazırlaşdıran yığma komandanın məşqçilərinə minnətdaram".

Avropa çempionatını gümüş medalla başa vuran Hacı Əliyev (65 kq) isə deyib ki, güləşçilərimiz bu turnirdə inamla mübarizə aparıblar. Bunun da nəticəsi göz önündədir: "Olimpiadadan sonra bir neçə ay fasilə götürdüm. İstirahəti başa vurduqdan sonra düşündüm ki, cəmi 2 ildən sonra növbəti Olimpiya oyunlarıdır və Paris-2024-də iştirak edə bilərəm. Artıq gələn il ilk lisenziya yarışı olacaq. AÇ öncəsi millinin sonuncu təlim-məşq toplanışında iştirak etdim. 4-cü dəfə Avropa çempionu olmaq istəyirdim. Ancaq tam hazır deyildim. Şükür Allaha, yenə də medalsız gəlmədim. Yaxşı nəticə göstərdim. Hədəfim Olimpiya çempionu olmaqdır. İnşallah, Parisdə qızıl medal qazanaram".

Yunan-Roma güləşi üzrə millimiz qitə birinciliyində tarixi uğura imza atıb. Baş məşqçi Aleksandr Tarakanov, böyük məşqçi Rövşən Bayramov və məşqçi Həsən Əliyevin rəhbərliyi altında 10 güləşçiylə yarışda təmsil olunan komandamızın 8 üzvü fəxri kürsüyə qalxıb. Eldəniz Əzizli (55 kq) və Rafiq Hüseynov (82 kq) qızıl, Taleh Məmmədov (63 kq) gümüş, Murad Məmmədov (60 kq), Həsrət Cəfərov (67 kq), Ülvü Qənizadə (72 kq), Sənan Süleymanov (77 kq) və İslam Abbasov (87 kq) bürünc medal qazanıblar. Onlar komandaya müvafiq olaraq 25, 20 və 15 xal qazandırıblar. Beşinci yeri tutan Murat Lokyayevlə (97 kq) Beka Kandelaki (130 kq) isə 10 xalı millimizin ehtiyatına əlavə ediblər.

Qeyd edək ki, bu, Rafiq Hüseynovun üçüncü, Eldəniz Əzizlinin isə ikinci çempionluğudur.

Finalda Eldənizin rəqibi gürcüstanlı dünya çempionu Nuqzari Tsurtsumia olub. Görüş pəhləvanımızın qələbəsi ilə yekunlaşıb - 8:2.

Beləliklə, 30 yaşlı idmançı karyerasında ikinci dəfə Avropa çempionu olub. O, ilk belə çempionluğu 2018-ci ildə qazanıb. Həmin il o, dünya çempionu da olub. Eldəniz həm də yunan-Roma güləşi növündə böyüklər arasında ən çox Avropa çempionatı medalı olan idmançımızdır. Onun hesabında 6 qitə birinciliyinin medalı var. Güləşçi 2018-ci ildə Kaspiyskdə və 2022-ci ildə Budapeştdə qitənin ən güclüsü adını qazanıb, 2011-ci ildə Dortmundda, 2019-cu ildə Buxarestdə, 2020-ci ildə Romada və 2021-ci ildə Varşavada fəxri kürsünün üçüncü pilləsinə yüksəlib.

R.Hüseynov startda çexiyalı Petr Novakı 5:1 hesabı ilə üstələyib. O, dörddəbir finalda macar Tamaş Levayla qarşılaşıb. Görüşün taleyini təcrübəli pəhləvanımızın ilk hissədə etdiyi uğurlu fənd müəyyənləşdirib - 2:0. Təmsilçimiz final yolunda moldovalı Mixail Braduya da gücünü göstərib - 2:0.

Beləliklə, titullu güləşçimiz üçüncü dəfə Avropa çempionatının finalına yüksəlib. R.Hüseynovun həlledici görüşdə rəqibi gürcü Gela Bolkvadze olub. Rəqibinə 2:1 hesabı ilə qalib gələn R.Hüseynov üçqat Avropa çempionu olub. Güləşçimiz 2011-ci ildə Almaniyada və 2020-ci ildə İtaliyada keçirilən Avropa çempionatlarında da birinci olub, 2018-ci ildə Rusiyada təşkil olunan qitə birinciliyini üçüncü pillədə başa vurub. R.Hüseynov ötən il Norveçdə keçirilən dünya çempionatında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Beləliklə, yığmamız 165 xalla tarixində ilk dəfə komanda hesabında Avropa çempionu olub. Türkiyə millisi 150 xalla 2-ci, Gürcüstan isə 114 xalla 3-cü yeri tutub. Həm medalların sayına, həm əyarına, həm də toplanan xallara görə Azərbaycan yunan-Roma güləşi tarixində yeni rekorda imza atıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planı

| Sıra № | Tədbirin adı | Əsas icraçı | Digər icraçılar | İcra müddəti | İlkin nəticə | Aralıq nəticə | Yekun nəticə |
|---|---|---|---|---|---|---|---|
| | **Prioritet 1. Korrupsiyaya qarşı mübarizə üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi sahəsində tədbirlər** | | | | | | |
| 1.1. | Dövlət orqanlarının (qurumlarının) fəaliyyətində korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qarşısının alınması qaydalarının müəyyənləşdirilməsi | Nazirlər Kabineti | Tövsiyə edilir: Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, Baş Prokurorluq | 2022—2023 | Dövlət orqanlarının (qurumlarının) fəaliyyətində korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qarşısının alınması ilə bağlı mexanizmin formalaşdırılması məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi və təkliflərin toplanılması | Müvafiq qaydaların layihəsinin hazırlanması | Dövlət orqanlarının (qurumlarının) fəaliyyətində korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qarşısının alınması ilə bağlı tədbirlərin həyata keçirilməsi qaydalarının müəyyənləşdirilməsi |
| 1.2. | Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxslərin həvəsləndirilməsinə və müdafiəsinə dair qanunvericiliyin təkmilləşdirilməsi | Nazirlər Kabineti | Tövsiyə edilir: Baş Prokurorluq | 2022—2024 | Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxslərin həvəsləndirilməsinə və müdafiəsinə dair qanunvericiliyin təkmilləşdirilməsi üçün təkliflərin toplanması | Qeyd edilən qanunvericilik aktının layihəsinin hazırlanması | Korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə məlumat verən şəxslərin həvəsləndirilməsinə və müdafiəsinə dair qanunvericilik aktının qəbul edilməsi |
| 1.3. | Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların elektron formada təqdim edilməsi işinin təşkili, qanunsuz varlanmaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi ilə bağlı təkliflər verilməsi | Nazirlər Kabineti | Tövsiyə edilir: Baş Prokurorluq, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya | 2022—2026 | Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların elektron formada təqdim edilməsi işinin təşkili və qanunsuz varlanmaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsinə dair təkliflərin toplanılması | Təqdim olunmuş təkliflərin qiymətləndirilməsi | Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların elektron formada təqdim edilməsi işinin təşkili və qanunsuz varlanmaya qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər görülməsi |
| 1.4. | Xüsusi müsadirə institutunun effektivliyinin təmin edilməsi məqsədilə ölkə ərazisində, yaxud başqa dövlətin yurisdiksiyasında olan cinayət yolu ilə əldə olunmuş əmlakın və ya müsadirə edilməli olan digər aktivlərin qaytarılması (aşkar edilməsi, üzərinə həbs qoyulması, aktivlərin dondurulması və sair) ilə bağlı səmərəli fəaliyyətin həyata keçirilməsi üçün müvafiq təkliflər hazırlanması | Nazirlər Kabineti | Tövsiyə edilir: Baş Prokurorluq, Ali Məhkəmə | 2022—2026 | Xüsusi müsadirə institutunun effektivliyinin təmin edilməsi məqsədilə aktivlərin qaytarılması mexanizmlərinin tətbiqi ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi | Məlumatların ümumiləşdirilməsi və təhlili, təkliflərin qiymətləndirilməsi | Aktivlərin qaytarılması ilə bağlı mexanizmi tənzimləyən müvafiq təklifin təqdim edilməsi |
| 1.5. | Cinayət yolu ilə əldə edilmiş və xüsusi müsadirə obyekti olan əmlakın qiymətləndirilməsi və idarə olunması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi | Nazirlər Kabineti | Tövsiyə edilir: Baş Prokurorluq | 2022—2024 | Cinayət yolu ilə əldə edilmiş və xüsusi müsadirə obyekti olan əmlakın qiymətləndirilməsi və idarə olunması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi | Təkliflərin toplanılması, təhlili və qanunvericilik aktının layihəsinin hazırlanması | Xüsusi müsadirə obyekti olan əmlakın qiymətləndirilməsi və idarə olunması sahəsində səmərəliliyin artırılması ilə bağlı müvafiq qanunvericilik aktının layihəsinin təqdim edilməsi |
| 1.6. | Dövlət orqanlarının (qurumlarının) vəzifəli şəxslərin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması ilə bağlı müvafiq qanunvericilik aktlarının hazırlanması | Nazirlər Kabineti | Tövsiyə edilir: Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, Baş Prokurorluq | 2022—2024 | Normativ hüquqi aktın layihəsinin hazırlanması ilə bağlı ilkin təkliflərin toplanması | Beynəlxalq təcrübə nəzərə alınmaqla hüquqi aktın layihəsinin hazırlanması | Vəzifəli şəxslərin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması ilə bağlı müvafiq qanunvericilik aktının qəbul edilməsi |
| 1.7. | Dövlət xidmətlərinin təşkili prinsiplərini və qaydasını tənzimləyən, dövlət orqanları (qurumları) tərəfindən xidmətlərin göstərilməsinə dair tələbləri müəyyən edən vahid qanunun qəbul edilməsi | Nazirlər Kabineti | Dövlət xidmətləri göstərən aidiyyəti dövlət orqanları (qurumları) | 2022—2023 | Dövlət xidmətlərinin təşkili qaydalarına dair qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərin toplanılması | Qeyd edilən normativ hüquqi akt layihələrinin hazırlanması | Dövlət xidmətlərinin təşkili qaydalarını tənzimləyən normativ hüquqi aktların qəbul edilməsi |
| 1.8. | Tikilməkdə olan və ya tikilmiş və istismara qəbul edilməmiş çoxmənzilli binalarda mənzillərə dair verilmiş hüquqmüəyyənedici sənədlərin vahid informasiya bazasının yaradılması, bu istiqamətdə daşınmaz əmlakın təminat qeydinin aparılması mexanizmlərinin təkmilləşdirilməsi | Nazirlər Kabineti | İqtisadiyyat Nazirliyi | 2022—2024 | Vahid informasiya bazasının yaradılması, daşınmaz əmlakın təminat qeydinin aparılması mexanizmlərinin təkmilləşdirilməsi üçün təkliflərin toplanılması | Vahid informasiya bazasının yaradılması | Daşınmaz əmlakın təminat qeydinin aparılması mexanizmlərinin təkmilləşdirilməsi üçün təkliflərin təqdim edilməsi |
| 1.9. | Dövlət investisiya layihələri üzrə korrupsiya risklərinin qiymətləndirilməsi və bu qiymətləndirmənin nəticələrinə uyğun olaraq qabaqlayıcı institusional mexanizmlərə dair təkliflər verilməsi | Nazirlər Kabineti | İqtisadiyyat Nazirliyi | 2022—2024 | Dövlət investisiya layihələri üzrə korrupsiya risklərinin qiymətləndirilməsi | Qiymətləndirmə nəticələrinə uyğun olaraq qabaqlayıcı institusional mexanizmlərə dair təkliflər hazırlanması | Dövlət investisiya layihələri üzrə korrupsiya risklərinin qarşısının alınması üçün qabaqlayıcı institusional mexanizmlərə dair təkliflərin təqdim edilməsi |
| 1.10. | Dövlət və bələdiyyə əmlakının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının təmin edilməsi sahəsində görülən işlərin yekunlaşdırılması | Nazirlər Kabineti | İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi<br>Tövsiyə edilir: bələdiyyələrin milli assosiasiyaları | 2022—2024 | Dövlət və bələdiyyə əmlakının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatı sahəsində qanunvericiliyin təkmilləşdirilməsi üçün təkliflərin toplanılması | Qeyd edilən qanunvericilik aktının layihəsinin hazırlanması | Dövlət və bələdiyyə əmlakının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının təmin edilməsi |
| 1.11. | Yerli özünüidarəetmə sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmaları yaradan səbəb və şəraitin öyrənilərək aradan qaldırılması ilə bağlı əlavə tədbirlər görülməsi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi | Nazirlər Kabineti | Tövsiyə edilir: bələdiyyələrin milli assosiasiyaları | 2022—2026 | Yerli özünüidarəetmə sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmaları yaradan səbəblərin təhlili | Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərin toplanılması, müvafiq normativ hüquqi aktın layihəsinin hazırlanması və qəbul edilməsi | Yerli özünüidarəetmə sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmaları yaradan səbəb və şəraitin aradan qaldırılması üçün tədbirlər görülməsi |
| | **Prioritet 2. Korrupsiyanın qarşısının alınması və şəffaflığın gücləndirilməsi sahəsində tədbirlər** | | | | | | |
| 2.1. | Dövlət orqanlarında (qurumlarında) çalışan işçilərin, o cümlədən hüquq mühafizə orqanları əməkdaşlarının, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın Katibliyinin işçilərinin, habelə hakimlərin sosial təminatının yaxşılaşdırılması və korrupsiya hüquqpozmalarının qarşısının alınması fəaliyyətinin gücləndirilməsi məqsədilə həmin şəxslərin əməkhaqlarının mərhələlərlə artırılması üzrə tədbirlərin davam etdirilməsi, bununla bağlı təkliflər hazırlanması | Nazirlər Kabineti | Maliyyə Nazirliyi,<br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Ədliyyə Nazirliyi<br>Tövsiyə edilir:<br>Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, Ali Məhkəmə, Baş Prokurorluq | 2022—2026 | Dövlət orqanlarında (qurumlarında) çalışan işçilərin, o cümlədən hüquq mühafizə orqanları əməkdaşlarının, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın Katibliyinin işçilərinin, habelə hakimlərin əməkhaqlarının mərhələlərlə artırılması ilə bağlı təkliflərin toplanılması və ümumiləşdirilməsi | Dövlət orqanlarında (qurumlarında) çalışan işçilərin, o cümlədən hüquq mühafizə orqanları əməkdaşlarının, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın Katibliyinin işçilərinin, habelə hakimlərin əməkhaqlarının mərhələlərlə artırılması ilə bağlı təkliflərin təhlili və qiymətləndirilməsi | Dövlət orqanlarında (qurumlarında) çalışan işçilərin, o cümlədən hüquq mühafizə orqanları əməkdaşlarının, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın Katibliyinin işçilərinin, habelə hakimlərin maddi-sosial təminatının gücləndirilməsi |
| 2.2. | Korrupsiyaya qarşı mübarizə sahəsində əhəmiyyəti nəzərə alınaraq, "Elektron məhkəmə" informasiya sisteminin funksionallığının artırılması ilə bağlı tədbirlərin davam etdirilməsi, sistemin ölkənin bütün regionlarında tətbiqinin təmin edilməsi ilə bağlı tədbirlərin yekunlaşdırılması | Ədliyyə Nazirliyi | Tövsiyə edilir: Ali Məhkəmə, Məhkəmə-Hüquq Şurası | 2022—2023 | "Elektron məhkəmə" informasiya sisteminə qoşulmuş məhkəmələrdə mövcud vəziyyət təhlil edilərək, proqramın funksionallığının artırılması ilə bağlı təkliflər hazırlanması, "Elektron məhkəmə" informasiya sisteminin ölkənin bütün regionlarında tətbiqinin təmin olunması ilə bağlı konkret müddətləri nəzərdə tutan tədbirlər planının təsdiq edilməsi | "Elektron məhkəmə" informasiya sisteminin funksionallığının artırılması ilə bağlı işlərin görülməsi, tədbirlər planına müvafiq olaraq, "Elektron məhkəmə" informasiya sisteminin tətbiq edilmədiyi regionların yarısında sistemin tətbiqinə dair işlərin başa çatdırılması | "Elektron məhkəmə" informasiya sisteminin ölkənin bütün regionlarında tətbiqinin təmin edilməsi ilə bağlı işlərin tam başa çatdırılması |
| 2.3. | Ədalət mühakiməsi sahəsində antikorrupsiya tədbirlərinin gücləndirilməsi, məhkəmə hakimiyyətinin daha səmərəli təşkili məqsədilə beynəlxalq təcrübə nəzərə alınmaqla Məhkəmə-Hüquq Şurasının formalaşdırılmasına dair qaydaların təkmilləşdirilməsi | Tövsiyə edilir: Məhkəmə-Hüquq Şurası | Tövsiyə edilir: Ali Məhkəmə, hakim assosiasiyaları | 2022—2026 | Ədalət mühakiməsi sahəsində antikorrupsiya tədbirlərinin gücləndirilməsi, məhkəmə hakimiyyətinin daha səmərəli təşkili məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi | Ədalət mühakiməsi sahəsində antikorrupsiya tədbirlərinin gücləndirilməsi, Məhkəmə-Hüquq Şurasının formalaşdırılmasına dair qaydaların təkmilləşdirilməsi | Ədalət mühakiməsi sahəsində antikorrupsiya tədbirlərinin gücləndirilməsi, məhkəmə hakimiyyətinin daha səmərəli təşkili istiqamətində tədbirlər görülməsi |
| 2.4. | Dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdə işə qəbul prosedurlarında şəffaflığın artırılması və bu sahədə ictimai nəzarət mexanizmlərinin tətbiqinin genişləndirilməsi ilə bağlı əlavə tədbirlər görülməsi | Nazirlər Kabineti | Dövlət İmtahan Mərkəzi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər | 2022—2026 | Dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdə işə qəbulun müsabiqə əsasında keçirilməsi, işə qəbul prosedurları zamanı şəffaflıq və ictimai nəzarət mexanizmlərinin gücləndirilməsi ilə bağlı təkliflər hazırlanması | Təkliflərin təhlili və qeyd edilən qurumlara işə qəbul prosesində şəffaflığın artırılması və ictimai nəzarətin genişləndirilməsi ilə bağlı yeni mexanizmlərin müəyyən edilməsi | Dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdə işə qəbul prosedurlarında şəffaflığın artırılması ilə bağlı yeni mexanizmlərin tətbiqi və digər tədbirlər görülməsi |
| 2.5. | Dövlət orqanları (qurumları) tərəfindən göstərilən elektron xidmətlərdən istifadənin səmərəliliyinin artırılması məqsədilə Vahid Giriş (Login) Sisteminin bütün dövlət informasiya ehtiyatlarında və sistemlərində tətbiqi ilə bağlı təkliflərin təqdim edilməsi | Nazirlər Kabineti | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, digər aidiyyəti dövlət qurumları | 2023—2024 | Vahid Giriş (Login) Sisteminin bütün dövlət informasiya ehtiyatlarında və sistemlərində tətbiqinin təmin edilməsi üçün mövcud vəziyyətin təhlili | Vahid Giriş (Login) Sisteminin bütün dövlət informasiya ehtiyatlarında və sistemlərində tətbiqi ilə bağlı təkliflərin hazırlanması | Vahid Giriş (Login) Sisteminin bütün dövlət informasiya ehtiyatlarında və sistemlərində tətbiqi ilə bağlı təkliflərin təqdim edilməsi |
| 2.6. | Yerli icra hakimiyyəti orqanları tərəfindən göstərilən elektron xidmətlərin sayının artırılması və səmərəliliyinin yüksəldilməsi məqsədilə həmin xidmətlərin Elektron Hökumət Portalına inteqrasiya olunmuş vahid rəqəmsal icra hakimiyyəti portalı üzərindən göstərilməsi | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası | Yerli icra hakimiyyəti orqanları, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2022—2026 | Yerli icra hakimiyyəti orqanlarının xidmətlərinin təhlil edilməsi və mövcud infrastrukturun qiymətləndirilməsi | Rəqəmsal icra hakimiyyəti portalının ilkin versiyasının hazırlanması və yoxlanılması | Rəqəmsal icra hakimiyyəti portalının tam həcmdə fəaliyyət göstərməsi |
| 2.7. | Yerli icra hakimiyyəti orqanları başçılarının aktlarının (normativ xarakterli aktlar istisna olmaqla) uçota alınması qaydalarının təkmilləşdirilməsi və həmin aktların elektron bazasının yaradılması | Nazirlər Kabineti | Yerli icra hakimiyyəti orqanları, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2022 | Yerli icra hakimiyyəti orqanları başçılarının aktlarının (normativ xarakterli aktlar istisna olmaqla) uçota alınması qaydalarının təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması | Təkliflərin qiymətləndirilməsi və müvafiq normativ hüquqi aktın layihəsinin hazırlanması | Yerli icra hakimiyyəti orqanları başçılarının aktlarının elektron bazasının yaradılması ilə bağlı tədbirlər görülməsi |
| 2.8. | Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması ilə bağlı fəaliyyətin sürətləndirilməsi | Nazirlər Kabineti | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2022—2026 | Daxili idarəetmə proseslərinin elektronlaşdırılması ilə bağlı mövcud vəziyyətin dövlət orqanları (qurumları) tərəfindən təhlili və təkliflərin təqdim edilməsi | Təqdim edilmiş təkliflər əsasında daxili idarəetmə proseslərinin elektronlaşdırılması ilə bağlı görüləcək tədbirlərin mərhələli planının müəyyən edilməsi və müvafiq işlərin yerinə yetirilməsinə başlanılması | Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırıl-ması üzrə planda nəzərdə tutulmuş tədbirlərin başa çatdırılması |
| 2.9. | Şəxsin yaşayış sahəsinə ehtiyacı olan qismində uçotunun aparılması qaydasının təsdiqi və uçota alınma ilə bağlı dövlət xidmətlərinin elektronlaşdırılması, habelə yerli icra hakimiyyəti orqanları tərəfindən yaşayış sahəsinə ehtiyacı olan şəxslərin və təklif edilən mənzil fondunun siyahılarının ictimaiyyət üçün açıq şəkildə öz rəsmi internet səhifəsində dərc edilməsi və aktuallığının daim təmin edilməsi | Nazirlər Kabineti | İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2022—2024 | Vətəndaşların yaşayış sahəsinə ehtiyacı olan qismində uçotunun aparılması qaydasının təsdiqi | Vətəndaşların yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınması ilə bağlı dövlət xidmətlərinin elektronlaşdırılması, yaşayış sahəsinə ehtiyacı olan şəxslərin, təklif edilən mənzil fondunun siyahılarının ictimaiyyət üçün açıq şəkildə rəsmi internet saytında dərc edilməsi üçün zəruri təşkilati tədbirlər görülməsi | Vətəndaşların yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınması ilə bağlı elektron xidmət göstərilməsi, yaşayış sahəsinə ehtiyacı olan şəxslərin və təklif edilən mənzil fondunun siyahılarının ictimaiyyət üçün açıq şəkildə yerli icra hakimiyyəti orqanlarının rəsmi internet səhifələrində dərcinin təmin edilməsi |

Ardı 9-cu səh.

# "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planı

Əvvəli 8-ci səh.

| Sıra № | Tədbirin adı | Əsas icraçı | Digər icraçılar | İcra müddəti | İlkin nəticə | Aralıq nəticə | Yekun nəticə |
|---|---|---|---|---|---|---|---|
| 2.10. | Özəl sektorda şəffaflığın artırılması məqsədilə həmin sahədə şəffaflıq üzrə beynəlxalq standartların tətbiqinin genişləndirilməsi üçün tədbirlər görülməsi | Nazirlər Kabineti | İqtisadiyyat Nazirliyi, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2022—2025 | Özəl sektorda müvafiq beynəlxalq standartların tətbiqinin genişləndirilməsi üçün tədbirlər görülməsi | Bu sahədə mövcud problemlərin öyrənilərək təhlil edilməsi və toplanılmış təkliflərin ümumiləşdirilməsi | Özəl sektorda şəffaflığın artırılması |
| 2.11. | İSO 37001 "Antikorrupsiya idarəetmə sistemləri" beynəlxalq standartının tətbiqinin nəzərdən keçirilməsi və bununla bağlı təkliflər verilməsi | Nazirlər Kabineti | İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, aidiyyəti dövlət orqanları (qurumları)<br>Tövsiyə edilir: Baş Prokurorluq | 2022—2026 | Qabaqcıl beynəlxalq təcrübənin, müvafiq standartın tətbiqi imkanlarının öyrənilməsi | Bu sahədə təkliflərin toplanılması və qiymətləndirilməsi | (İSO 37001) "Antikorrupsiya idarəetmə sistemləri"nin qurulmasının təşviqi |
| 2.12. | Dövlət satınalmalarında şəffaflığın artırılması məqsədilə bu sahədə nəzarətin gücləndirilməsi və yol verilən hüquqpozmalara qarşı mübarizə tədbirlərinin artırılması | İqtisadiyyat Nazirliyi<br>Tövsiyə edilir: Baş Prokurorluq | Aidiyyəti dövlət orqanları (qurumları) | 2022—2024 | Satınalma prosedurlarında nəzarət tədbirlərinin gücləndirilməsi | Hüquqpozmalara yol vermiş təşkilatlarla bağlı məsuliyyət tədbirlərinin görülməsi ilə bağlı məsələlərin qaldırılması | Dövlət satınalma prosedurlarında şəffaflığın təmin olunması və sağlam rəqabət mühitinin təmin edilməsi |
| 2.13. | Dövlət satınalmalarında iştirak edən şirkətlərə benefisiar mülkiyyətçinin açıqlanması öhdəliyinin müəyyən edilməsi ilə bağlı təkliflərin təqdim edilməsi | Nazirlər Kabineti | İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi, Maliyyə Monitorinqi Xidməti<br>Tövsiyə edilir: Baş Prokurorluq | 2022—2026 | Dövlət satınalmalarında iştirak edən hüquqi şəxslərin benefisiar mülkiyyətçiləri üzrə strateji təhlillərin aparılması | Hüquqi şəxslərin benefisiar mülkiyyətçilərinin müəyyən edilməsinə dair təkliflər hazırlanması | Dövlət satınalmalarında şəffaflığın təmin edilməsi |
| 2.14. | Dövlət satınalmaları üzrə maliyyə əməliyyatlarının monitorinqi mexanizminin yaradılması | Nazirlər Kabineti | İqtisadiyyat Nazirliyi, Maliyyə Monitorinqi Xidməti<br>Tövsiyə edilir: Baş Prokurorluq | 2022—2024 | Dövlət satınalmalarından əldə edilən vəsaitlərlə bağlı əməliyyatların müntəzəm monitorinqi sisteminin qurulması | Dövlət satınalmaları ilə bağlı əməliyyatların müntəzəm monitorinqi vasitəsilə pul vəsaitlərindən qeyri-qanuni məqsədlər üçün istifadə imkanlarının məhdudlaşdırılması | Dövlət satınalmaları sahəsində mövcud risklərə münasibətdə proaktiv mübarizə sisteminin formalaşdırılması |
| 2.15. | Satınalma prosedurlarından olan kotirovkalarla alınan mal və xidmətlərin bazar qiymətlərinə uyğun müəyyən edilməsinə nəzarətin həyata keçirilməsi prosedurlarının təkmilləşdirilməsi, tender komissiyasının fəaliyyət müstəqilliyinin gücləndirilməsi | İqtisadiyyat Nazirliyi | Aidiyyəti dövlət orqanları (qurumları) | 2022—2024 | Satınalma prosedurlarından olan kotirovkalarla alınan mal və xidmətlərin bazar qiymətlərinə uyğun müəyyən edilməsinə nəzarət tədbirlərinin gücləndirilməsi | Tender komissiyasının fəaliyyət müstəqilliyinin yüksəldilməsi | Satınalma prosedurlarında şəffaflığın artırılması |
| 2.16. | Bələdiyyə gəlir və xərclərinin vahid portalının yaradılması və bütün bələdiyyə xərclərinin portal vasitəsilə həyata keçirilməsi, portalın açıqlığının təmin olunması | Ədliyyə Nazirliyi | Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi<br>Tövsiyə edilir: bələdiyyələrin milli assosiasiyaları | 2022—2024 | Vahid portalın qanunvericilik bazasının hazırlanması | Bələdiyyə gəlir və xərclərinin vahid portalının yaradılmasına və fəaliyyətinin tənzimlənməsinə dair müvafiq aktın qəbul edilməsi | Bələdiyyə gəlir və xərclərinin vahid portalının hazırlanması, portalın açıqlığının təmin olunması |
| 2.17. | Dövlət orqanları (qurumları) tərəfindən korrupsiya risklərinin qiymətləndirilməsi və qarşısının alınması ilə bağlı illik hesabatların hazırlanması və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsi | Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılmış publik hüquqi şəxslər | | 2024—2026 | Dövlət orqanları (qurumları) tərəfindən korrupsiya risklərinin müəyyən edilməsi | Korrupsiya risklərinin qarşısının alınması üçün müvafiq tədbirlər görülməsi | Dövlət orqanları (qurumları) tərəfindən korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı hesabatların təqdim edilməsi |
| **Prioritet 3. Maliyyə şəffaflığının təmin edilməsi və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində tədbirlər** | | | | | | | |
| 3.1. | Nağdsız hesablaşmalar bazarının üstünlüyünün təmin edilməsi məqsədilə tədbirlər görülməsi | Nazirlər Kabineti | İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi<br>Tövsiyə edilir: Mərkəzi Bank | 2022—2024 | Nağdsız hesablaşmalar bazarının üstünlüyünün təmin edilməsi ilə bağlı təkliflərin toplanılması | Müvafiq təkliflər əsasında birgə iş planının qəbul edilməsi | Nağdsız hesablaşmalar bazarının üstünlüyünün təmin edilməsi məqsədilə iş planında nəzərdə tutulmuş normativ və praktiki tədbirlər görülməsi |
| 3.2. | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən mühasibat uçotu subyektləri tərəfindən Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilməli olan maliyyə hesabatlarının elektron formada verilməsini təmin edən "e-mühasibat" elektron portalının yaradılması | Nazirlər Kabineti | Maliyyə Nazirliyi və digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023—2025 | Elektron portalın yaradılması ilə bağlı ilkin təkliflərin müəyyən edilməsi | Maliyyə hesabatlarının elektron formada verilməsini təmin edən elektron portal ilə əlaqədar müvafiq sənədlərin və portalın layihəsinin hazırlanması | "e-mühasibat" elektron portalının yaradılmasının başa çatdırılması |
| 3.3. | Dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə səmərəli xərclənməsi ilə əlaqədar həyata keçirilən yoxlamaların, təftişlərin və digər nəzarət tədbirlərinin səmərəliliyinin, keyfiyyətinin daha da artırılması, dövlət büdcəsindən ayrılan vəsaitlərin xərclənməsində şəffaflığın yüksəldilməsi | Maliyyə Nazirliyi | Aidiyyəti dövlət orqanları (qurumları)<br>Tövsiyə edilir: Hesablama Palatası | 2022—2026 | Dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə səmərəli xərclənməsi ilə əlaqədar həyata keçirilən yoxlamaların, təftişlərin və digər nəzarət tədbirlərinin səmərəliliyinin artırılması ilə bağlı iş planının təsdiq edilməsi | Dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə səmərəli xərclənməsi ilə əlaqədar həyata keçirilən yoxlamaların, təftişlərin və digər nəzarət tədbirlərinin səmərəliliyinin artırılması | Dövlət büdcəsindən ayrılan vəsaitlərdən istifadə sahəsində şəffaflığın yüksəldilməsi ilə bağlı tədbirlər görülməsi |
| 3.4. | Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə FATF (Maliyyə Tədbirləri üzrə İşçi Qrup) tövsiyələrinin icrası istiqamətində tədbirlərin davam etdirilməsi | Nazirlər Kabineti | Maliyyə Monitorinqi Xidməti<br>Tövsiyə edilir: Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya | 2022—2026 | Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə FATF (Maliyyə Tədbirləri üzrə İşçi Qrup) tövsiyələrinin təhlili | FATF tövsiyələri əsasında normativ hüquqi akt layihələrinin hazırlanması | Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi |
| 3.5. | Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi cinayətlərinin aşkarlanması və istintaqının aparılmasında səmərəliliyin artırılması, eləcə də bu sahədə istintaq təcrübəsinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görülməsi | Tövsiyə edilir: Baş Prokurorluq, Ali Məhkəmə | İqtisadiyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti, Dövlət Gömrük Komitəsi | 2022—2024 | Müvafiq qanunvericiliyin təhlil edilməsi və təhlillərin nəticələri əsasında təkliflər hazırlanması | Müvafiq sahədə istintaq təcrübəsinin təkmilləşdirilməsi üzrə tədbirlər görülməsi | Müvafiq sahədə mübarizə tədbirləri üzrə səmərəliliyin artırılması |
| 3.6. | Vəzifəli şəxslər tərəfindən təqdim edilən maliyyə xarakterli məlumatlar haqqında bəyannamədəki məlumatların müvafiq məlumat bazalarındakı məlumatlarla uyğunluğunun yoxlanılmasına imkan verən elektron informasiya mübadiləsinin formalaşdırılması ilə bağlı təkliflərin təqdim edilməsi | Nazirlər Kabineti | Maliyyə Monitorinqi Xidməti<br>Tövsiyə edilir: Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, Baş Prokurorluq | 2022—2026 | Maliyyə xarakterli məlumatların toplanılması ilə bağlı vahid elektron informasiya sistemi tətbiq edilən ölkələrin təcrübəsinin təhlili | Elektron informasiya mübadiləsinin formalaşdırılması imkanlarının araşdırılması | Vəzifəli şəxslər tərəfindən təqdim edilən maliyyə xarakterli məlumatlar haqqında bəyannamədəki məlumatların müvafiq məlumat bazalarındakı məlumatlarla uyğunluğunun yoxlanılması imkanlarının müəyyən edilməsi |
| **Prioritet 4. Dövlət xidmətlərinin və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi sahəsində tədbirlər** | | | | | | | |
| 4.1. | Dövlət xidmətlərinin proaktiv, elektron formada göstərilməsi sahəsində fəaliyyətin genişləndirilməsinin təşkil edilməsi üçün tədbirlər görülməsi | Nazirlər Kabineti | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2022—2024 | Dövlət xidmətlərinin elektron formada göstərilməsi imkanlarının artırılması | "MyGov" portalının və dövlət orqanlarının (qurumlarının) digər sahəvi portallarının fəaliyyətinin effektiv təşkili məqsədilə təkmilləşdirilməsi | "MyGov" portalında və dövlət orqanlarının (qurumlarının) digər sahəvi portallarında xidmətlərin vətəndaşlara proaktiv formada göstərilməsinin təmin edilməsi |
| 4.2. | Dövlət xidmətlərinin elektronlaşdırılması və dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri arasında inteqrasiyanın təmin edilməsi üzrə işlərin sürətləndirilməsi, kağız əsaslı xidmətdən məlumat əsaslı xidmətə keçirilməsinin təşkil olunması ilə bağlı fəaliyyətin təmin edilməsi | Nazirlər Kabineti | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2022—2026 | Dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərin elektronlaşdırılması baxımından onların təhlil edilməsi və yeni elektron xidmətlərin yaradılması ilə bağlı təkliflər hazırlanması | Müvafiq sənədlərin, arayışların təqdim edilməsi əsasında göstərilən xidmətlər üzrə məlumatların aidiyyəti informasiya sistemlərinin inteqrasiyası yolu ilə təmin edilməsi məqsədilə normativ əsasların yaradılması üçün layihələrin hazırlanması | Vətəndaşlardan sənəd tələb edilmədən elektron formada göstərilən dövlət xidmətlərinin sayının artırılması |
| 4.3. | Şəffaflığın artırılması məqsədilə dövlət xidmətinin göstərilməsi üçün tələb olunan sənədlərin siyahısı, qanunvericiliklə müəyyən edilmiş ödənişlərin məbləği barədə məlumatların dövlət xidmətləri ilə bağlı vahid məlumat portalında və aidiyyəti dövlət orqanlarının (qurumlarının) internet səhifələrində yerləşdirilməsi | AR Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Aidiyyəti dövlət orqanları (qurumları) | 2022—2026 | Qanunvericiliklə müəyyən edilmiş ödənişlər, məbləğləri, dövlət xidmətinin göstərilməsi üçün tələb olunan sənədlərin siyahısının hazırlanması | Müvafiq siyahı üzrə məlumatların Dövlət Xidmətləri Portalında və aidiyyəti üzrə dövlət orqanlarının (qurumlarının) internet səhifələrində yerləşdirilməsi | Dövlət xidmətlərinin göstərilməsi sahəsində şəffaflığın daha da gücləndirilməsi |
| 4.4. | Ali təhsil və orta ixtisas təhsili müəssisələrində əlavə təhsilə qəbul qaydalarının təkmilləşdirilməsi, müvafiq qəbul prosesinin elektronlaşdırılması | Dövlət İmtahan Mərkəzi, Təhsil Nazirliyi | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2022—2024 | Ali təhsil və orta ixtisas təhsili müəssisələrində əlavə təhsilə qəbul prosesi ilə bağlı mövcud vəziyyətin təhlil edilməsi və qiymətləndirilməsi | Ali təhsil və orta ixtisas təhsili müəssisələrində əlavə təhsilə qəbul prosesində şəffaflığın təmin edilməsi məqsədilə müvafiq layihələrin hazırlanması, müvafiq qəbul prosesinin elektronlaşdırılması | Ali təhsil və orta ixtisas təhsili müəssisələrində əlavə təhsilə qəbul üzrə qaydaları təkmilləşdirərək bu sahədə qəbul edilən normativ hüquqi aktların icrasının təmin edilməsi |
| 4.5. | Dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərdən istifadənin genişləndirilməsi məqsədilə elektron imzanın əldə olunması imkanlarının sadələşdirilməsi | Nazirlər Kabineti | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2022—2026 | Dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərdən istifadənin genişləndirilməsi üçün təkliflərin hazırlanması | Elektron imzanın əldə olunması imkanlarının sadələşdirilməsi ilə bağlı təkliflərin qiymətləndirilməsi | Elektron imzanın əldə olunması imkanlarının sadələşdirilməsi üçün tədbirlər görülməsi |
| 4.6. | Dövlət xidmətlərinin mobil texnologiyalar vasitəsilə göstərilməsi imkanlarının genişləndirilməsi | Nazirlər Kabineti | Aidiyyəti dövlət orqanları (qurumları), Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 2022—2024 | Dövlət xidmətləri ilə bağlı mobil tətbiqlərin ilkin layihələrinin hazırlanması | Dövlət xidmətləri ilə bağlı mobil tətbiqlərin istifadəyə verilməsi | Dövlət xidmətləri ilə bağlı mobil tətbiqlərin fəaliyyəti nəticəsində dövlət xidmətlərinin çevikliyinin və səmərəliliyinin artırılması, vətəndaşlar üçün əlavə vaxt itkisinin, məsrəflərin qarşısının alınması |
| 4.7. | Müasir texnologiyaları tətbiq etməklə regionlarda əhalinin internet informasiya-kommunikasiya xidmətlərindən istifadə imkanlarının artırılması | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | | 2022—2024 | Regionlarda internet informasiya-kommunikasiya xidmətlərindən istifadə imkanlarının artırılması ilə bağlı mövcud vəziyyətin təhlili | Regionlarda internet informasiya kommunikasiya xidmətlərindən istifadə imkanlarının artırılması ilə bağlı təkliflər hazırlanması və qiymətləndirilməsi | Regionlarda internet informasiya-kommunikasiya xidmətlərinin əlçatanlığının təmin edilməsi üçün tədbirlər görülməsi |

Ardı 10-cu səh.

# "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planı

*Əvvəli 9-cu səh.*

| Sıra № | Tədbirin adı | Əsas icraçı | Digər icraçılar | İcra müddəti | İlkin nəticə | Aralıq nəticə | Yekun nəticə |
|---|---|---|---|---|---|---|---|
| 4.8. | Dövlət sərhədindən buraxılış məntəqələrində elektron köşk və digər innovativ vasitələrin tətbiqi, habelə aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən şəxslərə səyyar xidmət göstərilməsi imkanlarının genişləndirilməsi | Nazirlər Kabineti | Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Miqrasiya Xidməti, Xarici İşlər Nazirliyi | 2022—2024 | Dövlət sərhədindən buraxılış məntəqələrində elektron köşklərin və səyyar xidmətlərin sayının artırılması | Dövlət sərhədindən buraxılış məntəqələrində quraşdırılan elektron köşklərin funksionallığının artırılması | Dövlət xidmətlərinin əlçatanlığının təmin edilməsi |
| 4.9. | Dövlət orqanlarının (qurumlarının) göstərdikləri xidmətlərin keyfiyyətinin qiymətləndirilməsi məqsədilə rəsmi internet saytları və sosial şəbəkələr vasitəsilə mütəmadi elektron məmnunluq sorğularının keçirilməsi, bu prosesə vətəndaş cəmiyyəti institutlarının və ictimai şuraların cəlb edilməsi | Sosial Tədqiqatlar Mərkəzi | Aidiyyəti dövlət orqanları (qurumları) | 2022—2026 | Müvafiq elektron sorğular keçirilməsi nəzərdə tutulan sahələrin, belə elektron sorğuların keçirilməsi hədəflərinin müəyyən edilməsi | Müvafiq sahələr üzrə, rəsmi internet saytları və sosial şəbəkələr vasitəsilə mütəmadi elektron məmnunluq sorğularının keçirilməsi və nəticələrinin dərc edilməsi | Dövlət xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) işində şəffaflığın təmin edilməsi, onların göstərdikləri xidmətlərin keyfiyyətinin qiymətləndirilməsi, korrupsiya hallarına qarşı preventiv tədbirlər görülməsi |
| 4.10. | Çağrı mərkəzləri mövcud olmayan dövlət orqanlarında (qurumlarında) bu xidmətlərin təşkil edilməsi, mövcud çağrı mərkəzlərinin işinin təkmilləşdirilməsi və çağrı mərkəzləri tərəfindən göstərilən xidmətlərin ümumi tələblər əsasında həyata keçirilməsi ilə bağlı tədbirlər görülməsi | Nazirlər Kabineti | Aidiyyəti dövlət orqanları (qurumları) | 2022—2024 | Çağrı mərkəzləri mövcud olan dövlət orqanlarında (qurumlarında) çağrı mərkəzlərinin fəaliyyətində çatışmazlıqların müəyyən edilməsi, iş keyfiyyətinin artırılması və çatışmazlıqların aradan qaldırılması məqsədilə ilkin tədbirlər hazırlanması | Çağrı mərkəzlərinin işinin təkmilləşdirilməsi | Çağrı mərkəzləri tərəfindən vətəndaşların müraciətlərinə operativ qaydada baxılmanın, müraciətləri üzrə onlara tam və hərtərəfli izah verilməsinin təmin olunması |
| 4.11. | Haqqı ödənilən ictimai işlərə cəlbolunma ilə bağlı müraciətlərin qəbulu və baxılma prosedurlarının elektronlaşdırılması, sui-istifadə hallarını aradan qaldıracaq mexanizmlərin hazırlanması | Nazirlər Kabineti | Yerli icra hakimiyyəti orqanları, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br><br>Tövsiyə edilir: Baş Prokurorluq | 2022—2023 | Haqqı ödənilən ictimai işlərə cəlb olunmaqla bağlı müraciətlərin mövcud vəziyyətinin təhlili | Bu sahədə sui-istifadəyə imkan yaradan halları aradan qaldıra biləcək preventiv tədbirlərin müəyyən edilməsi, müraciətlərin tam elektronlaşdırılması | Haqqı ödənilən ictimai işlərə cəlb olunmaqla bağlı müraciətlər üzrə vətəndaş məmnunluğunun təmin edilməsi |
| 4.12. | Dövlət və bələdiyyə torpaq sahələrinin icarəyə və mülkiyyətə verilməsi, icarə müddətlərinin uzadılması, kateqoriyasının dəyişdirilməsi proseslərinin elektronlaşdırılması, bu sahədə sui-istifadə imkanlarının məhdudlaşdırılması ilə bağlı təkliflər hazırlanması | Nazirlər Kabineti | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Ədliyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2022—2023 | Dövlət və bələdiyyə torpaq sahələrinin icarəyə verilməsi, icarə müddətlərinin uzadılması, kateqoriyasının dəyişdirilməsi proseslərinin elektronlaşdırılması üçün müvafiq sahədə qanunvericiliyin və dövlət xidmətlərinin təşkili xüsusiyyətlərinin təhlil edilməsi | Dövlət və bələdiyyə torpaq sahələrinin icarəyə verilməsi, icarə müddətlərinin uzadılması, kateqoriyasının dəyişdirilməsi proseslərinin elektronlaşdırılması, habelə bu sahədə sui-istifadə imkanlarının məhdudlaşdırılması ilə bağlı təkliflər hazırlanması | Qeyd edilən proseslərin elektronlaşdırılması üzrə tədbirlər görülməsi, bu sahədə şəffaflığın təmin edilməsi |
| 4.13. | Kənd təsərrüfatı istehsal vasitələrinin satışına və lizinqinə tətbiq edilən güzəştlərin, güzəştli kreditlərin verilməsi ilə bağlı prosedurların elektronlaşdırılması işinin davam etdirilməsi və növbəlilik reyestrlərinin yaradılması | Nazirlər Kabineti | Kənd Təsərrüfatı Nazirliyi | 2022—2023 | Bu sahədə xarici ölkələrin təcrübəsinin öyrənilməsi və təhlil edilməsi | Lizinq və güzəştli kreditlərin verilməsi ilə bağlı elektron proqram təminatının hazırlanması | Kənd təsərrüfatı istehsal vasitələrinin satışı və lizinqi ilə bağlı prosedurlarda şəffaflığın təmin edilməsi |
| 4.14. | Bələdiyyə aktlarının bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana elektron formada təqdim olunması imkanlarının genişləndirilməsi | Ədliyyə Nazirliyi | Maliyyə Nazirliyi<br><br>Tövsiyə edilir:<br><br>bələdiyyələrin milli assosiasiyaları | 2022—2026 | Bələdiyyə aktlarının elektron formada təqdim olunması imkanlarının təhlil edilərək qiymətləndirilməsi | Bələdiyyə aktlarının elektron formada təqdim olunması qaydasının müəyyən edilməsi | Bələdiyyə aktlarının elektron formada təqdim olunması üçün tədbirlər görülməsi, bununla da bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəliliyinin artırılması və bələdiyyələrin fəaliyyətində şəffaflığın təmin edilməsi |
| | **Prioritet 5. Korrupsiyaya qarşı mübarizə sahəsində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın və bu sahədə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi** | | | | | | |
| 5.1. | Korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları ilə dövlət orqanları (qurumları) arasında əməkdaşlığın daha da gücləndirilməsi və birgə layihələrin həyata keçirilməsi | Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi | Dövlət orqanları (qurumları)<br><br>Tövsiyə edilir: Baş Prokurorluq, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya | 2022—2026 | Dövlət orqanlarında (qurumlarında) kollegial qərarların qəbulu prosedurlarında vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirakı üçün şərait yaradılması | Korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları ilə birgə maarifləndirici layihələrin həyata keçirilməsi | Vətəndaş cəmiyyəti institutları ilə dövlət orqanlarının (qurumlarının) sıx əməkdaşlığının qurulması |
| 5.2. | Dövlət orqanlarında (qurumlarında) ictimai iştirakçılığın tətbiqinin genişləndirilməsi və ictimai şuraların fəaliyyətinin səmərəliliyinin artırılması | Mərkəzi və yerli icra hakimiyyəti orqanları | | 2022—2026 | Dövlət orqanlarında (qurumlarında) ictimai iştirakçılığın tətbiqinin genişləndirilməsi ilə bağlı təhlillər aparılması, ictimai şuraların mövcud olmadığı qurumlarda belə şuraların yaradılması məsələsinin nəzərdən keçirilməsi | Dövlət orqanlarında (qurumlarında) ictimai iştirakçılığın tətbiqinin genişləndirilməsi ilə bağlı təkliflər hazırlanması | İctimai şuraların fəaliyyətinin səmərəliliyinin artırılmasının təmin edilməsi üçün tədbirlər görülməsi |
| 5.3. | Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP), Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası (IAACA), Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA), Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən digər beynəlxalq təşkilatlarla əməkdaşlığın daha da genişləndirilməsi, qabaqcıl antikorrupsiya təcrübələrinin öyrənilməsi ilə bağlı tədbirlərin davam etdirilməsi | Nazirlər Kabineti | Aidiyyəti dövlət orqanları (qurumları)<br><br>Tövsiyə edilir:<br><br>Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, Baş Prokurorluq | 2022—2026 | Korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların tövsiyələrinin təhlil edilməsi | Tövsiyələrin icra olunması ilə bağlı təkliflər hazırlanması | Korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi ilə bağlı tədbirlər görülməsi |
| 5.4. | Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) tövsiyələrinin icrası istiqamətində tədbirlərin davam etdirilməsi | Nazirlər Kabineti | Aidiyyəti dövlət orqanları (qurumları)<br><br>Tövsiyə edilir:<br><br>Baş Prokurorluq, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya | 2022—2026 | Qeyd edilən beynəlxalq təşkilatlar tərəfindən verilmiş tövsiyələrin dövri olaraq təhlil edilməsi | Tövsiyələrin icra olunması üçün təkliflər hazırlanması | Tövsiyələrin icrası ilə bağlı tədbirlər görülməsi |
| | **Prioritet 6. Korrupsiyaya qarşı mübarizə üzrə maarifləndirmə** | | | | | | |
| 6.1. | Ölkə üzrə əhatəli antikorrupsiya tədris modulunun hazırlanması | Təhsil Nazirliyi | Tövsiyə edilir: Baş Prokurorluq,<br><br>Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya | 2022 | Tədris modulunun hazırlanması üçün işçi qrupun təsis edilməsi | Xarici ölkələrin bu sahədə təcrübəsinin öyrənilməsi və yerli təhsil proqramına uyğunlaşdırılması | Antikorrupsiya tədris modulunun hazırlanması |
| 6.2. | Dövlət və bələdiyyə orqanlarının, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərin və büdcə təşkilatlarının işçilərində, o cümlədən tibb və təhsil işçilərində antikorrupsiya davranış modelinin formalaşdırılması ilə bağlı işlərin gücləndirilməsi, cəmiyyətdə məlumatlılığın artırılmasına yönəlmiş maarifləndirmə, tədris və digər tədbirlərin səmərəliliyinin yüksəldilməsi məqsədilə tədbirlər görülməsi | Nazirlər Kabineti | Dövlət orqanları (qurumları)<br><br>Tövsiyə edilir:<br><br>Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya,<br><br>bələdiyyələrin milli assosiasiyaları | 2022—2026 | Antikorrupsiya davranış modelinin formalaşdırılması məqsədilə sahəvi korrupsiya riskləri nəzərə alınmaqla, müvafiq qurumlar üzrə həyata keçiriləcək tədbirlərin müəyyən edilməsi | İşçilərdə məlumatlılığın artırılmasına yönəlmiş maarifləndirmə, tədris və digər tədbirlərin keçirilməsi | Cəmiyyətdə korrupsiyaya qarşı dözümsüzlüyün gücləndirilməsi ilə bağlı tədbirlər görülməsi |
| 6.3. | Sahibkarlıq sahəsində yoxlamaların aparılması ilə bağlı sui-istifadə və korrupsiya hallarının qarşısının alınması məqsədilə sahibkarlıq subyektləri üçün bu sahədə məlumatlılığın artırılmasına yönəlmiş maarifləndirici tədbirlərin keçirilməsi | Ədliyyə Nazirliyi | İqtisadiyyat Nazirliyi | 2022—2026 | Sahibkarlıq subyektlərində aparılan yoxlamaların nəticələrinin təhlili | Sahibkarlıq subyektləri üçün korrupsiya hallarının qarşısının alınması ilə bağlı təlim proqramlarının hazırlanması | Sahibkarlıq subyektləri üçün məlumatlılığın artırılmasına yönəlmiş maarifləndirici tədbirlərin keçirilməsi |
| 6.4. | Dövlət qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı təlim kurslarının təşkili | Dövlət İmtahan Mərkəzi | Tövsiyə edilir:<br><br>Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya | 2022—2026 | Dövlət qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə və və etik davranış qaydaları ilə bağlı təlimlərin keçirilməsi məqsədilə iş planının təsdiq edilməsi | Mərhələli şəkildə dövlət qulluqçularının korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı təlimlərə cəlb edilməsi | Dövlət qulluqçularının korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı məlumatlılığının artırılması |
| 6.5. | Hərbi qulluqçular üçün korrupsiyaya qarşı mübarizə sahəsində tədris kurslarının, treninqlərin və seminarların təşkili | Müdafiə Nazirliyi | Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti<br><br>Tövsiyə edilir: Baş Prokurorluq | 2022—2026 | Hərbi qulluqçular üçün korrupsiyaya qarşı mübarizə sahəsində tədris kurslarının təşkil olunması üçün iş planlarının təsdiq edilməsi | Hərbi qulluqçular üçün korrupsiyaya qarşı mübarizə sahəsində tədris proqramlarının hazırlanması | Hərbi qulluqçular üçün korrupsiyaya qarşı mübarizə sahəsində tədris kurslarının, treninqlərin və seminarların mütəmadi təşkil edilməsi |
| 6.6. | Bələdiyyə üzvləri və qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə sahəsində tədris kurslarının, treninqlərin və seminarların keçirilməsi | Ədliyyə Nazirliyi | Tövsiyə edilir:<br><br>bələdiyyələrin milli assosiasiyaları | 2022—2026 | Bələdiyyə üzvləri və qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə sahəsində təlimlərin keçirilməsi məqsədilə iş planının təsdiq edilməsi | Mərhələli şəkildə bələdiyyə üzvlərinin və qulluqçularının korrupsiyaya qarşı mübarizə sahəsində treninqlərə cəlb edilməsi | Bələdiyyə üzvlərinin və qulluqçularının korrupsiyaya qarşı mübarizə ilə bağlı məlumatlılığının artırılması |
| 6.7. | Regionlarda əhalinin rəqəmsallaşma istiqamətində bilik və bacarıqlarının artırılması ilə bağlı maarifləndirmə tədbirlərinin keçirilməsi | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Aidiyyəti dövlət orqanları (qurumları) | 2022—2024 | Regionlarda əhalinin rəqəmsallaşma istiqamətində bilik və bacarıqlarının qiymətləndirilməsi üçün sorğular keçirilməsi | Maarifləndirmə istiqamətində materialların hazırlanması | Maarifləndirmə materiallarına uyğun olaraq təlim və digər maarifləndirmə tədbirlərinin həyata keçirilməsi |
| 6.8. | Özəl məhkəmə ekspertizası institutunun fəaliyyətində şəffaflığın təmin olunması məqsədilə özəl məhkəmə ekspertləri üçün mütəmadi tədris kurslarının və treninqlərin təşkil edilməsi | Ədliyyə Nazirliyi | | 2022—2026 | Özəl məhkəmə ekspertizası institutunun fəaliyyətində şəffaflığın təmin olunması məqsədilə özəl məhkəmə ekspertləri üçün mütəmadi tədris kurslarının təşkil edilməsi ilə bağlı iş planının təsdiq olunması | Özəl məhkəmə ekspertləri üçün mütəmadi tədris kurslarının təşkil edilməsi | Özəl məhkəmə ekspertizası institutunun fəaliyyətində şəffaflığın təmin olunması |
| 6.9. | Kütləvi informasiya vasitələrindən, o cümlədən dövlət orqanlarının (qurumlarının) və bələdiyyələrin öz internet və sosial şəbəkə səhifələrindən istifadə etməklə korrupsiyaya qarşı mübarizə tədbirləri ilə əlaqədar xüsusi buraxılışların təşkili, ictimai müzakirələrin, videokonfransların keçirilməsi təcrübəsinin genişləndirilməsi, bu sahədə müxtəlif videoçarxların, bukletlərin hazırlanması və onların əhali arasında geniş yayılmasının təşviq edilməsi | Nazirlər Kabineti | Dövlət orqanları (qurumları)<br><br>Tövsiyə edilir:<br><br>Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, bələdiyyələrin milli assosiasiyaları | 2022—2026 | Korrupsiyaya qarşı mübarizə tədbirləri ilə əlaqədar xüsusi buraxılışların təşkili, ictimai müzakirələrin, videokonfransların keçirilməsi | Müvafiq tədbirlərin əhali arasında geniş yayılmasının təşviq edilməsi | Korrupsiyaya qarşı mübarizə ilə bağlı ictimaiyyətin məlumatlılığının artırılması |
| 6.10. | Ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilmiş nailiyyətlər barədə beynəlxalq ictimaiyyətin davamlı və sistemli şəkildə məlumatlandırılması, ASAN, DOST və digər nümunəvi dövlət xidmətlərinin nailiyyətlərinin müsbət milli təcrübə qismində beynəlxalq səviyyədə təşviq olunması | Xarici İşlər Nazirliyi<br><br>Tövsiyə edilir:<br><br>Baş Prokurorluq | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər aidiyyəti dövlət qurumları | 2022—2026 | Ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilmiş nailiyyətlərin mütəmadi ümumiləşdirilməsi | Nümunəvi dövlət xidmətlərinin nailiyyətlərinin müsbət milli təcrübə qismində beynəlxalq səviyyədə təşviq olunması üçün tədbirlərin təşkil edilməsi | Korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilmiş nailiyyətlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılması |

# Azərbaycanlı alimlərin monoqrafiyası ABŞ-da nəşr edilib

BDU-nun nəzdində Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun direktoru akademik Fikrət Əliyev və həmin institutun baş elmi işçisi, riyaziyyat elmləri doktoru, dosent Nailə Vəliyevanın həmmüəlif olduqları 412 səhifəlik monoqrafiyası "Algorithms of the synthesis of optimal regulators" (Aliev F.A., Larin V.B., Velieva N.I.) ABŞ-da "Outskirts Press" nəşriyyatında çap olunub.




AZƏRTAC xəbər verir ki, monoqrafiyada cəbri, dövri və birtərəfli Rikkati, Lyapunov və Silvester matris tənliklərinin həlli üsulları təqdim olunub. Həmçinin ümumiləşdirilmiş Silvester tənlikləri, matris polinomların kəsilməz və diskret halda faktorizasiyası alqoritmləri verilib. Eyni zamanda optimal tənzimləyicilərin sintezi məsələsi faza koordinatlarının bir hissəsi ölçülən halda da araşdırılıb. Məlum parametrləşdirmə (Youla-Jabr-Bongiorno (1976) və Desoer-Liu-Murrau-Saeks (1980) alqoritmlərinin monoqrafiyada təqdim olunan ümumi parametrləşdirmə alqoritmlərinin xüsusi halı olduğu göstərilib. Bu tənliklərdən optimal idarəedicilərin sintezi problemlərində istifadə olunur.

Alınan nəticələrin pilotsuz uçuş aparatlarının idarə edilməsində, neftin qazlift üsulu ilə çıxarılmasında və müxtəlif problemlərin həllində tətbiq olunması göstərilib. Monoqrafiyada alınan nəticələr riyazi dəqiqliklə işlənib, hər bir bölmə çoxsaylı misallarla MATLAB riyazi proqramlar paketində nümayiş etdirilib.

Monoqrafiyadan tələbələr və tətbiqi riyaziyyat və idarəetmə sistemləri nəzəriyyəsi ilə məşğul olan mütəxəssislər istifadə edə bilərlər.

# Ümumdünya Vərəmlə Mübarizə Gününə həsr olunmuş beynəlxalq konfrans keçirilib

Aprelin 4-də Azərbaycan Vərəm Əleyhinə QHT Koalisiyasının aparıcı vətəndaş cəmiyyəti təşkilatı olan "Sağlamlığa Xidmət" İctimai Birliyi Yaponiyanın "Fujifilm" və "Araş" Medikal şirkətlərinin baş sponsorluğu, Yaponiyanın Azərbaycandakı səfirliyinin və "Stop vərəm" Tərəfdaşlığının dəstəyi ilə Ümumdünya Vərəmlə Mübarizə Gününə həsr olunmuş beynəlxalq konfrans keçirib.









AZƏRTAC xəbər verir ki, konfrans Yaponiyanın Azərbaycandakı səfirliyinin açılmasının 30 illiyi ilə əlaqədar elan edilmiş "Azərbaycan-Yaponiya dostluq ili - 2022" çərçivəsində Azərbaycanda silsilə tədbirlər sırasına daxildir.

Onun məqsədlərindən biri də Yaponiya ilə Azərbaycan arasında vərəm/COVID-19-a cavab tədbirlərinə yönəlmiş əməkdaşlıq müstəvisində, Yaponiyanın ən yeni vərəm diaqnostik texnologiyalarının vasitəsilə əlçatmaz ərazilərdə yaşayan insanlar üçün vərəmin aşkarlanmasını mümkün edən və onların sayəsində əldə olunan uğurları işıqlandırmaqdan ibarətdir.

Konfransda vərəmlə mübarizə üzrə yerli və beynəlxalq ekspertlər, dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələri, parlament üzvləri, nazirlik və digər qurumların nümayəndələri iştirak ediblər. "Stop vərəm" Tərəfdaşlığının icraçı direktoru Luçika Ditiu, Türkiyə, Gürcüstan və İsveçrədən dəvət edilmiş vərəmlə mübarizə qurumlarının nümayəndələri də konfransın iştirakçıları arasında olublar.

Açılış mərasimində Milli Məclisin Səhiyyə komitəsinin üzvləri Sədaqət Vəliyeva, Soltan Məmmədov, Məlahət İbrahimqızı, Kamilə Əliyeva, səhiyyə nazirinin müavini Nadir Zeynalov, ÜST-ün ölkəmizdəki nümayəndəsi Hade Harmançı, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva, Ədliyyə Nazirliyi Tibbi Baş İdarəsinin rəisi Rəfail Mehdiyev, Yaponiyanın Azərbaycandakı səfiri Cuniçi Vada, "Stop vərəm" Partnyorluğunun icraçı direktoru Lucica Ditiu və başqaları çıxış ediblər.

Konfransda Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru professor Həqiqət Qədirova, ÜST-ün İctimai səhiyyə üzrə mütəxəssisi Elturan İsmayılov, Ölkə Əlaqələndirmə Komissiyasının Maliyyə və proqram üzrə meneceri Aytən Hüseynova, Azərbaycan Vərəm Əleyhinə QHT Koalisiyasının rəhbəri, "Sağlamlığa Xidmət" QHT-nin direktoru Elçin Muxtarlı təqdimatla çıxış ediblər.

Qeyd olunub ki, hər il dünyada 10 milyon nəfər vərəm xəstəliyinə yoluxur və hər dəqiqədə 3 nəfər onun qurbanına çevrilir. Təəssüf ki, son illərdə vərəm xəstəliyindən ölənlərin sayında artım müşahidə olunur. Belə ki, ötən il 1,5 milyon nəfər vərəm xəstəsi vəfat edib. Azərbaycanda vərəmə yoluxanlar arasında prioritet 18-29 yaşında olanlara məxsusdur. Vərəm xəstələrinin 66 faizini kişilər, 33 faizini isə qadınlar təşkil edirlər. Keçən il ümumilikdə risk qrupuna aid olan 1439 nəfərin müayinəsi aparılıb. Son illər vərəmlə mübarizədə vəziyyət bu sahədə də onun qarşısını almaq üçün hamılıqla mübarizənin aparılmasını zəruri edir.

Azərbaycan QHT Koalisiyasının vərəmlə mübarizə sahəsindəki fəaliyyət və mübarizəsini əks etdirən videoçarxlar nümayiş etdirilib.

# Özbəkistanın UzA Agentliyi AZƏRTAC ilə xəbər mübadiləsini, texniki və kadr sahəsində təmasları artırmaq istəyir

AZƏRTAC və Özbəkistanın Milli İnformasiya Agentliyi - UzA əməkdaşlığı genişləndirməklə bağlı razılığa gəliblər.



İkitərəfli əlaqələrin gücləndirilməsi barədə məsələlər AZƏRTAC-ın İdarə heyətinin sədri Aslan Aslanovla UzA-nın baş direktorunun birinci müavini Sobir Şükürovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə müzakirə olunub.

Azərbaycan ilə Özbəkistan arasında əlaqələrin dərin tarixi köklərə malik olduğunu qeyd edən İdarə heyətinin sədri deyib: "Qardaş Özbəkistan 44 günlük Vətən müharibəsində də Azərbaycanın yanında oldu. Ölkələrimiz və xalqlarımız bir-birini hər zaman dəstəkləyib və əminəm ki, bu münasibətlər daha da güclənəcək. AZƏRTAC və UzA arasında əməkdaşlığın da buna adekvat olaraq genişləndirilməsi vacib və vaxtı çatmış məsələdir".

UzA Xəbər Agentliyinin baş direktorunun birinci müavini Sobir Şükürov bu görüşün ikitərəfli əlaqələrin inkişafı üçün yaxşı əsas olacağına əminliyini ifadə edib. "Hər iki agentliyin 100-dən artıq yaşı var. Bu, həm də əlaqələrimizin dərin tarixi köklərə söykəndiyini göstərir. Biz AZƏRTAC ilə xəbər mübadiləsini, texniki, kadr və digər sahələrdə qarşılıqlı təmasları artırmaq istəyirik", - deyə o bildirib.

AZƏRTAC-ın beynəlxalq təşkilatlardakı fəaliyyəti barədə qonaqlara məlumat verilib. Qeyd olunub ki, AZƏRTAC hazırda Reuters, Press Association (Böyük Britaniya), France Press (Fransa), TASS (Rusiya), EFE (İspaniya) agentliklərinin də daxil olduğu 13 media qurumundan ibarət olan Dünya Xəbər Agentlikləri Şurasının üzvü, OANA-nın vitse-prezidentidir, İslam Əməkdaşlıq Təşkilatı ölkələrinin Milli Xəbər Agentlikləri Təşkilatının Şurasında təmsil olunur.

Danışıqlar əsnasında AZƏRTAC ilə UzA arasında beynəlxalq informasiya təşkilatları səviyyəsində qarşılıqlı dəstək, əməkdaşlıq müqaviləsinin imzalanması və birgə layihələrin həyata keçirilməsi məsələləri müzakirə olunub.

Özbəkistanlı qonaqlar həmçinin AZƏRTAC-ın yeni binasını gəzib, burada yaradılan müasir iş şəraiti ilə maraqlanıblar.

Görüşdə UzA Agentliyinin baş redaktoru Qayrat Xonnazarov, Özbəkistan Nazirlər Kabinetinin Turizm, Mədəniyyət və Kütləvi Kommunikasiyalar Katibliyinin aparıcı mütəxəssisi Şahobiddin Musayev və Özbəkistanın Azərbaycandakı səfirliyinin əməkdaşı Bəxraim Qaipov iştirak ediblər.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 mart 2022-ci il tarixli 140 s nömrəli sərəncamı ilə təsdiq edilmiş plana əsasən, Azərbaycan Dövlət Pedaqoji Universiteti 2022-ci il üçün aşağıdakı ixtisaslara doktorant və dissertant hazırlığı üzrə *qəbul elan edir*

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | | Elmlər doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura | Doktorantura | | | Dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla* | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla* |
| | | | əyani | qiyabi | | | əyani | qiyabi | |
| 1211.01 | Diferensial tənliklər | 1 | 1 | | | | | | 1 |
| 2211.01 | Bərk cisim fizikası | | | | | | | | 1 |
| 2220.01 | Yarımkeçiricilər fizikası | 1 | 1 | | | | | | |
| 2301.01 | Analitik kimya | | | | 1 | | | | |
| 2306.01 | Üzvi kimya | | | | 1 | | | | |
| 2411.01 | İnsan və heyvan fiziologiyası | 1 | | 1 | | | | | |
| 2417.01 | Botanika | 1 | | 1 | | | | | |
| 5401,01 | İqtisadi coğrafiya | | | | | | | | 1 |
| 5503.02 | Vətən tarixi | 1 | | 1 | | | | | |
| 5706.01 | Azərbaycan dili | 1 | 1 | | | | | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | | 1 | | | | | 1 |
| 5719,01 | Folklorşünaslıq | 1 | 1 | | | | | | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Riyaziyyatın tədrisi metodikası) | | | | | | | | 1 |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Kimyanın tədrisi metodikası) | 1 | | 1 | | | | | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (İngilis dilinin tədrisi metodikası) | | | | | | | | 1 |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Azərbaycan dilinin tədrisi metodikası) | | | | | | | | 1 |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Ədəbiyyatın tədrisi metodikası) | 1 | | 1 | | | | | 1 |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Biologiyanın tədrisi metodikası) | | | | | | | | 1 |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (İnformatikanın tədrisi metodikası) | 1 | 1 | | | | | | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Tarixin tədrisi metodikası) | 1 | | 1 | | | | | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Fizikanın tədrisi metodikası) | | | | 1 | | | | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Coğrafiyanın tədrisi metodikası) | 1 | 1 | | | | | | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Texnologiyanın tədrisi metodikası) | 1 | | 1 | | | | | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Fiziki tərbiyənin tədrisi metodikası) | 1 | | 1 | | | | | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Musiqinin tədrisi metodikası) | 1 | 1 | | | | | | |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | 2 | 1 | 1 | 1 | | | | 1 |
| 5803.01 | Müəllim hazırlığı və fəaliyyəti | 1 | 1 | | | | | | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 1 | | 1 | 1 | | | | 1 |
| 5805,01 | Korreksiya pedaqogikası | 1 | | 1 | | | | | |
| 6104,01 | Pedaqoji psixologiya | 1 | | 1 | | | | | |
| 6107.01 | Ümumi psixologiya | 1 | | 1 | | | | | |
| | Cəmi: | 23 | 9 | 14 | 5 | | | | 11 |

**Qeyd:** Fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar. Dissertantlıq yolu ilə "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq hüququna müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan ali təhsil müəssisələrinin, elmi və digər təşkilatların elmi və elmi-pedaqoji kadrları malikdirlər. Dissertant təhkim olunmaq istəyən şəxslər azı iki il elmi və ya elmi-pedaqoji iş stajına malik olmalıdırlar. Dissertant hazırlığı üzrə adambaşına maliyyələşmə nəzərdə tutulmadığı üçün dissertanturada hazırlıq ali təhsil müəssisələrinin öz əməkdaşları üçün həmin müəssisənin hesabına, digər şəxslər üçün isə ödənişli olacaq. Elmlər doktoru proqramı üzrə dissertanturaya daxil olmaq istəyənlərin seçdikləri ixtisasa uyğun işləmələri tələb olunur. Fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə doktorantura və dissertanturaya sənəd qəbulu üçün son tarix - 5 may 2022-ci il. Fəlsəfə doktoru proqramı üzrə xarici dil imtahanını müvəffəqiyyətlə vermiş iddiaçıların fəlsəfə fənni üzrə imtahanı 1, 2, 5 sentyabr, İxtisas imtahanı 12, 13 sentyabr 2022-ci il tarixlərdə keçiriləcək. Fəlsəfə və elmlər doktoru proqramı üzrə doktorantura və dissertanturaya sənəd qəbulu "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"(TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcək. Doktorantura və dissertanturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Təhsil Nazirliyinin **https://portal.edu.az** saytına daxil olmalı, "Ali və orta ixtisas təhsil müəssisələrinin tələbə qəbulu və qeydiyyatı" xidmətini seçərək, təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər.

**Qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**

- Rektorun adına ərizə;
-Kadrların şəxsi qeydiyyat vərəqi;
-Tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 ölçüdə);
- İş yerindən xasiyyətnamə;
- İş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- Çap olunmuş elmi əsərlərin siyahısı (və ya fəlsəfə doktoru proqramı üzrə seçilmiş ixtisas üzrə referat);
- Ali təhsil müəssisəsini bitirmək haqqında diplomun (bakalavriat və magistratura təhsil səviyyələri üzrə diplomların surətləri və diploma əlavə) müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);
-"Fəlsəfə doktoru" və ya "Elmlər namizədi" elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (Elmlər doktoru proqramı üzrə);
- Şəxsiyyəti təsdiq edən sənədin surəti

# Bəzi yerlərdə duman olacaq

**Azərbaycanda aprelin 5-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Axşam bəzi yerlərdə duman olacaq. Arabir güclənən şimal-qərb küləyi əsəcək, səhər mülayim şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 7-10°, gündüz 15-18° isti, Bakıda gecə 8-10°, gündüz 14-16° isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 17-22° isti, dağlarda gecə 2-6°, gündüz 9-14° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 6-11°, gündüz 20-25° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2-6°, gündüz 9-14° isti olacağı ehtimal edilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2-6° isti, dağlarda 2°-dək şaxta, gündüz 9-14° isti olacağı ehtimalı var.




Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 17-22° isti olacağı proqnozlaşdırılır.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 5-9°, gündüz 15-20° isti, dağlarda gecə 0-5°, gündüz 5-10° isti olacağı bildirilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 17-22° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər dağlarda duman olacaq. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-12°, gündüz 17-22° isti, dağlarda gecə 8-11°, gündüz 16-18° isti olacağı gözlənilir.

# Azərbaycanla İordaniya arasında mülki aviasiya sahəsində əməkdaşlıq perspektivləri müzakirə edilib

"Azərbaycan Hava Yolları"nın Mətbuat xidmətinin verdiyi məlumata görə, aprelin 4-də AZAL prezidenti Cahangir Əsgərov İordaniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Sami Asem Qoşeh ilə görüşüb.

Görüşdə Azərbaycanla İordaniya arasında mülki aviasiya sahəsində qarşılıqlı əməkdaşlığın gündəliyinə dair fikir mübadiləsi aparılıb, tərəflər, həmçinin COVID-19 pandemiyası ilə mübarizədə həyata keçirilən tədbirlərin yüksək səmərəliliyini qeyd ediblər.

Görüş zamanı tərəflər iki ölkə arasında hava əlaqəsinin başlanması imkanlarını müzakirə ediblər.

Cahangir Əsgərov qeyd edib ki, Bakı ilə Amman arasında uçuşların yerinə yetirilməsinə 2020-ci ilin mayın sonunda başlanılmalı idi və bu barədə müvafiq razılıq 2019-cu ilin dekabr ayında əldə edilmişdir. Lakin COVID-19 pandemiyasının yayılması bu planların həyata keçirilməsinə mane olmuşdur.

Onun sözlərinə görə, birbaşa reyslərin açılması ölkələr arasında dostluq əlaqələrini gücləndirməklə yanaşı, Azərbaycan və İordaniya sahibkarları üçün bütün sahələrdə, o cümlədən ticarət və turizm sahəsində yeni imkanlar yaradacaq.

İordaniya səfiri Sami Asem Qoşeh yeni reysin hər iki ölkə vətəndaşları üçün böyük maraq doğuracağına və ölkələr arasında mehriban qonşuluq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini bildirib.

# Azərbaycan COVID-19-a tədricən qalib gəlir

Dünyada iki ildir ki, davam edən COVID-19 pandemiyası müddətində virusa yoluxma saylarında zaman-zaman səngimə, yaxud artım halları qeydə alınıb.




Bir neçə ay əvvəl vəziyyətin stabilləşməsi ilə əlaqədar bəzi ölkələrdə karantin qaydaları yumşaldılsa da, son həftələrdə, xüsusən Çində xəstəliyə yoluxma sayının artması tədbirlərin sərtləşdirilməsinə gətirib çıxarıb.

Hazırda Azərbaycanda COVID 19-la bağlı vəziyyət qənaətbəxşdir. Son statistikaya əsasən, koronavirusa yoluxma olsa da, ölüm faktı qeydə alınmayıb. Yoluxma sayının azalması, sağalanların sayının artması, ölümün isə qeydə alınmaması koronavirusla uğurlu mübarizə tədbirlərinin təzahürüdür.

Xatırladaq ki, ölkəmizdə COVID-19 infeksiyasına qarşı mübarizə məqsədilə əhalinin peyvənd olunması prosesinin yüksək keyfiyyətlə təşkil edilməsi üçün ilk gündən bütün zəruri tədbirlər görüldü. Xəstəxanalarda vaksinasiya üçün ayrılmış peyvənd məntəqələrində qeydiyyat, gözləmə və peyvənd otaqları yaradıldı. Prosesin nizamlı təşkil olunması məqsədilə vətəndaşlar randevu.its.gov.az internet ünvanına daxil olub qeydiyyatdan keçməklə istədikləri tibb məntəqəsini və peyvənd növünü seçərək vaksinasiya olunmaq üçün təyin edilmiş tarixdə məntəqəyə yaxınlaşdılar. Fiziki məhdudiyyəti olan və ucqar ərazilərdə yaşayan vətəndaşlara isə səyyar xidmətlər təşkil olunaraq evlərində vaksinasiya işi həyata keçirildi. Hazırda da peyvəndlənmə davam etdirilir.

Azərbaycanda pandemiya ilə bağlı vəziyyətin müsbətə doğru getməsi, Omikron ştamında yoluxduruculuğun qısa müddət çəkməsi ilə əlaqədar xəstəliyə yoluxanların karantin müddəti 14 gündən 7 günə endirilib. Bu da virusa tədricən qalib gəldiyimizin göstəricisidir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# ÜST yenə xəbərdarlıq edir

## "Omikron"un yeni alt növləri qapanmalara səbəb ola bilər

Qlobal pandemiyanın yavaş-yavaş aradan qalxması, karantin qaydalarının ləğvi koronavirusdan öncəki həyata dönməyin sevincini yenicə bütün dünyaya yaşatmağa başlamışdı. Yeni yumşaldılmalar, demək olar ki, hər ötən həftə bütün sahələrdə tətbiq edilirdi.

Hazırkı gündəmi isə 2019-cu ildən bəri bizimlə birgə addımlayan virusun son variantı "Omikron" əhatə edir. Verilən məlumatlara əsasən, yeni növün daha yoluxucu olduğu, lakin ölüm faizinin aşağı düşdüyü, həmçinin yoluxanların bu xəstəliyi ənənəvi qripə yaxın, digər respirator virus infeksiyaları kimi keçirdiyi məlumdur. Lakin Ümumdünya Səhiyyə Təşkilatının son çağırışında yoluxmalarla bağlı vəziyyətin qısa zamanda dəyişəcəyi vurğulanıb.

### Dünyada Uhandan sonra ikinci ən böyük qapanma

Son günlərdə Çində və İngiltərədə "Omikron" ştamının yeni alt növləri müəyyən edilib. Qısa müddətdə azalan yoluxma rəqəmlərinin ardından Çində son iki ilin ən irimiqyaslı qapanması tətbiq edilib. Ştamın yeni alt növləri olan BA.1, BA.2 və BA.1.1 Şanxayda 2 mərhələli qapanmaların həyata keçirilməsinə səbəb olub.

25 milyona yaxın əhalisi olan Şanxay Çinin ən böyük şəhəridir. Miqyasın həddindən artıq geniş vüsət alacağı ehtimalına qarşı rəsmilər şəhərin əvvəlcə şərq yarısını bağlamağı və orada yaşayan hər kəsi testdən keçirməyi, daha sonra eyni tədbirləri şəhərin qərb tərəfində tətbiq etməyi planlaşdırıblar.

Tədbirlər çərçivəsində müvafiq ərazilərdə martın 28-dən aprelin 1-nə və aprelin 1-dən 5-ə qədər olan müddətdə sakinlərin evlərini tərk etməsinə icazə verilməyib, şəhərdaxili ictimai nəqliyyat vasitələrinin hərəkəti dayandırılıb və pandemiya qaydalarına tabe olmayanların qanunlara uyğun şəkildə cəzalandırılacaqları bildirilib.

Hazırda yoluxmaları müəyyən etmək üçün qapanma tətbiq olunan ərazilərdə kütləvi test prosesi həyata keçirilir. Martın əvvəllərindən Çində yoluxmalar davamlı artsa da, son günlərdə Şanxayda əldə olunan nəticələr antirekord həddindədir. Çində qeydə alınan yoluxmaların ümumi həcminin üçdəbiri bu şəhərdə müşahidə edilir. Son sutkada Şanxayda 438 təsdiqlənmiş (əsas hissəsi "Omikron" ştamı), 7788 asemptomatik (xəstəlik əlaməti olmayan) yerli yoluxma aşkarlanıb.

### İngiltərədə müşahidə edilən yeni variant

ÜST-ün son hesabatında Böyük Britaniyada aşkar edilən XE adlı yeni variantın BA.2 ilə müqayisədə 10 faiz daha yoluxucu olduğu qeyd edilir. Təşkilat bildirir ki, XE variantı da yoluxma və daşıdığı xüsusiyyətlərə görə əhəmiyyətli dəyişikliklər müşahidə edilən müddətə qədər "Omikron"a aid ediləcək. Bu, BA.1 və BA.2 alt növlərinin rekombinasiyası, yəni birləşməsidir.

İngiltərənin son rəsmi statistik məlumatlarına əsasən, COVID-19-un yayılması rekord səviyyəyə çatıb və son bir həftə ərzində təxminən hər 13 nəfərdən birinin virusa yoluxduğu qeyd edilir.

Həmçinin ÜST açıqlamalarında hazırkı vaxtda koronavirusun "Omikron"dan öncəki "Alfa", "Beta" və "Qamma" ştamlarına daha az hallarda rast gəlindiyini bildirib. Ümumilikdə, bu variantlarda kəskin azalmalar son 6 ayda qeydə alınıb. Son 90 gün ərzində isə bu ştamlara təkrar yoluxma barədə məlumat daxil olmayıb. Bu səbəblə hazırda dövr edən əsas növlər "Delta" və "Omikron"dur. COVID-19-un dünya üzrə yoluxma cədvəlinin ilk 3 pilləsində isə hələ də ABŞ, Hindistan və Braziliya dominantdır.

### Yoluxuculuğu çox olsa da, ölümcül deyil

Ştamın alt variantlarının mutasiyaya uğrayaraq yaranması yeni versiyaları meydana çıxarsa da, ölümcül və əvvəlki növlərdə müşahidə olunan ağır simptonların olmadığı qeyd edilir. Yalnız keçiriciliyi yüksək olduğundan qısa zamanda geniş miqyasa asanlıqla yayıla bilir. Eyni zamanda "Omikron"a yoluxanlarda mövcud olan simptomlar vaksinasiyaya, sağlamlıq vəziyyətinə və yaş həddinə görə dəyişir.

Məlumdur ki, vaksin olunmuş şəxslər xəstəliyi daha yüngül formada keçirirlər. Ştama xas olan digər xüsusiyyət isə təxmini 3-5 gün ərzində yoluxuculuğunun azalması və başa çatmasıdır. Lakin bəzi hallarda yoluxanların vəziyyətində yanaşı xəstəliklərin olması ilə əlaqədar kəskin ağırlaşmalar müşahidə edilir. Bu zaman infeksiyanın ev şəraitində müalicəsi effektiv nəticə göstərmədiyindən xəstəxanalarda həkim nəzarətində mübarizə daha məqsədəuyğundur.

Hazırda müxtəlif ictimai səhiyyə agentlikləri COVID-ə yoluxmuş xəstələri düzgün effektiv müalicə üsulları ilə sağaltmaq üçün müntəzəm tibb işçiləri ilə birgə işləyirlər. Yenə də peyvəndlər insanları COVID-19-dan qorumaq və yeni variantların ortaya çıxma ehtimalını azaltmaq üçün ən yaxşı ictimai sağlamlıq tədbiri olaraq qalır.

Təəssüf ki, dünya və ölkəmizdəki cəmiyyətin müəyyən bir hissəsi pandemiyanın bitdiyi fikrinə düşərək ehtiyatsız davranışlar sərgiləyir. İnsanlar maskalardan istifadə etməyi, peyvəndlərin qaydalara uyğun tətbiqini unutmamalı və izdihamlı yerlərdən, lazımsız qruplaşmalardan çəkinməlidirlər.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

**struktur idarələrinə tələb olunan süzgəclərin satın alınması**

***məqsədilə müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 aprel 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.**

***Tender komissiyası***

## "ŞUŞA ŞƏHƏRİ DÖVLƏT QORUĞU İDARƏSİ" PUBLİK HÜQUQİ ŞƏXS

Təkrar

**Şuşa şəhərində Cənub yaşayış zonası blok-1, 4 ədəd yaşayış binasının tikintisi ilə əlaqədar**

***açıq tender elan edir***

Açıq tenderin predmeti: Şuşa şəhərində Cənub yaşayış zonası-11 Blok-01/Yaşayış evi-1/Blok-A (Yeraltı dayanacaq ilə birlikdə), Blok-01/Yaşayış evi-2/Blok-B, Blok-01/Yaşayış evi-3/Blok-C, Blok-01/Yaşayış evi-4/Blok-D yaşayış binalarının tikintisi.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Açıq tenderin predmeti haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilir. Maraqlanan təşkilatlar iştirak haqqını ödəyərək yazılı müraciət edir və qeydiyyata alınırlar. Qeydiyyata alındıqdan sonra Bakı şəhəri, Səbail rayonu, Neftçilər prospekti 24 ünvanından əsas şərtlər toplusunu (Azərbaycan dilində) əldə edə bilərlər. Əlaqələndirici şəxs: Kərimli Babək Əyyub oğlu, telefon: (+994) 70 203 05 20

**Benefisiarın adı: "ŞUŞA ŞƏHƏRİ DÖVLƏT QORUĞU İDARƏSİ" PUBLİK HÜQUQİ ŞƏXS**
**Benefisiarın VÖEN-i: 8600208181**
**Valyuta: AZN**
**Benefisiarın bankı: "Kapital Bank" ASC-nin Səbail filialı**
**Filialın kodu: 200059**
**VÖEN: 9900003611**
**SWIFT kod: AIIBAZ2XXXX**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**Benefisiarın hesabı: AZ34AIIB380900C9449351435105**
**İştirak haqqı:1500,00 manat**

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
3. *Tender təklifi (zərflərin açıldığı gündən qüvvədə olma müddəti 60 bank günü);*
4. *Tender təklifinin ümumi qiymətinin 1 faizi məbləğində təminatın qüvvədə olma müddəti (zərflərin açılış tarixindən sonra) 30 bank günü;*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
8. *İddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
9. *Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
10. *Tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
11. *İddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
12. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
13. *İddiaçı inşa etdyi analoji tikililər barədə istismara qəbul Dövlət Aktının surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (iddiaçı ən azı tender predmeti həcmində tikinti işlərini yerinə yetirmiş və istismara qəbul Dövlət Aktı ilə təhvil vermiş olmalıdır);*
14. *İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);*
15. *Tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.*

İddiaçılar tender təklifi və təklifin təminatı istisna olmaqla bütün digər sənədləri **26 aprel 2022-ci il saat 15:00-a** qədər Tender komissiyasına təqdim etməlidirlər. Həmin sənədlərdən hər hansı birini təqdim etməyən və ya ixtisas göstəricilərinə dair tələblərə uyğun olmayan iddiaçının tender təklifi qəbul olunmur.

İddiaçılar öz tender təkliflərini (imzalanmış, möhürlənmiş, ikiqat bağlama zərfdə iki nüsxədə, əsli və surəti olmaqla müşayiət məktubu ilə birgə) **10 may 2022-ci il saat 15:00-a** qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər. Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Tender təklifi zərfləri **11 may 2022-ci il saat 15:00-da** Bakı şəhəri, Səbail rayonu, Neftçilər prospekti 24 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## "ŞUŞA ŞƏHƏRİ DÖVLƏT QORUĞU İDARƏSİ" PUBLİK HÜQUQİ ŞƏXS

Təkrar

**Şuşa şəhərində Cənub yaşayış zonası blok-2, 4 ədəd yaşayış binasının tikintisi ilə əlaqədar**

***açıq tender elan edir***

Açıq tenderin predmeti: Şuşa şəhərində Cənub yaşayış zonası-11 Blok-02/Yaşayış evi-5/Blok-E (Yeraltı dayanacaq ilə birlikdə), Blok-02/Yaşayışevi-6/Blok-F, Blok-02/Yaşayış evi-8/Blok-H (Yeraltı avtomobil dayanacağı ilə), Blok-02/Yaşayış evi-9/Blok-İ 3-5 mərtəbəli yaşayış binalarının tikintisi.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Açıq tenderin predmeti haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilir. Maraqlanan təşkilatlar iştirak haqqını ödəyərək yazılı müraciət edir və qeydiyyata alınır. Qeydiyyata alındıqdan sonra Bakı şəhəri, Səbail rayonu, Neftçilər prospekti 24 ünvanından əsas şərtlər toplusunu (Azərbaycan dilində) əldə edə bilərlər. Əlaqələndirici şəxs: Kərimli Babək Əyyub oğlu, telefon: (+994) 70 203 05 20

**Benefisiarın adı: "ŞUŞA ŞƏHƏRİ DÖVLƏT QORUĞU İDARƏSİ" PUBLİK HÜQUQİ ŞƏXS**
**Benefisiarın VÖEN-i: 8600208181**
**Valyuta: AZN**
**Benefisiarın bankı: "Kapital Bank" ASC-nin Səbail filialı**
**Filialın kodu: 200059**
**VÖEN: 9900003611**
**SWIFT kod: AIIBAZ2XXXX**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**Benefisiarın hesabı: AZ34AIIB380900C9449351435105**
**İştirak haqqı: 1500,00 manat**

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
3. *Tender təklifi (zərflərin açıldığı gündən qüvvədə olma müddəti 60 bank günü);*
4. *Tender təklifinin ümumi qiymətinin 1 faizi məbləğində təminatın qüvvədə olma müddəti (zərflərin açılış tarixindən sonra) 30 bank günü;*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
8. *İddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
9. *Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
10. *Tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
11. *İddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
12. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
13. *İddiaçı inşa etdyi analoji tikililər barədə istismara qəbul Dövlət Aktının surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (iddiaçı ən azı tender predmeti həcmində tikinti işlərini yerinə yetirmiş və istismara qəbul Dövlət Aktı ilə təhvil vermiş olmalıdır);*
14. *İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);*
15. *Tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.*

İddiaçılar tender təklifi və təklifin təminatı istisna olmaqla bütün digər sənədləri **26 aprel 2022-ci il saat 15:00-a** qədər Tender komissiyasına təqdim etməlidirlər. Həmin sənədlərdən hər hansı birini təqdim etməyən və ya ixtisas göstəricilərinə dair tələblərə uyğun olmayan iddiaçının tender təklifi qəbul olunmur.

İddiaçılar öz tender təkliflərini (imzalanmış, möhürlənmiş, ikiqat bağlama zərfdə iki nüsxədə, əsli və surəti olmaqla müşayiət məktubu ilə birgə) **10 may 2022-ci il saat 15:00-a** qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər. Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Tender təklifi zərfləri **11 may 2022-ci il saat 15:00-da** Bakı şəhəri, Səbail rayonu, Neftçilər prospekti 24 ünvanında açılacaqdır.

***Tender komissiyası***

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
**www.azerbaijan-news.az**

Xalidə Misir qızı Haqverdiyeva ilə "I.N.V" Mənzil-Tikinti Kooperativi arasında bağlanmış 08 may 2018-ci il tarixli müqavilə və Nərimanov rayonu, 1952-ci məhəllə, Ə.Orucəliyev küçəsi, 11A ünvanında yerləşən binanın 85 saylı mənzilinə dair verilmiş 04 sentyabr 2018-ci il tarixli maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə əzizi

**ELŞƏN İLHAM OĞLU TARQULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qubadan İldırım Məmmədov, Qəhrəman Qasımov, Fərman Əhmədov, Şirin Müzəffərov və Tahir Nuriyev Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyevə qardaşı

**ƏLƏDDİN ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əsəd Babayev, Mircəlil İsmayılov, Rafiq və Arif Hüseynovlar Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin "Azterminalkompleks" Birliyinin direktorunun 1-ci müavini Zeynal Tarquliyevə əzizi

**ELŞƏN İLHAM OĞLU TARQULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5572
Sifariş 914
Qiyməti 40 qəpik